# HƏQİQƏTLƏR - 2

HARUN YƏHYA

# MÜNDƏRİCAT


## Giriş

## I Fəsil: Təkamül Yanılması

- Bütün dünya təkamül nəzəriyyəsinin süqutuna şahid olur
- Qalıq tapıntıları təkamül nəzəriyyəsini təkzib edir
- Biq Bənq yaradılışın dəlili olmağa davam edir
- Kembri dövründə ortaya çıxan tikanlı canlılar, təkamül nəzəriyyəsini qüvvədən salır
- Təkamülçülər, təsadüfən qayalara çırpan dalğaların saraylar inşa edəcəklərinə inanacaq qədər sehirlənmişdirlər
- Bir yerdə dizayn varsa, onu meydana gətirən ağıl da var
- Türk milləti darvinizmin qurduğu tələni dağıtmışdır
- Darvinistlərin "demaqoqiya" və "təhriflərlə" dolu təbliğatlarına artıq heç kim aldanmır
- Təkamülçülər, küləklərin bir daş kütləsini, təsadüfən bir incəsənət əsərinə çevirə biləcəyinə inanacaq qədər qavrama qabiliyyətindən məhrumdurlar
- Bir təkamülçü saxta dəlil meydana gətirərkən...
- Təkamülçülər, tək bir üzüm giləsi belə meydana gətirə bilməz!
- Bütün canlılar, təkamülçülərin çıxılmaz vəziyyətə düşdüklərini göstərir
- Darvinistlər, şüursuz atomların cansız dünyanı təsadüfən canlandırdığını iddia edir
- Darvinistlərin sehrinin təsiri altında qalanlar, sağlam şüurla düşünə bilməzlər
- Darvinistlərin məntiqsizlikləri, bəşəriyyət üçün ibrət olmalıdır

## II Fəsil: Darvinizmin qaranlıq üzü

- Kommunizm süqut etdi deyənlər, diqqət! Kommunizm sükutdadır!
- Kommunistlər və faşistlər illərdir ki, insanları bir fəlakətdən digərinə sürükləyirlər
- Faşizm və kommunizmin ortaq sayıqlaması: Darvinist toqquşma
- Darvinizmə əsaslanan dialektika anlayışı insan cəmiyyətlərini xaosa sürükləmişdir
- Kommunist Lenin, insanların da, heyvanlarla eyni şəkildə öyrədilməsinin lazım olduğuna inanırdı
- Kommunistlər terroru və zülmü yeganə idarəetmə forması kimi qəbul edərlər
- Kommunizm donuq, cansıxıcı, sevgisiz, incəsənətdən və estetikadan uzaq bir cəmiyyət modeli yaratmağı qarşısına məqsəd qoyar
- Darvinist-kommunist dövlət, zorakılıq yoluyla vətəndaşını tapdalayar
- Kommunizmin qanlı nəticəsi: 100 milyon ölü
- Rusiyanın çeçenlərə verdiyi zülmün niyə bitmədiyini bilirsinizmi?
- Darvinist-kommunist dövlətin ölüm maşınları, milyonlarla insanı qətlə yetirdi
- Kommunist vəhşilik tam sürətlə davam edir
- "Darvinizm onsuz da süqut etdi" deyənlər xeyli yanılırlar
- Tarixdəki Darvin həvəskarları bəşəriyyətə zülmdən başqa heç nə vermədilər
- Kommunist Çin rəhbərliyi Maonun qırğınlarını davam etdirir
- Maoçu Qırmızı Çində uyğur qadınları aborta məcbur edilir, körpələr dünyaya gələn kimi öldürülür
- Mao pərəstişkarları, kommunist Maoçu Çinin Şərqi Türküstanlı soydaşlarımıza tətbiq etdiyi zülmü görmürlərmi?
- Kommunist Mao, törətdiyi qanlı inqilabı darvinizmə əsaslandırmışdı
- Maoçuluq təbliğatı aparanlar, niyə Şərqi Türküstanlı günahsız xalqa edilənləri görməzlikdən gəlirlər?

- Maonun ölkəsi Çin=cinayətlər, edamlar, qətliamlar...
- Maoçu Çində kommunizm ən vəhşi halıyla yaşamağa davam edir
- Kommunist Çində, Mao dövründə yaşanan zülm hələ bitmədi
- Darvinist-faşistlər, qatilləri qəhrəman elan edir
- Darvinist-faşist Mussoliniyə görə sülh zərərli idi
- Faşizm hiyləgərcəsinə forma dəyişdirir
- Darvinin təşviq etdiyi irqçilik, Avropada hələ də hökm sürür!
- Müasir Qərb dünyası darvinist Hitlerin yoluyla gedir
- "Hitler övladları" içlərindəki kin və nifrəti göstərmək üçün hər yoldan istifadə edirlər
- Türk düşmənçiliyinin kökləri 19-cu əsrdə axtarılmalıdır
- Türk millətini parçalamaq istəyənlərin sayıqlamaları darvinizmdən qaynaqlanır
- Dövrümüzdəki iki əhəmiyyətli təhlükə, darvinizmin doğru olduğunu hesab etmək və onu bir təhlükə kimi görməməkdir
- Marks və Engelsin cəhaləti
- Kommunist düşüncə fəlakət gətirər
- Kommunist Koreyada böyük bir nəsil aclıqdan və baxımsızlıqdan yox olur
- Darvinizmin müdafiə olunması iman edənlər üçün əhəmiyyətli bir təhlükədir
- Darvinizm=materializm=marksizm=anarxizm
- Bəzəkli sözlərlə anlaşılmaz və dərin göstərilməyə çalışılan marksist-leninist fəlsəfənin iddiaları olduqca bəsit və sadədir
- Qorxu və təhdid üzərində qurulmuş kommunist dövlət, öz əsgərlərinə belə işgəncə tətbiq edir
- Dialektik materializmin hiyləgər taktikası: bir addım irəli, iki addım geri
- Terroru və zorakılıq hadisələrini dayandırmağın yolu, darvinist təhsilə son verməkdir
- Darvinist təhsil bəla gətirər

- Darvinist elm insanlarının irqçi tətbiqlərinin hədəfi günahsız Afrika xalqıdır
- Gəncləri məktəb vaxtlarından darvinist yalanlarla öyrədənlər, meydana gətirdikləri təhlükədən xəbərsizdirlər
- Zəiflər yox edilməlidir deyən darvinizm, dünyadakı zülmün ən böyük məsuludur
- Kəşmirdəki zülm
- Əks fikirləri müharibə, zülm və qorxu yoluyla susdurmaq istəyənlər tarix boyu məğlubiyyətə uğrayıblar
- Türk milləti Balkan yarımadasından Orta Şərqə, Adriatik dənizindən Çinə qədər olan ərazilərdə nizam-intizam yaratmış yeganə gücün şərəfli varisidir

## III Fəsil: Həll quran əxlaqı

- Dünya artıq müharibələrin, ədalətsizliklərin, qarşıdurmaların sona çatmasını istəyir
- Bir tərəfdə aclıq bir tərəfdə israf
- İllərlə darvinist-materialist fəlsəfə ilə idarə olunan rus millətinin aqibəti bütün dünyaya ibrət olmalıdır
- Aclıq və səfaləti ortadan qaldırmaq üçün həll Quran əxlaqıdır
- Ziddiyyətlər sülh və tolerantlıqla aradan qaldırılar, vuruşma və boğuşma ilə deyil
- Yer üzündəki zülmə son qoymaq üçün...
- Zülmə qarşı biganə yanaşmaq, zülm edənlərdən biri olmaq deməkdir
- Şeytanın bir silahı: Romantizm
- Dünya hakimi olmaq türklərin fitrətində var
- Harun Yəhyanın dünya dillərinə çevrilən əsərləri müsəlmanlar üçün böyük şövq mənbəyi olur
- 21-ci əsr, Allaha yönəlişin müjdəsini verir

## IV Fəsil: Canlılardakı iman dəlilləri


- Koalanın üstün tibb məlumatı
- Bütün orqanları qüsursuz şəkildə əmələ gətirən hüceyrələr yaradılış möcüzəsidir
- Hüceyrələrinizin sizi normal bir insan halına gətirmələrini təmin edən Allahdır
- Barmaqlarınızı əmələ gətirən hüceyrələr, Allahın əmrinə itaət edərlər
- Bədəninizdəki sümüklərin sanki bir incəsənət əsəri kimi, incə-incə yonulduğunu heç düşünmüşdünüzmü?
- Sinir hüceyrələrini qoruyan mikroskopik qılaflar
- Hər yerdə Allahın varlığına aid dəlillər var
- Zülalların heyrətamiz həzm etmə prosesi yaradılış dəlillərindən biridir
- 1 qram DNT molekulu=1 trilyon CD dolusu məlumat
- Böyrək hüceyrələrinin sahib olduğu məlumat və şüurun qaynağı nədir?
- İnsan bədənindəki təhlükəsizlik işçiləri: Mikroorqanizmlər
- Elektrik siqnallarıyla açılıb-bağlanan hüceyrə qapıları
- Elm, yaradılış dəlillərini kəşf etməyə davam edərkən, təsadüf nəzəriyyəsini yenidən yerlə-yeksan etdi
- Suyu zəhərli bir maddəyə çevirən atom
- Yer üzündəki suyun niyə heç tükənmədiyini bilirsinizmi?
- Su bitkisi vallisneriya kosmos texnologiyası ilə yarışır
- Dəniz ilbizinin inanılmaz zəhər yaratma texnikası
- Tutuquşu balıqlarını ölümdən qoruyan yataq torbası
- Təbiətdəki hər canlı Allahın qüsursuz yaratmasının dəlilidir
- 70 qram yanacaqla fasiləsiz 4000 km. uçuş
- Allah hər canlıya ilhamla yol göstərər
- Qarışqalardakı möcüzəvi turşu fabriki

- Kəpənəklərdən, isinən kompyuter çipləri üçün tapılan həll
- Milçək qulağındakı dizayn eşitmə alətində inqilab yaradacaq

## V Fəsil: Maddənin ardındakı sirr

- Beynin içindəki möhtəşəm sirr
- Mal-dövlət toplama hərisliyinə qapılan insanların ən böyük qorxuları...
- Dünyanın ən zəngin insanı, əslində dünyanın ən çox mal-dövlətinə deyil, yalnız bu mal-dövlətin beynində yaranan görüntüsünə malikdir
- Beyindəki bir görüntü olan fabrik, yaxta və torpaq sahələrinin, özlərini boş yerə kədərləndirən sahibləri
- Bəşəriyyət artıq böyük həqiqəti anlayır
- Ev mi sizin içinizdə, yoxsa siz mi evin içindəsiniz?
- Bir stadion dolusu insanın hər biri ayrı bir matçı seyr edər
- Beyninizdəki böyük səssizlik içində uca səsli konserti dinləyən kimdir?
- Göyə atılan hava fişənglərini əslində beyninizin içində seyr edərsiniz
- Qaranlıq beynimizin içində rəngli bir dünyanı seyr etməyimiz, Ruhun varlığının dəlilidir
- Materialistlərin gizlətdiyi inanılmaz həqiqət 21-ci əsrdə ortaya çıxdı
- Turş olan limon deyil, beynimizdə qəbul etdiyimiz surətidir
- Beyindəki surətlərdən ibarət həyatın görməzlikdən gəlinməsi qeyri-mümkündür
- İnsan ancaq beynindəki yeməkləri yeyə bilər
- İndiyə qədər heç kim bir gülün əslini görmədi, həmişə surətini seyr etdi
- Dünya tarixindəki hər hadisə indi baş verir!
- Gəmi ilə səfərə çıxdığını zənn edən insan, beynindəki səfəri seyr edər
- Çox böyük bir həqiqəti görməzlikdən gəlməyin
- Beynimizdən kənardakı dünyada heç səs yoxdur
- Beyninizdəki dərin sükunətdə, konfransdakı səsləri dinləyən ruhunuzdur

- Avtomobil idarə edən insan, yolu beynindəki monitordan seyr edər
- Yoxsa siz maddənin əslini gördüyünüzümü hesab edirsiniz?
- Xarici aləmdə maddənin olduğunu iddia edənlərin əllərindəki yeganə dəlil xəyallarıdır
- Həyatınız boyu beyninizin içindəki kitabları oxuyaraq yeni şeylər öyrəndiyinizi bilirsinizmi?

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və

hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər

sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# Giriş

Kommunist mirasa sahib Rusiya hökumətinin, Çeçenistandakı müsəlmanlara verdiyi əziyyətlər, Maonun yoluyla getməkdə qərarlı olan Çin hökumətinin törətdiyi körpə qırğınları, Avropa ölkələrində darvinist təhsil alan gənclərin məktəblərindən cinayət maşını kimi çıxmaları, dünya cəmiyyətlərini xaosa sürükləyən hadisələr...

Bu kitabın qələmə alınma məqsədlərindən biri, qəzetlərdə gördüyünüz və ya xəbərlərdə izlədiyiniz bu kimi ictimai hadisələrin təməl səbəbini aşkara çıxarmaq və bunlara çıxış yolu gətirməkdir. Kitabda verilən nümunələrlə darvinizmdən qaynaqlanaraq bütün dünyada yaşanan kommunist-faşist zülm dəlilləşdirilməkdədir.

Kitabın hazırlanmasındakı məqsədlərdən biri də, indiyə qədər bəşəriyyətin məruz qaldığı zülmün qaynağının darvinizmin təlimləri olduğunu yenidən göstərməkdir. Faşizm və kommunizmin darvinizmlə olan əlaqəsi, irqçiliyin kökünün darvinizm olduğu, kommunist rəhbərliklərin siyasətlərinin darvinizmin iddiaları istiqamətində müəyyənləşdirilməsi kimi həqiqətlər tarixi və ictimai hadisələr əsasında araşdırılmaqdadır.

Darvinizmin elmi cəhətdən tamamilə əsassız olduğu son dövrdəki hadisələr əsasında dəlilləşdirilir, eləcə də, bu köhnə nəzəriyyənin niyə ayaqda tutulmağa çalışıldığı həqiqəti də gözlər önünə sərilməkdədir. Canlılardakı iman dəlillərindən bəhs olunan fəsildə verilən təəccüblü nümunələr isə yaradılış həqiqətini göstərməkdə və kainatdakı hər şeyi yaradanın üstün güc sahibi Rəbbimiz olduğunu bizə xatırlatmaqdadır.

Son fəsildə təfərrüatlı şəkildə izah edilən "böyük həqiqət" isə, qeyd olunan ideologiyaları dəstəkləyən digər bir qaynaq olan materializmin iddialarını kökündən çürüdür və dünyanın, materialist fəlsəfələrin iddiasından tam fərqli bir yer olduğunu göstərir.

Kitabı oxuduqdan sonra materializm və darvinizmin müdafiə olunmasının nə qədər böyük təhlükə olduğunu anlayacaq, zülmə qarşı etinasız yanaşmağın bəşəriyyət baxımından əhəmiyyətini görəcəksiniz.

# Bütün dünya təkamül nəzəriyyəsinin süqutuna şahid olur

Elm dünyasının genetikadan, paleontologiyadan, elektron mikroskopundan, DNT-dən xəbərsiz olduğu XIX əsrdə ortaya atılmış, Darvinin təkamül nəzəriyyəsi, müasir elmin inkişafı və müasir texnologiyanın elmi tədqiqatlara uyğunlaşdırılmasıyla əldə olunan yeni elmi biliklər tərəfindən təkzib edilmişdir. Bu gün artıq bir sıra inadkar təkamül tərəfdarı olan elm insanından başqa həqiqətləri görməyən və təkamül inancının süqutuna şahid olmayan heç kim qalmamışdır.

**Biokimya elmi,** tək bir zülal molekulunun belə təsadüfən meydana gəlmə ehtimalının "sıfır" olduğunu göstərmişdir.

**Genetika elmi,** DNT-ni kəşf etmiş və hər canlının hər hüceyrəsinin nüvəsində, o canlı ilə əlaqədar olduqca təfərrütalı məlumatların, şifrələnmiş halda saxlanmış olduğunu ortaya çıxartmışdır.

**Paleontologiya elmi**, canlıların Kembridən əvvəlki dövrdə bir anda meydana gəldiyini və canlı növləri arasında təkamül nəzəriyyəsinin olduğunu irəli sürdüyü ara-keçid formalarının olmadığını göstərmişdir.

**Kimya elmi**, Le Şatelye prinsipi ilə təkamül nəzəriyyəsinin primitiv dünyada meydana gələn üzvi maddələr iddiasının əksinə, amin turşularının sulu mühitlərdə birləşə bilməyəcəklərini sübut etmişdir.

**Geologiya elmi**, heç bir dövrdə təkamülçülərin canlıların meydana gəlməsi üçün iddia etdiyi atmosfer şəraitinin mövcud olmadığını müəyyənləşdirmişdir.

**Fizika elmi,** ilkin dünya şəraitində ultrabənövşəyi şüaların, "fotodissosiasiya" yoluyla meydana gəldiyi iddia edilən molekulları parçalayacağını sübut etmiş və təkamülün, ilkin amin turşularının atmosferdəki qazlardan meydana gəldiyi iddiasını qüvvədən salmışdır.

## Qalıq tapıntıları təkamül nəzəriyyəsini təkzib edir

Təkamülçülər 150 ildir ki, dünyanın hər yerində fikirlərini dəstəkləyəcək qalıqlar axtarmaqdadırlar. Ancaq bu günə qədər canlıların uzun zaman ərzində təsadüfən bir-birlərindən törədiklərini və daim dəyişdiklərini göstərən tək bir qalıq belə tapa bilməmişdirlər. Əksinə tapılan hər qalıq, canlıların bir anda meydana gəldikləri, yəni yaradıldıqları və növlərin dəyişmədiyi həqiqətini gücləndirmişdir.

**400 milyon illik köpəkbalığı qalığı** ("New Scientist", 20 yanvar 1984), **400 milyon illik dəniz ulduzu qalığı** ("Giovanni Pinna, Histoire de la Vie Fossiles"), **320 milyon illik tarakan qalığı** ("National Geographic, yanvar 1981), **230 milyon illik əqrəb qalığı** ("Nature", mart 1985), **1 milyard 100 milyon illik soxulcan qalığı** (oktyabr 1998), bu canlıların milyonlarla ildən bəri heç dəyişmədiyini və bugünkü hallarıyla meydana gəldiklərini açıq şəkildə sübut edən qalıqlardır.

Çarlz Darvin də bu həqiqəti görmüş, nəzəriyyəsinin ən böyük düyün nöqtəsinin bu xüsus olduğunu qəbul etmişdir:

"Əgər həqiqətən növlər o biri növlərdən yavaş-yavaş meydana gəlmişdirlərsə, niyə saysız ara-keçid formasına rast gəlmirik? Saysız ara-keçid forması olmalıdır, lakin nə üçün yer üzünün sayıla bilməyəcək qədər bir çox təbəqəsində basdırılmış halda tapa bilmirik? Niyə hər geoloji quruluş və hər təbəqə belə əlaqələrlə dolu deyil? Geologiya yaxşı şəkildə dövrlərə bölünmüş bir proses olduğunu göstərmir və bəlkə də, bu mənim nəzəriyyəmə qarşı irəli sürüləcək ən böyük etiraz olacaq". (Charles Darwin, The Origin of Species by Means of Natural Selection, səh.134, Senate Press, 1995)

Elmi kəşflər canlıların dəyişmədiyini və bir anda meydana gəldiyini göstərdiyi halda, təkamülçü paleontoloqların ağıl və elmdən üz döndərərək hələ də təkamül təbliğatı aparmaları olduqca təəccüblüdür. Bu, təkamülçülərin elmiliklə əlaqəsi olmayan bir vəsvəsə içində olduqlarının açıq göstəricisidir.

## Biq Bənq yaradılışın dəlili olmağa davam edir

1920-ci illərdən etibarən kainatın yaradılması haqqında əldə edilən məlumatlar, kainatın bundan müəyyən müddət əvvəl "böyük partlayış" (biq bənq) ilə yoxdan yaradıldığını sübut etmişdir. Yəni kainat sonsuz deyil, Allah tərəfindən yoxdan yaradılmışdır. Bu inkişaflarla yanaşı, dövrümüzə qədər kainatın yoxdan yaradılmasını sübut edən daha bir çox bilik əldə olundu.

Bu biliklərə yeni bir bilik də əlavə olundu. Ötən günlərdə mətbuatda, şimal qütbündə tədqiqatlar aparan 35 elm insanının kainatın meydana gəlməsiylə əlaqədar çox əhəmiyyətli bir nəticə əldə etdikləri xəbər verildi. Özlərinə Bumeranq qrupu adını vermiş ingilis, kanadalı, italyan və amerikalı mütəxəssislər, kainatın 14 milyard il bundan əvvəl bir insan yumruğu qədər kiçik bir qaz buludundan ibarət olduğunu açıqladılar. Verilən bu açıqlamalara görə qazların daimi hərəkəti sayəsində zəng səsini xatırladan bir səs dalğası meydana gəlirdi. Səs dalğaları partlayışlara səbəb oldu. Kainat genişlənməyə başladıqca bu səs dalğaları yayılmağa davam etdi. Qrupun başçısı Kaliforniya Ünivesitesindən John Ruhrun verdiyi açıqlamaya görə birinci dəfədir ki, aşkara çıxarılan bu səs dalğaları, böyük partlayışın (biq bənq) alovlandırıcısı idi.

Kainatı araşdıran bütün elm insanları daim tək bir həqiqətlə qarşılaşdılar: Kainat Allah tərəfindən yoxdan yaradılmış və yarandığı ilk andan etibarən qüsursuz şəkildə nizamlanmışdır. Necə ki, 21-ci əsr bunun kimi, kainatın daha bir çox sirrinin ortaya çıxdığı bir əsr olmağa davam edəcək.

## Kembri dövründə ortaya çıxan tikanlı canlılar, təkamül nəzəriyyəsini qüvvədən salır

Bu gün məlum olan heyvan tiplərinin demək olar ki, hamısı, yaşı 500-550 milyon il olaraq hesablanan Kembri dövründə meydana gəlmişdir.

Kembri dövründə tapılan qalıqlardan biri hallucigenia adlı bir canlıya aiddir. Bu və bunun kimi bir çox Kembri dövrünə aid canlı qalığında

hücumlara qarşı qoruyan tikanlar və ya sərt qabıqlar olar. Hallucigenia və digər Kembri dövrü canlıları haqqında təkamülçülərin qətiyyən cavablandıra bilmədikləri suallar vardır:

**1)** Heç bir ovçu canlının olmadığı bu dövrdə bu heyvanlar, bir ovçu ola biləcəyi ehtimalının mümkün olduğunu düşünərək müdafiə sistemləri ilə birlikdə necə meydana gəlmişdirlər?

Təkamülçülər müdafiə mexanizmlərinin, vaxt ərzində, canlı müdafiəyə olunmağa ehtiyac duyduqca, təbii seleksiya yolu ilə meydana gəldiyini iddia edərlər. Ancaq bu tikanlar, canlının hələ bunlara ehtiyacı olmadan, ilk dəfə yarandığı vaxt əmələ gəlmişdirlər.

**2)** Bu qədər çox mürəkkəb bir canlının, heç bir əcdada sahib olmadan, bir anda qalıq tapıntılarında özünü göstərməsi təkamülçülərin iddialarını qətiyyən təkzib edər. Bu, canlıların sadədən mürəkkəbə doğru təkamül prosesindən keçmədiklərini, Allahın "Ol" əmriylə yaradıldıqlarını göstərən açıq bir dəlildir.

## Təkamülçülər, təsadüfən qayalara çırpan dalğaların saraylar inşa edəcəklərinə inanacaq qədər sehirlənmişdirlər

Böyük məntiqsizliyə yol verən təkamülçülərin iddiasına görə; şüursuz, kor, ağılsız, biliyi və iradəsi olmayan atomlar, təsadüflər nəticəsində bir yerə gəlmiş və baş verən ardıcıl təsadüflər nəticəsində, bu şüursuz atomlar, milyardlarla il sonra özlərini elektron mikroskopu ilə araşdıran nüvə mühəndislərini, biologiya professorlarını, beyin cərrahlarını, vəkilləri, universitet tələbələrini, genetik mühəndisləri meydana gətirmişdirlər. Eləcə də, bu şüursuz atomlar, həmin bu müddət ərzində də olduqca şüurlu və planlı fəaliyyət göstərmişdirlər. Sanki nə əmələ gətirəcəklərini bilirlərmiş kimi, müəyyənləşdirdikləri xətaları aradan qaldırmış, yerinə doğruları gələnə qədər səbirlə milyonlarla il bir-birlərindən ayrılmadan, hər cür şəraitə dözərək gözləmişdirlər. Üstəlik bu vaxt sınaq-yanılma üsulundan istifadə etmiş, sanki bir kimya, fizika və ya biologiya professoru kimi olduqca ağıllı metodlardan istifadə etmişdirlər. Məsələn, göz meydana gəlmədən əvvəl,

sanki gözün meydana gələcəyini bilirlərmiş kimi, kəllə sümüyündə simmetrik və gözün quruluşuna ən uyğun böyüklük və dərinlikdə göz çuxurlarını meydana gətirməyə biganə yanaşmamışdırlar. Təkamülçülərə görə şüursuz atomlar və təsadüfi baş verən təbiət hadisələri o qədər ağıllı, o qədər uyğunlaşa bilən, o qədər planlı və intizamlıdırlar ki, bütün insanların ağlının bir yerə toplanıb edə bilməyəcəklərini onlar yavaş-yavaş etmişdirlər. Halbuki şüuru, ağlı və iradəsi olmayan atomların, təsadüflər nəticəsində ağıl, şüur və iradə sahibi insanları öz-özlərinə meydana gətirə bilməyəcəkləri çox aydındır.

Təkamülçülərin bu iddiaları, qayalığa çırpan dalğaların təsadüfən memarlıq şedevrlər, saraylar meydana gətirmələrinə inanmağa bənzəyir. Təkamülçülər, dalğaların təsadüfən saraylar, imarətlər tikəcəklərinə inanacaq qədər, təkamül nəzəriyyəsinin yaratdığı hipnoz altındadırlar.

## Bir yerdə dizayn varsa, onu meydana gətirən bir ağıl da var

Arxeoloqlar qazıntılar vaxtı yerin altından bəzək əşyaları, saxsı qablar, hətta çox az dərəcədə müəyyən formaya salınmış bir taxta belə tapdıqlarında, dərhal burada qədim bir mədəniyyətin, ağıl, bacarıq və şüur sahibi insanların yaşadıqlarını başa düşərlər.

Ancaq nədənsə bəzi paleontoloqlar, yerin altından saxsı qablarla müqayisə edilə bilməyəcək qədər mürəkkəb dizayn və xüsusiyyətlərə sahib, 100 göz bülluruna malik trilobitləri, ilbizləri, dəniz ulduzlarını tapdıqları vaxt, bunların burada təsadüfən və öz-özlərinə meydana gəldiklərini irəli sürə bilirlər.

Bu, təkamül nəzəriyyəsinin ən böyük ziddiyyətlərindən biridir. Bundan 550 milyon il əvvəl Kembri dövrü olaraq adlandırılan dövrdə, ilk canlılardan olan trilobitlər, ilbizlər, dəniz ulduzları kimi molyusklar dünyada bir anda ortaya çıxdılar. Cansız dünyaya bir anda həyat verən, nəfəs alan, görən, qüsursuz sistemlər sayəsində qidalanan, bir-birindən fərqli taktikalarla ov edən canlıları dünyaya yerləşdirən gücün sahibin kim idi? Bu gücün sahibi sonsuz elm və ağıl sahibi olan Rəbbimizdir.

## Türk milləti darvinizmin qurduğu tələni dağıtmışdır

Aşağıda ən soldakı şəkildə gördüyünüz kimi, bir parça dəmiri, plastik kütləni və misi, bir səhranın ortasına qoyub getsəniz, müəyyən fasilələrlə də bura gəlib baş çəksəniz, bunların bir velosipedə, son model bir avtomobilə və ya bir tıra çevrildiyini görə bilərsinizmi?

Əslində ağıl sahibi dəmir paslanmalı, plastik kütlə deformasiya olunmalı, mis də oksidləşməlidir, elə deyilmi?

Darvinistlərin buna verdiyi cavab isə sizin verdiyiniz cavabın tam əksidir. Yəni darvinistlər dağınıq, nizamsız, cansız maddələrin müəyyən zaman ərzində təsadüflərin köməyi ilə nizamlı, canlı və mürəkkəb varlıqlara çevrilə biləcəklərini iddia edərlər. Təkamülçülərin bu iddiası, bu mənanı verir: 1 nömrəli şəkildəki vəsaitlər zaman ərzində birləşərək təsadüfən bir velosiped, sonra yenə şüursuz təsadüflər sayəsində bir avtomobil, daha sonra tamamilə öz-özünə baş verən proseslər nəticəsində yük maşını və ən sonunda da tır əmələ gətirə bilərlər.

Türk milləti kəskin zəkası və üstün fərasətiylə bir çox dünya millətinin düşdüyü tələyə düşməmiş, darvinizmin bu kimi boş sözlərinə aldanmamışdır. Darvinizmin nə qədər məntiqsiz və elmdən kənar bir dünyagörüşü olduğunu anlamış yeganə millətdir. Böyük türk milləti bu tələni dağıdıb dünyanı darvinizm cəfəngiyatından xilas edəcək mənəvi gücə sahibdir.

## Darvinistlərin "demaqoqiya" və "təhriflərlə" dolu təbliğatlarına artıq heç kim aldanmır

Son günlərdə gündəmə gələn Genom layihəsinin nəticələrini dəyişdirməklə istifadə edən bəzi təkamülçü ətraflar, Darvinizm təbliğatına başladılar. İnsanın meymunla olan genetik bənzərliyini, insanın təkamül yoluyla meymundan əmələ gəldiyinə dəlil kimi göstərməyə çalışan həmin bu

ətraflar yanlış məlumatlarla xalqı yanıltmağa çalışırlar. Halbuki bəhs edilən bu bənzərlik xəyalidir və təkamülə dəlil ola bilməz, çünki;

**1)** Meymunun genetik quruluşu hələ də araşdırılmamışdır və dolayısilə insan genləri ilə müqayisə edilməsindən söhbət gedə bilməz.

**2)** Əgər meymun ilə insanın genetik quruluşunun 99% bənzər olduğu sübut edilsə belə bu, insanın təkamül yoluyla, meymunla ortaq bir əcdaddan gəldiyinə dəlil ola bilməz. Çünki, **insandakı genlərin sayı ilə qarğıdalıdakı genlərin sayı tamamilə eynidir.** Əgər təkamülçülərin iddiaları doğru olsaydı, qarğıdalı, insanın meymundan daha yaxın bir qohumu olardı.

İnsan bədəninin digər canlılarla molekulyar bənzərliklərə sahib olması olduqca normaldır. Çünki bütün canlılar eyni molekullardan təşkil olunur, eyni sudan və havadan istifadə edir, eyni molekullardan ibarət qidalardan istifadə edir. Əlbəttə ki, maddələr mübadiləsi sistemləri və dolayısilə genetik strukturları bir-birinə bənzəməlidir. Ancaq bu, onların ortaq bir əcdaddan təkamül yolu ilə gəldiklərinin və ya "təbiətin təsadüfən bu hissələri bir yerə gətirərək fərqli canlılar meydana gətirdiyinin" bir dəlili deyil.

Əslində canlılardakı bu **"ortaq vəsait", təkamülün deyil, "ortaq dizaynın", yəni canlıların hamısının eyni plan əsasında tək bir Yaradıcı tərəfindən yaradılmış olduqlarının dəlillərindəndir.**

Təkamül nəzəriyyəsi, bu günə qədər edilən demaqoqluq və təhriflərlə mövcudluğunu davam etdirdi. Ancaq bugünkü gün doğru və sübutlu məlumatlar hər insana çox qısa vaxtda çata bilir və bu sayədə insanlar tərəfli və birməqsədli təbliğatlar, təhriflər və demaqoqluqlarla aldadıla bilmir. Bu darvinizmin sonunu gətirən hadisələrdəndir.

## Təkamülçülər, küləklərin bir daş kütləsini, təsadüfən bir incəsənət əsərinə çevirə biləcəyinə inanacaq qədər qavrama qabiliyyətindən məhrumdurlar

Təkamülçülər, bundan 5 milyard il əvvəl bəzi atomların təsadüfən birləşərək mükəmməl bir plan qurduqlarına inanarlar. Təkamülçülərin bu

xəyali ssenarilərinə görə, cansız və şüursuz atomlar bu görüşlərində bir canlı hüceyrəsi meydana gətirməyə qərar vermiş və bunları demişdirlər:

"Biz təsadüfi şəkildə bir-birimizin ətrafında fırlanaq. Bu vaxt külək, fırtına, şimşəklər, ultrabənövşəyi şüalar, zəlzələlər bizi təsadüfən birləşdirər. Biz də bu şəkildə gələcəkdə canlı üçün lazım olacaq zülalları istehsal edən fabrikləri, canlını meydana gətirmək üçün lazım olan bütün məlumatların bir yerdə saxlandığı məlumat bankını, zülalların saxlanıldığı yeri, canlının yaşaması üçün lazımi enerjini təmin edəcək elektrik stansiyasını, artıq maddələri yox edəcək həzm fermentlərini istehsal edərik. Həmçinin zülal istehsalı üçün lazım olan daşıma, surət çıxarma vasitələrini, hüceyrənin giriş-çıxışına nəzarət edən hüceyrə qapılarını, hüceyrənin içindəki bütün vəsait və strukturların bir-birindən ayrılmalarının qarşısını alan hüceyrə membranını və üstəlik canlı hüceyrəsinin yararlı olması üçün lazım olan nə varsa hamısını tam şəkildə əmələ gətirib müəyyən forma verərik. Beləliklə də, təsadüfən, bir fabrikdən daha üstün xüsusiyyətlərə sahib bir hüceyrə əmələ gətirərik. Hətta sonra bunlardan yüz trilyonlarla əmələ gətirib özümüzü araşdıracaq atom professorlarını əmələ gətirərik".

Məhz təkamülçülərin təsadüfən yaranma iddialarının əsli budur. Onların bu iddiaları, Taksim Meydanında yerləşən bir daş kütləsinin küləklərin təsirindən zaman ərzində mükəmməl incəsənət əsərinə çevrildiyinə, küləklərin bir heykəltaraş kimi incəsənət əsəri meydana gətirdiklərinə inanmaqdan olduqca məntiqsiz və ağlasığmazdır.

Təsadüflər və şüursuz təbiət hadisələri incəsənət əsərləri, mükəmməl dizayna sahib strukturlar meydana gətirə bilməzlər. Bunlar üçün ağla, şüura və biliyə ehtiyac vardır. Buna görə də, darvinizm 20-ci əsrdə canlılardakı olduqca mürəkkəb strukturların və dizaynın kəşf edilməsi nəticəsində süqut etmişdir.

## Bir təkamülçü saxta dəlil meydana gətirərkən...

Təkamülçülər elmin təkzib etdiyi nəzəriyyələrini insanlar arasında yaymaq üçün boş durmaz, daim saxta dəlillər meydana gətirərlər.

Yandakı şəkillər, təkamülçülərin uğradıqları böyük məğlubiyyəti tam açıq şəkildə gözlər önünə sərir. Çünki əllərində nəzəriyyələrini müdafiə edə biləcəkləri heç bir dəlil olmadığı üçün, təkamülçülər bilavasitə öz əlləriylə saxta dəlil meydana gətirirlər. Əvvəlcə metal parçasından xəyali bir skelet meydana gətirir, daha sonra bunun üzərinə plastilindən hazırlanmış xəyali bir bədən yerləşdirir, mövcud olduğuna inandıqları xəyali tüklərlə bütün bədəni örtür, daha sonra da silikonla rəngləyirlər. Təkamülçü elm insanlarının xəyal gücüylə düz mütənasib şəkildə inkişaf edən bu elm sahəsinə, həmçinin maraqlı bir ad da vermişdirlər: Rekonstruksiya, yəni "yenidən qurma!"

Ancaq təkamülçülər bu saxta dəlilləri meydana gətirərkən nə elmi bir məlumat, nə bir dəlil, nə də bir təcrübədən faydalanarlar... **Əllərindəki tək qaynaq sonsuz xəyal gücləridir.**

Məsələn, bu rekonstruksiya işini həyata keçirərkən;

**1)** Əllərində bir diş parçası və ya bir çənə sümüyü parçasından başqa bir dəlil yoxdur.

**2)** Bu sümük parçasından yola çıxaraq bir skelet, bədən forması, üz, üz üçün vəhşi bir ifadə, həyat yoldaşları və uşaqlar, daha sonra da ictimai bir həyat mənzərəsi ortjaya çıxararlar.

**3)** Torpağın altında qısa müddətdə çürüyən əzələ, yağ, qığırdaq kimi yumşaq toxumaları tamamilə xəyali surətdə canlandırarlar.

Bu həqiqəti dünya səviyyəsində tanınmış elm insanları da etiraf edir. Harvard Universitetindən Earnst A. Hootennin bu sözləri "yenidən qurma" saxtakarlığını açıq şəkildə gözlər önünə sərir:

Yumşaq hissələrin təkrar inşası çox riskli təşəbbüsdür. Dodaqlar, gözlər, qulaqlar və burun kimi orqanların altlarındakı sümüklərlə heç bir əlaqələri yoxdur. Məsələn, neandertal adama məxsus kəlləni eyni cür şərh etməklə, onu bir meymuna və ya bir filosofa bənzədə bilərsiniz. Qədim insanların qalıqlarına əsaslanaraq edilən canlandırmaların demək olar ki, heç bir elmi dəyəri yoxdur və onlardan cəmiyyəti istiqamətləndirmək məqsədiylə istifadə edilir... Bu səbəblə də rekonstruksiyalara çox güvənilməməlidir. (Earnst A. Hooten, Up From The Ape, New York: McMillan, 1931, səh. 332.)

Hootenin söylədiyi kimi, nə təkamülə, nə də təkamülçülərin saxta dəlillərinə etimad etmək qeyri-mümkündür. Çünki bu günə qədər nə elmi çalışmalar, nə də arxeoloji tədqiqatlar nəticə verməmiş, təkamülçülərin gözlədikləri dəlillər heç cür tapıla bilməmişdir. Buna görə də təkamülçülər bu

saxta dəlillərlə, əlacsız şəkildə nəzəriyyələrinin hökm sürmə müddətini uzatmağa çalışırlar. Ancaq bu, təkamül nəzəriyyəsinin son nəfəsləridir.

Təkamülçülərin xəyal gücləri ilə ortaya çıxan xəyali yarı meymun-yarı insan rekonstruksiyalarının necə yaradıldığını izah edən bir jurnal yazısı.

## Təkamülçülər, tək bir üzüm giləsi belə meydana gətirə bilməz!

Təsadüfləri, cansız maddələri və şüursuz atomları yaratma gücünə sahib varlıqlar zənn etmək çox böyük səhvlikdir. Ancaq darvinistlər cansız maddələri ağıl və iradə sahibi, qərar verə bilən və bu qərarları icra edə bilən varlıqlar olaraq düşünər, təsadüflərin hər şeyi yarada biləcəyinə inanarlar. Gülü, portağalı, almanı, çiyələyi, bananı, qarpızı, cəfərini, bir sözlə, mövcud olan hər şeyi, canlı-cansız bütün varlıqları təsadüflərin əmələ gətirə biləcəyinə inanarlar.

Madam ki, təkamülçülər hər şeyin təsadüflə meydana gəldiyinə inanırlar, o zaman dadıyla, qoxusuyla, sululuğuyla, formasıyla, bir budaqdakı mükəmməl gözəlliyiylə fərqlənən **tək bir üzüm giləsini** meydana gətirsinlər! Dünyanın ən tanınmış elm insanlarını (hətta keçmişdə yaşamış bütün elm insanlarını) bir yerə toplasınlar, dünyanın ən inkişaf etmiş və ən yeni texnologiyasıyla təchiz edilmiş laboratoriyalarından istifadə etsinlər, qabaqcıl texnologiyanın bütün mümkün imkanlarını bunun üçün səfərbər etsinlər və bu iş üçün illərlə səy göstərsinlər... Nə edirlərsə etsinlər, nəinki, tək bir üzüm giləsini, üzümü meydana gətirən tək bir hüceyrəni belə yaratmaları qeyri-mümkündür. Təkamülçülərin görməzlikdən gəldikləri ən əhəmiyyətli həqiqət məhz budur. Hər şeyi yoxdan yaradan aləmlərin Rəbbi olan Allahdır.

## Bütün canlılar, təkamülçülərin çıxılmaz vəziyyətə düşdüklərini göstərir

Darvinizmin müdafiəçiləri, bütün canlıların yaşamaq və öz ehtiyaclarını təmin etmək üçün savaşmaq məcburiyyətində olduqlarına, yoxsa "aradan götürülərək yox olacaqlarına" inanarlar. Bunun müqabilində, canlıların nə üçün fədakarlıq etdiklərini və başqa canlılara fayda verdiklərini, qətiyyən izah edə bilməzlər.

Məsələn, işçi arılar dünyaya gəlmələrindən sonrakı ilk 3 gün ərzində "şanı təmizləmək" vəzifəsini yerinə yetirərlər.

3-cü gündən sonra bir həftə müddətində başlarında bir cüt "dayə" vəzisi əmələ gələr və gənc sürfələr üçün qida ifraz etməyə başlayarlar.

10-cu gündən etibarən qarınlarında "mum ifraz edən" vəzlər meydana gələr, həm də pətək inşası və bərpası işinə başlayarlar, onlar artıq bir "inşaat işçisi"dirlər.

20-ci gündə mum vəziləri öz funksiyalarını itirər və yerlərində zəhər vəzləri meydana gələr. Arılar bundan sonra zəhər hazırlamağa başlayar, çünki yeni vəzifələri "şanın keşiyində durmaq"dır.

Həyatlarının son günlərini isə "çiçək nektarı toplayıcısı" kimi keçirərlər.

Açıq şəkildə görülür ki, sayılan bu xüsusiyyətlərdən heç biri arının öz mənfəətinə xidmət edir. Əksinə bunların hər biri köməkləşmə, fədakarlıq nümunəsidir. Həyatları boyu müxtəlif fədakarlıqlar edə bilmələri üçün bədənlərində gedən dəyişikliklər isə, öz iradələri və istəkləri xaricində meydana gəlir. Üstəlik bu fövqəladə əməliyyatların hamısını yer üzündə əmələ gəlmiş ilk arıdan etibarən yaranmış bütün arılar eyni mükəmməliklə yerinə yetirmişdir.

Şübhəsiz ki, onları yaradan sonsuz qüdrət sahibi Allah, arılara hər gün görəcəkləri işləri vəhy edir; bizə də bu möcüzələri göstərərək Öz sənətinin böyüklüyünü və incəliyini təqdir etmə imkanı tanımaqdadır.

## Darvinistlər, şüursuz atomların cansız dünyanı təsadüfən canlandırdığını iddia edir

Darvinistlər, hər cür əlverişsiz şərtin olduğu mühitdə, ammonyak, karbon, azot, fosfor kimi cansız və şüursuz atomların təsadüflər nəticəsində bir yerə toplandıqlarını və sonra ortaq bir qərar verdiklərini iddia edərlər. Onlara görə atomlar verdikləri bu qərarı tam şəkildə icra etmiş və bu cansız dünyada təsadüfən ağacları, qazonları, qarışqaları, tutuquşularını, ilbizləri, almaları, tutları, xurmaları, qu quşlarını, əsı qırğıları, delfinləri, mərcanları, yosunları, arıları, atları, dovşanları, cökə ağaclarını, gülləri, jasminləri, çobanyastıqlarını, bort mühəndislərini, beyin cərrahlarını, genetik mühəndisləri, özlərini meydana gətirən atomları araşdıran atom professorlarını meydana gətirmişlər.

Darvinistlər, bu ağlasığmaz iddialarını qəliz, dolaşıq cümlələrdən və bol-bol latın sözlərindən istifadə edərək dilə gətirərlər. Bu yolla iddialarındakı məntiqsizliyi gizlətməyə çalışarlar. Onların vəziyyətindən xəbərsiz kimsələr də, bu tilsimli üslubdan təsirlənib: "bunlar nə qədər bilikli, üstün insanlardır" deyərək, bütün dediklərini qeydsiz-şərtsiz qəbul edərlər.

Halbuki, darvinizmə inanmaq, məntiqin, düşünmə qabiliyyətinin, ağlın və qavrayışın tamamilə yox olması deməkdir. Normal bir insan: "daşlar təsadüfən sıraya düzülüb, bir göydələni bütün təchizatıyla birlikdə inşa etdi" deyə bilərmi? Əlbəttə deyə bilməz. Darvinistlər isə, inanılması bundan daha da çətin bir iddia irəli sürərək, şüursuz atomların sıraya düzülüb canlandıqlarını və canlı varlıqları meydana gətirdiklərini söyləyirlər..

Türk milləti, ağlı və bəsirəti ilə darvinizmin boş sözlərinə heç vaxt inanmadı. Bu fəlsəfənin axmaq iddialarını bütün dünyaya bəyan edərək, insanları bu qəflət yuxusundan oyandırma missiyasını öz boynuna götürdü.

## Darvinistlərin sehrinin təsiri altında qalanlar, sağlam şüurla düşünə bilməzlər

Təkamülçülər, təbiətdə mövcud olan 200-dən artıq amin turşusu

növündən, zülalları əmələ gətirəcək 20-sininin, müəyyən saylarda və müəyyən ardıcıllıqla birləşmələri və zülalları əmələ gətirmələrini kor təsadüflərlə əlaqələndirərlər. Halbuki bu, qeyri-mümkündür. Məsələn, 400 amin turşusundan ibarət bir zülalı meydana gətirən amin turşularının istənilən sırada düzülmə ehtimalları $10^{520}$-də bir ehtimaldır. Bu, 1-in yanına 520 ədəd sıfır qoyulduqda meydana gələcək ədəddə bir ehtimal deməkdir. (1 milyardda ancaq 9 sıfır olduğunu düşünsək, bu ədədin böyüklüyünü təssəvvür edə bilərik). Açıq şəkildə görüldüyü kimi qətiyyən belə bir təsadüf baş verə bilməz. Üstəlik burada orta böyüklükdəki tək bir zülaldan söhbət gedir. İnsan bədənində minlərlə növ zülal var və bəziləri minlərlə amin turşusundan ibarətdir.

Zülalların təsadüfən meydana gələ bilməyəcəyi həqiqəti, ən qatı təkamülçülər tərəfindən belə etiraf edilir.

Təkamülçü geoloq William Stokes isə bu həqiqəti belə etiraf edir:

"Əgər milyardlarla il ərzində, milyardlarla planetin səthi tərkibində lazımi amin turşuları olan sulu qatılaşmış təbəqəylə dolu olsaydı belə, yenə zülal meydana gələ bilməzdi". (W. R. Bird, The Origin of Species Revisited, Nashville, Thomas Nelson Co., 1991, səh. 305)

Zülalların təsadüfən meydana gələ bilməyəcəkləri, ağıl, şüur və güc sahibi bir Yaradıcı tərəfindən var edildikləri qəti bir həqiqətdir.

Ancaq əsl əhəmiyyətli olan, təkamülçülərin bu həqiqəti görə bilməmələridir. Təkamülçülər zülalların təsadüfən meydana gəldiyini iddia etməklə, masaya tökülən mürəkkəbin təsadüfən səhifələr dolusu mənalı bir məqalə meydana gətirəcəyini qəbul etməkdən daha da axmaq bir iddiaya inanırlar. Bu, böyük ağılsızlıq və məntiqsizlik nümunəsidir. Heç kim bunu söyləyən bir insana etibar edə bilməz və ya mühakimə qabiliyyəti olmayan belə bir insana heç bir məsuliyyət yükləməz.

Türk milləti darvinist cəfəngiyatları elm və ağıl yoluyla susdurmuşdur. Bundan belə darvinizmin bəşəriyyəti ovsunlamasına və onların düşünmə qabiliyyətini yox etməsinə icazə verməyəcək.

## Darvinistlərin məntiqsizlikləri, bəşəriyyət üçün ibrət olmalıdır

Darvinistlər, canlıların təməl elementi olan zülalların, bəzi atomların təsadüfən birləşmələriylə əmələ gəldiklərini iddia edərlər. Darvinizmin nə qədər inanılması qeyri-mümkün, ağılsız və məntiqsiz bir nəzəriyyə olduğunu anlamaq üçün, zülallar haqqında veriləcək qısa bir məlumat kifayət edəcək.

Elm insanları 500 amin turşusudan ibarət bir zülalın (minlərlə amin turşusudan ibarət zülallar da mövcuddur) təsadüfən meydana gəlmə ehtimalını hesablamış və belə bir nəticəyə gəlmişdirlər:

**1)** Amin turşularının faydalı zülalı meydana gətirə bilmək üçün uyğun düzülmə ehtimalı: $10^{650}$-də 1 ehtimal

**2)** Amin turşularının sol-əlli olma ehtimalı (amin turşuları təbiətdə həm sağ-əlli, həm də sol-əlli halda mövcuddurlar. Ancaq canlıların quruluşundakı zülallar yalnız sol-əlli amin turşularıdan meydana gələrlər): $10^{150}$-də 1 ehtimal

**3)** Amin turşularının aralarında "peptid əlaqəsi" ilə bağlanmaları ehtimalı: $10^{150}$-də 1 ehtimal

## Ümumi ehtimal: $10^{950}$-də 1 ehtimal

$10^{950}$ ədədi, 1-in yanına 950 sıfırın əlavə olunmasıyla əmələ gələcək astronomik ədəddir (bu da qeyri-mümkün bir ehtimal deməkdir). Bu ədədin böyüklüyünü anlaya bilmək üçün bu nümunələr üzərində düşünə bilərsiniz:

- 1 milyard ədədini yazmaq üçün 1-in yanına yalnız 9 sıfır əlavə olunar. Qeyd olunan ədədi yazmaq üçünsə 950 sıfır lazımdır.
- 1 milyard ədədini yazmaq üçün 1-in yanına 9 sıfır yazılar. Ancaq, yerə 1 milyard muncuq atdığınız vaxt, bu ədədin olduqca böyük olduğunu görəcəksiniz. $10^{950}$ ədədi, 950 sıfırla yazılar, ancaq bu saydakı muncuq miqdarı təsvir edilə bilməyəcək qədər çoxdur.
- Kainatdakı bütün atomların ətrafında fırlanan elektronların sayı

# Kommunizm süqut etdi deyənlər, diqqət! Kommunizm sükutdadır!

Kommunizmin süqut etdiyini zənn edənlər xeyli yanılırlar. Çünki, kommunistlər Leninin; "bir addım irəli, iki addım geri" taktikasını tətbiq edirlər.

Marksist-leninist fəlsəfə cəmiyyətlərin tarixi inkişaf dövrlərlərini üç mərhələyə ayırır: Feodalizm, kapitalizm və son olaraq da kommunizm.

Bu gün Rusiyadakı kommunistlər, çarlıq dövründən sonra kommunizmə keçiddə tələsikliyə yol verildiyini, buna görə də kommunizm rejiminin dağıldığını düşünürlər. Bunun üçünsə, marksist-leninist düşüncənin olmasını uyğun gördüyü kapitalist mərhələnin yaşanmasının lazım olduğunu müdafiə edirlər.

Məhz buna görə də, bu gün Rusiyadakı kommunistlər mərhəmətsiz kapitalizm quruluşunu təşviq edərək tətbiq edirlər.

Kommunistlərin məqsədi, kapitalizmi ən güclü şəkildə tətbiq etmək və beləliklə də, iqtisadi çətinliklər şəraitində xalqı tapdalayıb, mafiya ilə yox edib, əxlaqi degenerasiyanı yüksək səviyyəyə qaldırıb, ən sonunda isə kommunizmi yeganə çarə kimi göstərməkdir. Bu səbəblə də, bu gün Rusiyada kiçik qızlar satılır, insanlar soyuqdan, aclıqdan ölür, narkotik asılılarının, QİÇS xəstələrinin sayı hər keçən gün daha da artır, mafiyanın hakimiyyəti getdikcə güclənir, eləcə də, xalq daim qorxu və dəhşət içində yaşayır.

SSRİ-nin isə yalnız adı dəyişdi, hərbi gücü, idarəetmə komandası və zehniyyəti ilə, əslində tam bir kommunist dövlətdir. Bu gün hələ də türkdilli dövlətlər üzərindəki hərbi təzyiqini davam etdirir. Bütün dəyişikliklər formal və məkrli xarakterlidir.

Ancaq türk milləti kommunizmin taktikalarına aldanmayacaq qədər ağıl, bəsirət və fərasət sahibidir. Bundan illərlə əvvəl kommunizmin yolunu kəsdiyi kimi, bu gün də kommunizmin təməli olan darvinist fəlsəfə ilə ciddi şəkildə fikri mübarizə aparır və hər iki ideologiyanı tarixin qaranlıq səhifələrinə basdırmaqda qərarlı davranır.

## Kommunistlər və faşistlər illərdir ki, insanları bir fəlakətdən digərinə sürükləyirlər

Kommunistlər, xalqda faşizmə qarşı narazılıq və reaksiya meydana gətirmək üçün əvvəlcə faşizmi dəstəkləyər və inkişafını seyr edərlər. Beləliklə, bir müddət sonra xalq faşizmin ağır təzyiq və zülmündən xilas olmaq üçün çırpınmağa başladığı vaxt, onlara tək alternativ çıxış yolu olaraq kommunizmi göstərərlər.

Faşistlər də eynilə kommunistlər kimi, əvvəlcə kommunizmi dəstəkləyər və inkişaf etdirərlər. Bu dəfə xalq kommunizmin zülmü və qəddarlığı altında qorxu, maddi və mənəvi çətinlik yaşayarkən, indi də faşizmi yeganə qurtuluş yolu kimi göstərərlər.

On illərdir ki, bir çox ölkədə xalq bu qorxunc qapalı dairədə, bir fəlakətdən digərinə sürüklənir.

Bu, darvinizmin bəşəriyyətə başına gətirdiyi bəlanın qısa xülasəsidir. Faşizm və kommunizm, qaynağı darvinizm olan iki ayrı zülm sistemidir və bəşəriyyətə, bu iki sistemədən başqa heç bir variant yoxmuş kimi göstərilir.

Ancaq, darvinizmin elmi cəhətdən çökməsi nəticəsində, bəşəriyyət artıq; "ölümlərdən ölüm", "fəlakətlərdən fəlakət" bəyənmək məcburiyyətində qalmayacaq. Türk millətinin liderliyində, darvinist fəlsəfənin yerinə hakim olan Quran əxlaqı sayəsində insanlar qaranlıqlardan nura çıxacaq. 21-ci əsrdə baş verən bir çox hadisə bu gözəl xəbəri müjdələyir.

## Faşizm və kommunizmin ortaq sayıqlaması: Darvinist toqquşma

Kommunizmin banisi **Marks**, tarixin inkişaf etməsinin yeganə yolunun qarşıdurma olduğunu iddia edirdi. Cəmiyyətlərin və ideologiyaların, ancaq qarşıdurmayla, müharibəylə, çevrilişlə inkişaf edə biləcəyi düşünürdü. **"Əgər ziddiyyət və qarşıdurma olmasaydı, mövcud olan hər şey necədirsə, o cür də**

**qalardı"** deyirdi.

Marksın bu düşüncələri, zaman keçdikcə özünə çox sayda tərəfdar qazandı. Ən qəddar qətliamlar törədən kommunist lider **Lenin** bunu; **"inkişaf, zidd güclər arasında gedən mübarizədir"** (Lenin, Seçme Eserler, cild 11, səh. 81) sözləriylə ifadə edirdi. Bu mübarizənin də qan axıtmaqla aparılmasının lazım olduğunu müdafiə edirdi.

Kommunist liderlər kimi faşist liderlər də zorakılıq, çevriliş və müharibənin, inkişafın yeganə yolu olduğuna inanırdılar. Hitlerin ən əhəmiyyətli fikri dayağı olan, irqçi alman tarixçisi Henrix von Treitschke; **"xalqlar, ancaq Darvinin həyat mübarizəsinə bənzər güclü rəqabətlə inkişaf edə bilər..." (**Burns, Çağdaş Siyasal Düşünceler 1850-1950, səh. 446) deyirdi. Zorakılığın tarixdə hərəkətverici qüvvə olduğuna və müharibənin inqilab meydana gətirəcəyinə inanan digər bir faşist lider isə, Mussolini idi. İmperiyanın zəifləməsini; "onun, təkamülün ən əhəmiyyətli hərəkətverici qüvvəsi olan müharibədən qaçmağa çalışmasıyla" əlaqələndirirdi.

Bu iki ideologiyanın əsas təməli isə, Darvinin təbiətdə mövcud olduğunu irəli sürdüyü; "həyat mübarizəsi" anlayışı idi. Marksın dialektik materializminin təməli olan qarşıdurma iddiası və faşizmin müharibənin hərəkətverici qüvvə olduğuyla əlaqədar iddiası, Darvinin təkamül nəzəriyyəsinin, ictimai elmlərə uyğunlaşdırılmasıdan başqa bir şey deyildi.

Halbuki daimi bir qarşıdurma olmasının lazım olduğunu müdafiə etmək, insanları tamamilə məhv etməyə doğru atılan bir addım, dibsiz bir "**qan axıtma quyusu**"dur. Bu ideologiyalara tabe olan hər kəs mütləq bir-biriylə vuruşar, bir-birinə zülm edər və inkişaf adı altında bir-birinin qanını axıdar. Allahın insanlara əmr etdiyi sevgi, hörmət, fədakarlıq, bölüşmə kimi insani duyğular, sülh və əmin-amanlıq mühiti tamamilə ortadan qalxar. Necə ki, geridə qoyduğumuz 20-ci əsr bu ideologiyalar ucbatından yaşanan əzab və bəlalar dövrü olmuşdur.

Bu ideologiyaların cəfəngiyatlarına heç vaxt aldanmayan, daim Quran əxlaqına bağlı, şəfqətli və ədalətli olmalarıyla dünyaya nümunə olan türk milləti, dünya sülhünün və əmin-amanlığın yeganə təminatçısıdır. Millətimiz boynuna düşən tarixi məsuliyyəti yerinə yetirir.

# Darvinizmə əsaslanan dialektika anlayışı insan cəmiyyətlərini xaosa sürükləmişdir

Kommunist ideologiyanı fəlsəfi təməllərə əsaslandıran Karl Marks, görüşlərini bildirmək üçün "dialektika" anlayışından istifadə etmişdir. "Dialektika", Marksın universitet müəllimi olan tanınmış idealist filosof Fridrix Hegelin meydana gətirdiyi bir anlayışdır. Hegel, hər şeyin bir-biriylə qarşılıqlı mübarizə apardığını, bu mübarizənin "tezis-antitezis-sintez" düsturuyla işlədiyini iddia etmişdir. Məsələn, Hegelə görə bir fikir (yəni tezis) cəmiyyətdə rəğbətlə qarşılandığında, zaman keçdikcə buna zidd gələn zidd-fikir (yəni antitezis) meydana gələcək, tezis və antitezisin qarşılıqlı təsirindən yeni bir fikir, yəni "sintez" meydana gələcək və bu proses bu cür (tezis-antitezis-sintez ardıcıllığıyla) davam edəcək.

Tezis və antitezisin daim bir-biriylə mübarizə halında olmasını uyğun görən dialektika anlayışının təməlində, həyatın mübarizə və döyüş yeri olduğunu və bu mübarizədə güclülərin zəifləri yox edərək həyatda qala biləcəyini iddia edən darvinizm vardır.

Darvinizmin kataliz təsiri göstərərək sürətləndirdiyi və gücləndirdiyi dialektika düsturu, 20-ci əsrdə bəşəriyyəti qaranlığa aparan, cəmiyyətlər arasındakı kin və nifrəti artıran, ard-arda zülmlərin yaşanmasına səbəb olan bir şər qaynağı olmuşdur. Bu düstura görə, kommunizm və ya faşizm döyüşlərlə, müharibələrlə, zorakılıqla bir-birlərinin alternativ variantı olaraq cəmiyyətlərdə kök salmağa çalışılmışdır. Hitler, Mussolini, Stalin, Mao kimi əli qanlı diktatorların "dialektika tətbiqləri" isə daim eyni nəticəni vermişdir: Anarxiya, terror, qarışıqlıq, zülm, səfalət, aclıq, işgəncə, gözyaşı, qan...

Necə ki, artıq müasir dövrdə darvinizm və dialektik fəlsəfə sürətlə çökür. Böyük türk milləti, bu tələni dağıtmış və darvinizmin qarşısını kəsmişdir. Təməli darvinizm olan bütün batil ideologiyalar və fəlsəfələr də haqq qarşısında məğlub olmağa məhkumdur.

**De: "Allah hər şeyin Rəbbi olduğu halda, mən Ondan başqa məbudmu axtaracağam?" Hər kəsin qazandığı günah yalnız öz əleyhinədir. Heç bir günahkar başqasının günahını daşımaz. Sonra isə dönüşünüz Rəbbinizə olacaq və O, ixtilafa düşdüyünüz məsələlər barədə sizə xəbər verəcəkdir. (Ənam surəsi, 174)**

# Kommunist Lenin, insanların da, heyvanlarla eyni şəkildə öyrədilməsinin lazım olduğuna inanırdı

Darvinist-kommunist düşüncəyə görə insan ilə heyvan arasında tək fərq insanın bir qədər "əhliləşdirilmiş" olmasıdır. Bu əhliləşdirmə prosesinin sürətləndirilməsi vəzifəsi isə, kommunizmin bir gərəyi olaraq göstərilmişdir. Leninin ən böyük yardımçısı və kommunist ideologiyanın nəzəriyyəçisi Trotski, darvinist təməlli; "insanı tərbiyə etmə" düşüncələrini qızğın şəkildə müdafiə edir və belə deyirdi:

...İnsan nədir? Hələ yarımçıq bir canlıdır. Hələ bacarıqsız bir varlıqdır. İnsan bir heyvan olmaqla, planlı şəkildə deyil, bədahətən təkamül keçirmişdir... İnsanın yeni və dəyişmiş bir variantını meydana gətirmək (kommunizmin növbəti vəzifəsidir)... İnsan özünü ya xammal, yada yarımçıq meydana gətirilmiş bir maddə kimi görməlidir. (Orlando Figes, A People's Tragedy, A History Of The Russian Revolution, Penguin Books Ltd, 1997, ABŞ, səh. 734)

Məhz insana bu cür baxan darvinist-kommunist ideologiyanın ən böyük fəaliyyəti, insanlarla mümkün qədər heyvan kimi rəftar etmək, onları vəhşi heyvanlar kimi zəncirlərə vurmaq, əzab və qorxu yoluyla öz aləmində "tərbiyə etmək" və lazım gəldikdə boğazlamaq olmuşdur. Bu yanlış ideologiyanın ən bariz nümunələrini Leninin ruslar üzərində tətbiq etdiyi şeylərdə görərik.

Lenin, heyvanlar üzərində həyata keçirdiyi şərtli refleks təcrübələriylə məhşurlaşan rus elm adamı Pavlovla xüsusi olaraq görüşmüş və Pavlovun üsullarını ruslar üzərində tətbiq etməyə üçün təşəbbüs göstərmişdir. Tarixçi Orlando Figes; "Bir xalqın tragediyası: oktyabr inqilabının tarixi" adlı kitabında, Leninin rus xalqını bir heyvan təlimçisi kimi öyrətmə məqsədini belə izah edir:

...Lenin böyük fizioloq İ. P. Pavlovun laboratoriyasına, onun şərtli refleks çalışmaları vasitəsiylə, insan beyninin bolşeviklərin insani davranışlarına nəzarət etməyə kömək edib etməyəcəyini öyrənmək məqsədiylə gizli şəkildə baş çəkdi. Lenin: "Rusların kommunizm xəttini

düşünmələrini və buna uyğun hərəkət etmələrini istəyirəm" dedi... Pavlov heyrətə gəlmişdi. Lenin ondan, itlər üçün etdiyi şeyi insanlar üçün etməsini istəyirdi. "Rusları standart hala gətirmək istədiyinizimi söyləyirsiniz? Hamısının eyni cür davranmasını təmin etməkmi istəyirsiniz?" kimi suallar verdi... Leninin cavabı isə; "siz deyən kimi" demək oldu. "İnsanlar düzgün olmalıdır. İnsanlar biz necə istəsək, elə həmin vəziyyətə də gətirilməlidir..." (Orlando Figes, A People's Tragedy, A History Of The Russian Revolution, Penguin Books Ltd, 1997, ABŞ, səh. 733)

İnsanları heyvan hesab edən və milyonlarla insanın ölümünə səbəb olan darvinizm təməlli kommunist ideologiyanın SSRİ-nin dağılmasıyla birlikdə yox olduğunu güman etmək böyük cəhalət olar. Kommunizm hələ də mövcuddur, amma fərqli adlar altında, özünə gizli yolla tərəfdar toplamaya çalışır. Türk xalqı kommunist ideologiyanın bu oyunlarından ötən illərdə xəbər tutmuş və milli şüuruyla bu oyunu dağıtmışdır. Bu gün də kommunizmi eyni aqibət gözləyir.

## Kommunistlər terroru və zülmü yeganə idarəetmə forması kimi qəbul edərlər

Darvinist-materialistlər, Rusiyadakı maddi və mənəvi çöküş nəticəsində kommunizmi yeganə çıxış yolu kimi göstərmək istəyirlər. Ancaq dünya, kommunistlərin bəşəriyyətə gətirdiyi şiddətli bəla və əzabları unutmadı. Bu dinsiz, vicdansız, qeyri-insani ideologiya yenidən hakimiyyət qazanmayacaq. Kommunist liderlərin işlətdikləri ifadələr, tarixə vəhşiliyin və zülmün ən şiddətli nümunəsi kimi keçmişdir.

- Bir işçi görüşündə çıxış edən Lenin; "terrorun" inqilabçı zümrənin ədaləti olduğunu belə ifadə edir: "Əgər kütlələr öz-özlərinə ayağa qalxmasalar heç nə bacara bilmərik. Möhtəkirlərə qarşı terror tətbiq etmədiyimiz (dərhal oradaca başlarına güllə sıxmadığımız) müddətcə heç nə əldə edə bilmərik". (V.İ. Lenin, Polnoye sobraniye soçineniy, Moskova, 1958-1966, cild 35, səh. 311)

- 1918-ci ildə, Xalq Komissarları Şurası tərəfindən bütün sovet ölkələrinə göndərilən xəbərdarlıq: "Bu keylik və romantikliyə son vermənin

vaxtıdır. Zabitlər və burjualar arasından çox sayda girov götürülməlidir. Çox cüzi bir müqavimət göstərildikdə belə, kütləvi edamlar həyata keçirilməlidir... Kütləvi terror fəaliyyətinin həyata keçirilməsində heç bir zəiflik və çəkingənliyə göz yumulmamalıdır". (İzvestiya, 4 sentyabr 1918)

- 14 fevral 1922-ci ildə bir müfəttiş bunları söyləyir: "Həbs olunan kəndlilər müntəzəm şəkildə pis vəziyyətdəki anqarlara salınır, qamçıyla döyülür və ölümlə təhdid edilirlər. Təslim etmələri lazım normanı tamamlaya bilməyənlər, əlləri qolları bağlanaraq, çılpaq halda kəndin ana prospekti boyunca zorla qaçmağa məcbur edilir və sonra da soyuq bir anqara salınırdılar. Çox sayda qadın huşunu itirənə qədər döyüldükdən sonra çılpaq halda qarda açılan çuxurlara qoyulurdu...". (Nicholas Werth, Komünizmin Kara Kitabı, səh. 159-160)

Qəddarlıqlarına, vəhşilik və qırğınlarına darvinizmi dayaq kimi göstərən kommunistlər, 20-ci əsrdə tarixin ən böyük cinayətini işlədilər. Ancaq 21-ci əsrdə darvinizmin etibarsızlığından xəbərdar olan insanlara, kommunizm rejiminə keçilməsinə icazə verməyəcək.

Türk milləti bu həqiqətdən 80 il bundan əvvəl xəbərdar olduğu kimi, indi də xəbərdardır.

Kommunizm Rusiyaya əzab və bəladan başqa bir şey gətirmədi. Milyonlarla insan öldürüldü, şikəst buraxıldı, evsiz qaldı, yurdlarından sürgün edildi.

Bunlar kommunist Rusiyadakı zülmü sənədləşdirən şəkillərdən yalnız bir neçəsidir. Xalqını heyvanlardan fərqsiz hesab edən kommunist rəhbərlik, özünə inanan insanlara aclıq, səfalət və əziyyətdən başqa heç nə verməmişdir. Rusiyadakı xalqın ürək ağrıdan vəziyyətində, müasir dövrdə də heç bir dəyişiklik olmamışdır.

## Kommunizm donuq, cansıxıcı, sevgisiz, incəsənətdən və estetikadan uzaq bir cəmiyyət modeli yaratmağı qarşısına məqsəd qoyar

Kommunist ideologiyanın təməl dayağı olan darvinist-materialist fəlsəfə insanı yalnız maddədən ibarət bir varlıq hesab edər. Bu yanlış düşüncəyə görə insan sevgidən, mərhəmətdən, şəfqətdən, fədakarlıqdan və digər insani duyğulardan uzaq olub, inkişaf etmiş bir maşındır. Sahib olduğu bütün düşüncə və duyğular isə bu maşının içindəki kimyəvi reaksiyaların bir nəticəsidir. Bu materialist anlayışın bir nəticəsi olaraq kommunist ölkələrdə incəsənət və estetika anlayışları tamamilə ortadan qalxmışdır. Kommunistlər, on milyonlarla insanı qəddarcasına qətlə yetirdikləri kimi, onların sahib olduğu incəsənət, estetika, elm və düşüncə kimi xüsusiyyətlərini də bir mənada öldürmüşdür.

Kommunist Rusiyadakı rəhbərlik, incəsənətin lazımsız bir şey olduğunu düşünür, incəsənət xadimlərinə nələri çəkmələri və yazmalarının lazım olduğunu özləri bildirirdilər. Kommunist rəhbərliyin hakimiyyəti boyunca sovet incəsənət xadimlərinin demək olar ki, hamısı əlində oraq və ya çəkic tutan sovet kəndlisi və işçilərini, üzərlərindəki zəncirləri qıraraq ayağa qalxan hirsli proletariat emblemlərini, qırmızı bayraqların kölgəsi və Leninin liderliyində qaçan silahlı əsgərləri çəkdilər. Kommunist rəhbərliyin təsdiqindən keçən bu rəsmlər, heykəllər, plakatlar və memarlıq dizaynları estetikadan uzaq, soyuq, donuq və kobud xüsusiyyətlərlə dolu idi. Britannika Ensiklopediyasının ifadəsiylə desək, kommunist incəsənətdə tam bir "anti-estetika" hakim idi.

Rus yazıçıları, rəhbərliyin əmr etdiyi şəkildə kommunist xadimlərin apardığı mübarizəni və xalqın nə qədər xoşbəxt olduğundan danışdılar. Həqiqətdə isə kommunist inqilab xalqa xoşbəxtlik deyil, aclıq, təzyiq və ölüm gətirmişdi. Amma Stalin nə yazılmasını istəyirsə, ancaq o yazılırdı. Bu gün hələ də kommunist ölkələrdə insani duyğulardan uzaq bu dünyagörüşünün qoyduğu dərin izləri həyatın hər sahəsində görmək mümkündür.

Halbuki incəsənət və estetika duyğuları Allahın insanlara verdiyi çox böyük bir nemətdir. Bunlar insan üçün, Allahın bənzərsiz yaradılış dəlilləri olan təbiətdəki möcüzələrə, gözəlliklərə, nemətlərə qarşı duyduğu güclü

sevgini ifadə edə biləcəyi bir yoldur. İncəsənət nümunələri yaratmağa ilham verən duyğuların başında isə insanların Allah sevgisindən aldıqları mənəvi şövq və həyəcan gəlir. Dinin ortadan qaldırıldığı bir cəmiyyətdə insanların bu şövqü və həyəcanı itirmələri, mənəvi böhranlara qapılaraq məqsədsiz insanlara çevrilmələri qaçınılmazdır.

## Darvinist-kommunist dövlət, zorakılıq yoluyla vətəndaşını tapdalayar

Darvinist-kommunist dövlət, insanları heyvan sürüsü hesab etdiyi üçün millətini sevməz, ona dəyər verməz və güvənməz. Bu səbəblə də, daima qorxutma, təzyiq göstərmə və məhv etmə siyasəti yürüdər. Kommunist liderlərdən Lenin və Trotskinin sözləri, kommunizmin necə bir ölüm və işgəncə maşını olduğunu anlamaq üçün kifayətdir:

Lenin: "Proletar hakimiyyət altındakı dövlət, burjuaziyanı əzmək məqsədiylə istifadə edilən bir maşındır. Diktatorluq bilavasitə zorakılığa əsaslanan və heç bir qanunla məhdudlaşdırılmamış bir gücdür. Proletarın inqilabçı diktatorluğu, proletarın burjua sinfinə tətbiq etdiyi zorakılıq sayəsində ayaqda dayanan bir gücdür, heç bir qanunla da məhdudlaşdırıla bilməz". (Lenin, Proleterya Devrimi ve Dönek Kautsky, səh. 53)

Trotski: "...Ölkədə hakimiyyətin kimin əlində olacağı problemi, yəni burjuaziyanın yaşadılıb yaşadılmayacağı problemi, konstitusiya maddələri əsasında deyil, hər cür zorakılıq formasına müraciət edərək həll ediləcək... Qırmızı terror, ölməyə məhkum və buna dözə bilməyən bir sinfə qarşı istifadə edilən bir silahdır" deyirdi. (L. Troçki, Defense du Terorisme, səh. 57, 82)

Darvinist-kommunist dövlətin, öz millətini sevməməsi və onları düşmən hesab etməsi, 20-ci əsrdə on milyonlarla insanın öz dövləti tərəfindən öldürülməsinə və ya zülmə uğramasına səbəb oldu. Bəşəriyyət keçmişdən lazımi dərs götürməli, eyni səhvləri təkrarlamamalıdır. Bu gün kommunizmə imkan tanıyanların, sabah zülm öz qapılarına gəlib çatacağı, sevdiklərinə, yaxınlarına əzab çəkdirəcəyi vaxt peşman olmaları fayda gətirməyə bilər.

Əsrlərdir ki, Quran əxlaqı ilə yetişən mərhəmətli, şəfqətli və vicdanlı

türk milləti isə bu təhlükədən xəbərdardır və darvinist-kommunist düşüncəyə heç vaxt icazə verməyəcək.

**O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. Ona: “Allahdan qorx!” deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!. (Bəqərə surəsi, 205-206)**

## Kommunizmin qanlı nəticəsi: 100 milyon ölü

Kommunist ideoloqlar, öz ideologiyalarını təbliğ etdikləri 20-ci əsr boyunca insanların yaşadığı böyük zülmü gizlədib, törədilən qırğınları görməzlikdən gəlib, hər şeyi mükəmməlmiş kimi göstərməyə çalışdılar. Onlara görə kommunizm bərabərlik, ədalət deməkdir. Halbuki bir-biri ardınca ortaya çıxan tarixi sənədlər onları bu söylədiklərini təkzib edir, kommunist vəhşiliyin qanlı üzünü gözlər önünə sərir.

Tanınmış fransız jurnalı “L'Histoire”ın 2000-ci ilin oktyabr ayında buraxılmış; "Les crimes du communisme" (Kommunizmin cinayətləri) adlı xüsusi sayında, Rusiyada, Çində, Kambocada yaşanan böyük zülm ətraflı şəkildə təhlil edilmiş, bir çox tarixçinin kommunizmin cinayətləri mövzusundakı fikirləri göstərilərək əks olunmuşdur. Kommunist cinayətlərdə təxminən 100 milyon insanın öldüyünün vurğulandığı jurnalda, bu göstəricinin olduqca yüksək olduğuna da işarə dilir. Eyni jurnalda əks etdirilən qırğınların xronologiyası isə bu böyük zülmlə əlaqədar heç bir şübhəyə yer vermir:

1921-1922-ci illərdə SSRİ-də yürüdülən qəsdli aclıq siyasətindən ötrü **5 milyon ölü**

1932-1933-ci illərdə SSRİ-də yürüdülən qəsdli aclıq siyasətindən ötrü **6 milyon ölü**

1937-1938-ci illərdə törədilən qırğınlar nəticəsində **690 000 ölü**

1940-ci ildəki Katın qırğını nəticəsində **4 500 ölü**

1946-1947-ci illərdə SSRİ-də yaşanan aclıqdan ötrü **500 000 ölü**

1958-1962-ci illərdə Çində Böyük Sıçrayış Layihəsindən ötrü **30-50 milyon ölü**

1966-1971-ci illərdə Çində mədəni inqilab vaxtı **2-3 milyon ölü**

1975-ci ildə Kambocadakı qırğınlar nəticəsində **1-2 milyon ölü**

## Rusiyanın çeçenlərə verdiyi zülmün niyə bitmədiyini bilirsinizmi?

Rusiyanın müsəlman çeçen xalqına tətbiq etdiyi zülm hələ də davam edir. Analar, atalar, həyat yoldaşları, qardaşlar itən yaxınlarını, rusların meydana gətirdiyi kütləvi məzarlarda axtarırlar.

Son vaxtlar Qroznıdakı rus hərbi bölgəsinin yaxınlığında onlarla cəsəd tapıldı. Bunun, müharibənin başlamasından indiyədək tapılan ən böyük kütləvi məzar olduğu bildirilir. Əlləri və ayaqları bağlı olan cəsədlər, ya silahla vurularaq, ya da bıçaq zərbələriylə öldürülmüşdür. Taisa İmakayeva adlı bir qadın qardaşının 6 mart 2000-ci ildə necə itkin düşdüyünü belə izah edir:

"Kəndimiz bombalandıqdan sonra 25 nəfər halında kəndi tərk edirdik. Rus əsgərləri qadınları və uşaqları, kişilərdən ayırdılar və hərbi yük maşınları ilə nəzarət məntəqəsinə apardılar. Sonra eyni hərbi yük maşını kişiləri toplamağa getdi. Ancaq onları bir də heç görmədik. 42 yaşındakı qardaşım epilepsiya xəstəsidir və ürəyi zəifdir. Həmçinin şikəstdir də. Yanında da ayaqları iflic olan bir insan vardı".

38 yaşındakı Adam Chimayevin ailəsi isə onu, hər yolu sınayaraq axtarmış və sonunda Qroznıdakı kütləvi məzarda, ürəyindən üç güllə yarası almış halda cəsədlərin arasında tapmışdırlar. Bununla belə itkin düşmə halları hələ də davam edirdi. Aprel ayında Alleroi kəndindən olan 3 uşaq və 4 çeçen çoban, heyvanlarını kənddən bir qədər uzaqda bir yerə otarmağa aparmışdılar. Sabahısı gün rus ordusunun düşərgə saldığı yerin yaxınlığında, başlarından güllə yarası almış halda cəsədləri tapılmışdı.

Rusiyanın həqiqi üzünün görülmədiyi, kommunizmin Rusiyanın hakimiyyəti altında pusquda gözlədiyi başa düşülmədiyi və lazımi tədbirlər alınmadığı müddətcə, bu zülm güclənərək davam edəcək. Bunu

dayandırmağın yeganə yolu, Rusiyanın həqiqi və gizli ideologiyasını elmi və fəlsəfi baxımdan dağıtmaqdır. Bu isə darvinizmi və materializmi elmi həmləylə çökdürmək yoluyla mümkün olar.

## Darvinist-kommunist dövlətin ölüm maşınları, milyonlarla insanı qətlə yetirdi

Darvin, Marks və Engelsin; "bəşəriyyət tarixi mübarizə və qarşıdurma ilə inkişaf edər" və "güclü olan həyatda qalar" iddialarının arxasınca gedən 20-ci əsrin kommunist liderləri öz millətlərini bir-birinə qırdırdılar. Eyni vətənin övladları bir-birinə düşmən kəsildi, atalar, oğullar, bacı-qardaşlar, qonşular, yoldaşlar bir-birini qətlə yetirdi. Dünyanın hər yerində bir-biri ardınca on illər ərzində misli görülməmiş işgəncələr, qırğınlar baş verdi.

Stalinin Qırmızı Ordusu, Maonun Qırmızı Gözətçiləri, Pol Potun Qırmızı Qırmızı Kxmerleri, Xo Çi Minin Vietmini kimi **ölüm maşınları,** dialektik materializmin və darvinizmin **qarşıdurma-döyüş-həyatda qalma mübarizəsi** qanunlarını tətbiq etmək üçün meydana gətirildilər.

İnsanları diri-diri yandıran, hələ yaşadığı halda ətlərini parçalayan, insanları aclığa, müxtəlif işgəncələrə məruz qoyan, ölüm tarlaları, ölüm çuxurları açan, professorları, incəsənət xadimlərini, yazıçıları heyvan formasına salaraq prospektlərdə gəzdirib, sonra da ən ağır işgəncələrlə öldürən, ailələrə uşaqlarını dəyişdirərək bir-birlərinin uşaqlarını yedirdən, insanları aclığa, səfalətə məhkum qoyan bu ölüm maşınlarına, öldürdükləri və ya işgəncə verdikləri insanların bir heyvan olduqları təlqin edilirdi.

Məsələn, Pol Pot və Qırmızı Kxmerlerin rəhbərliyi altındakı həyat belə idi: "Demokratik Kambocada həbsxana, məhkəmə, universitet, lisey, valyuta, poçt, kitab, idman, əyləncə yox idi... İyirmi dörd saatlıq iş günündə, ölüm halının baş vermədiyi bir an belə olmurdu. Gündəlik fəaliyyət bölgüsü belə idi: On iki saat fiziki iş, iki saat yemək, üç saat istirahət və təhsil, həmçinin yeddi saat yuxu. Nəhəng bir toplama düşərgəsindəydik. Artıq ədalət də yox idi. Ömrümüz boyu edəcəyimiz bütün hərəkətləri qərarlaşdıran Angkar idi (Qırmızı Kxmerlerin yeraltı təşkilatı)... Qırmızı Kxmerler insanı bir öküzlə müqayisə edirdilər: “ Yeri şumlayan bu öküzü görürsünüz. Yemək yeməyi

buyurulsa yeyər. Kifayət miqdarda otun olmadığı bir tarlaya aparılsa yenə də otlayar. Yer dəyişdirə bilməz. Nəzarət altındadır. Ona yeri şumlaması deyilsə, şumlayar. Əsla arvadını və uşaqlarını düşünməz". (Pin Yathay, L'Utopie meurtriére:un rescapé du génocide cambodgien témoigne, Brüksel, complexe, 1989, səh. 305)

Məhz insanları heyvan hesab edən darvinist kommunistlərin bəşəriyyət üçün olmasını uyğun gördükləri həyat forması budur. Kommunizm hansı ölkədə hakim oldusa, həmin ölkə xalqını bu yolla qeyri-insani mühitlərdə yaşatmışdır.

Dünyanın darvinist kommunist bəladan xilas olması üçün, ciddi bir fikri mübarizənin aparılması vacibdir. Türk milləti bu mübarizənin əhəmiyyətindən xəbərdardır və buna görə də kommunizmi heç vaxt yaşatmamışdır.

## Kommunist vəhşilik tam sürətlə davam edir

Darvinizmin insanların inkişaf etmiş heyvanlar olduğuna dair iddiaları, kommunizmin qəddar liderlərinə böyük dəstək olmuş və cinayət törətmələri üçün bir "pərdə" rolunu oynamışdır. Stalinin darvinist-materialist dövləti, insanların həyatlarını və insani dəyərləri qətiyyən heçə saymış, milyonlarla insanı vəhşicəsinə qətlə yetirmişdir. Ukrayna düşərgələrindən birinin rəhbəri olan Martin Latsis, verdiyi hesabatlardan birində Stalinin qurduğu ölüm düşərgələri barədə bunları dilə gətirmişdir:

"Maykop yaxınlığındakı bir düşərgədə toplanan girovlar (qadınlar, uşaqlar və yaşlılar) palçıq içində və oktyabr soyuğunda qorxunc şəraitdə yaşayır... Milçəklər kimi ölürlər... Qadınlar ölməmək üçün hər şeyə hazırdır. Düşərgəni qorumaq vəzifəsini yerinə yetirən əsgərlər, bu qadınları satmaq üçün, bu vəziyyətdən faydalanırlar". (RTHIDNI (Rusya Çağdaş Tarih Belgelerinin Korunması ve İncelenmesi Merkezi), 17/S4/75/59)

Müasir dövrdə darvinist-kommunist rus zülmü olduğu kimi davam edir. Rus hökumətinin istər çeçen xalqına, istərsə də öz xalqına qarşı davam etdirdiyi qeyri-insani tətbiqlər buna ən bariz nümunədir. Ötən aylarda 118 vətəndaşını dərin sularda ölümə tərk edən darvinist-kommunist düşüncə, bənzər vəhşi tətbiqləriylə tez-tez gündəmə gəlir.

Kommunist düşüncə və bu düşüncəni dəstəkləyən darvinizm, fikirlə aradan qalxmadığı müddətcə kommunist zülm sürətini azaltmadan davam edəcək.

## "Darvinizm onsuz da süqut etdi" deyənlər xeyli yanılırlar

Hazırkı dövrdə bəzi müsəlmanlar darvinizmin bəşəriyyətə gətirdiyi bəlalardan xəbərsiz şəkildə yaşayırlar. Bu təhlükənin bundan illərlə əvvəl yox olduğunu zənn edirlər. Halbuki, müasir dövrdə dinsizliyin ən güclü dinlərindən biri darvinizmdir. Açıq-aşkar olan yaradılış həqiqətinə qarşı çıxan hər kəsin sarıldığı ip Darvinin təkamül nəzəriyyəsidir.

Dünya xalqları təkamül nəzəriyyəsinə inanmasa da, onun iddialarını bir o qədər qəbul etməsə də, dövlət idarələri bu nəzəriyyəyə dörd əllə sarılmış vəziyyətdədir. Xüsusilə Çin və Rusiya kimi bir çox ölkədə bu nəzəriyyə məcburi bir inanc kimi görülür və rəsmi dövlət dəstəyi və himayəsi ilə gənclərə təlqin edilir.

Məsələn, Çeçenistanda müsəlmanların məruz qaldıqları zülmün təməlində də, Rusiya dövlətinin darvinist sayıqlamaları durur. Eynilə lideri Stalin kimi Putin də, insanları təkamül prosesində inkişafdan geri qalmış, heyvandan fərqsiz varlıqlar hesab edir və təkamül nəzəriyyəsindən aldığı dəstəklə gözünü belə qırpmadan, vicdan əzab çəkmədən onları öldürdə, ac və biçarə vəziyyətdə qoya bilir, onlara rahatlıqla zülm edə bilir.

Məhz buna görə də, ağıl və vicdan sahibi olan hər insan, bütün dünyanı bürümüş, bəlkə sabah öz qapısına da gəlib çatacaq bu böyük təhlükəni görməli və tezliklə tədbir almalıdır. Bu bəladan xilas olmağın yeganə yolu, darvinizmin iddialarını və bundan qaynaqlanan dialektik materializmin sayıqlamalarını fikri baxımdan yox etməkdir. Türk milləti bu böyük təhlükənin varlığını dərk etmişdir. Bu cərəyanların hakimiyyətinə icazə verməyəcəyini, etdiyi mədəniyyət həmləriylə bütün dünyaya göstərməkdədir.

## Tarixdəki Darvin həvəskarları bəşəriyyətə zülmdən başqa heç nə vermədilər

Kommunist ideologiya ilə idarə olunan ölkələrin insanları, daim tapdalanmış, zülm görmüşdürlər. Bunun əsl səbəbkarı isə darvinizmdir; çünki marksist düşüncə darvinizmdən gəlir. Hətta marksist fəlsəfənin banisi olan Karl Marks "Das Kapital" adlı əsərini heyran olduğu Darvinə həsr etmişdir. Dünya səviyyəsində tanınmış marksist təkamülçü elm adamı Stephen Jay Gould da "Ever Since Darwin" adlı kitabında bunları yazmışdır: *"...Marks ilə Darvin yazışardılar və Marks Darvinə böyük hörmət göstərərdi... Əslində Darvin... bir inqilabçı idi". (Stephen Jay Gould, Darwin ve Sonrası, səh. 9)*

Rusiyadakı Oktyabr İnqilabının liderlərindən biri olan Trotski isə; "təkamül və inqilab eyni prosesin iki ayrı hissəsidir" sözləriylə darvinizm-kommunizm əlaqəsini açıq şəkildə göstərmişdir.

Təkamül ilə eyniləşdirilən kommunist inqilab, zorakılıq, zülm, əzab, fəlakət gətirən bir prosesdir. İnqilabın qanunları təkamül nəzəriyyəsinin qanunları əsasında müyyənləşdirilir və darvinizmin güclü olanla zəif olan arasındakı həyat mübarizəsi iddiası cəmiyyətlərə tətbiq olunur. "İnqilab"ın tərifini Çinin qanlı kommunist lideri Mao Tse-Tung bu təəccüblü sözlərlə verir: "Bir inqilab, bir ziyarət yığıncağı və ya bir məqalə yazmaq, yaxud bir şəkil çəkmək yaxud da naxış işləmək deyil və bu inqilab, o qədər kübar və zərif, təmkinli və nəzakətli, o qədər mülayim, nəzarətli və yüksək ruhlu olmamalıdır. İnqilab, bir üsyan və qiyam, bir zümrənin digərini devirdiyi zorakılıq hərəkatıdır. (Mao Tse-Tung, Kızıl Kitap, 2-ci hissə: Sınıflar ve Sınıf Mücadelesi)

Qızğın marksistlərin bütün bu sözləri, keçmişdə Rusiya, Çin kimi ölkələrdə yaşanmış və bugünkü gündə çeçenlərə, Şərqi Türküstandakı müsəlmanlara qarşı qəddarlıqla edilən zülmün arxasında duran ideologiyanın darvinizm olduğunu açıq şəkildə göstərir. Bu zülmün sona çatması, dünyada sülh və əmin-amanlığın hakim olması üçün darvinist iddiaların əsassızlığı göstərilməlidir.

Bu fikri mübarizəyə isə, tarix boyu hər cür azğın ideologiyaya qarşı mübarizə aparmış türk milləti başçılıq edir.

## Kommunist Çin rəhbərliyi Maonun qırğınlarını davam etdirir

Kommunist liderlərin ən böyük yalanları; "kommunizmin yaşandığı ölkələrdə sülhün, ədalətin və əmin-amanlığın yaşanacağına" dair verdikləri yalan vədlərdir. Halbuki kommunizm tarix boyu heç bir ölkəyə sülh və əmin-amanlıq gətirməmişdir. Əksinə kommunizm hakim olmasıyla birlikdə qırğınlar, cinayətlər, bombalama və hücum halları bilavasitə dövlət əliylə törədilmiş, günahsız insanlara zülm etmək, sanki bir dövlət siyasəti olmuşdur. Bunun ən bariz nümunələrindən biri kommunist Çin rəhbərliyinin Şərqi Türküstandakı türklərə yarım əsrdir ki, verdiyi böyük zülmdür.

1949-cu ildən bəri təxminən 35 milyon türk, qəddar kommunist lider Mao və onun ardıcılları tərəfindən qətlə yetirilmiş, sağ qalanlar diri-diri torpağa basdırılmış, qeyri-insani işgəncələrə məruz qalmış, dinlərini yaşamalarına icazə verilməmişdir. Ancaq bu böyük zülm Maonun ölümüylə sona çatmamış, dövrümüzə qədər davam etmişdir. Hal-hazırda da səbəbsiz həbsetmə halları, işgəncələr, naməlum cinayətkarlar, xalq üzərində keçirilməyə davam edən nüvə sınaqları, zorakı abortlar, yeni rəhbərliyin Maodan heç də geri qalmadığını göstərmişdir.

## Maoçu Qırmızı Çində uyğur qadınları aborta məcbur edilir, körpələr dünyaya gələn kimi öldürülür

Maoçu Qırmızı Çin uyğur türklərinə bir uşaqdan, artıq uşaq sahibi olma hüququ vermir. Aidiyyəti orqanlar tərəfindən, ikinci uşağa hamilə qalan qadınlar müəyyənləşdirildikdə, hamiləlik müddətinin 9-ci ayında belə olsa, bu vəziyyətdəki qadınlar, polis tərəfindən evlərindən götürülərək, sağlamlığa zərərli və texniki təchizatdan məhrum saxta sağlamlıq mərkəzlərində abort edilirlər. Bunun nəticəsində də bir çox uyğur qadını həyatını itirir.

Abort bəhanəsiylə törədilən soyqırıma bir nümunə belədir: 1997-ci ilin avqustunda, Şərqi Türküstanlı bir qadın abort olmağa zorla məcbur edilmiş,

həmçinin ərinə də ağır pul cəriməsi kəsilmişdir. Zorla evindən götürülən qadın bir fürsət taparaq sağlamlıq mərkəzindən qaçmış və körpəsini bir qəbiristanlıqda təkbaşına dünyaya gətirmişdir. Daha sonra birinin köməyi ilə qəbiristanlıqdan götürülərək evinə aparılan qadın, verilən bir xəbərdarlıq nəticəsində yenidən tutulmuş və körpəsi, aparıldığı polis mərkəzində isti suya batırılaraq qətlə yetirilmişdir.

Bu nümunə Şərq Türküstanda qətlə yetirilən minlərlə ana və körpədən yalnız biridir.

Bütün dünya ilə əlaqəsi kəsilən və kommunist Maoçuların zülmü altında yaşayan müsəlman türklər çarəsizlik içində kömək gözləyirlər. Onları xilas edəcək yeganə insanlar və himayədarları üstün vicdanı ilə tanınan türk millətidir. Türk milləti əvvəlcə etdiyi mədəniyyət həmlələri ilə, Mao pərəstişkarı kommunistlərə lazımi cavabı verir və onların ideologiyalarını əsaslandırdıqları darvinist fəlsəfəni tamamilə darmadağın edir. Bundan sonrakı mərhələ isə Türk-İslam əxlaqının hakim olmasıdır.

## Mao pərəstişkarları, kommunist Maoçu Çinin Şərqi Türküstanlı soydaşlarımıza tətbiq etdiyi zülmü görmürlərmi?

Mao, 1949-cu ildən sonra 35 milyon uyğur türkünü qətlə yetirtdi. Sağ qalanlar isə diri-diri torpağa basdırıldılar, ölümünə döyülərək çılpaq halda qarın üstünə yatırdıldılar, iki ayağı iki ayrı öküzə bağlanaraq ortalarından ikiyə ayrıldılar. Dinlərini yaşamalarına icazə verilmədi.

Bu gün kommunist Maonun Qırmızı Çini eyni zülmü etməyə davam edir. Heç bir insan haqqları təşkilatının daxil olmasına icazə verilməyən, rabitə əlaqələrinin tamamilə kommunist Maoçu Çin dövlətinin nəzarəti altında olduğu Şərqi Türküstanda soydaşlarımız böyük bir zülm altında yaşayırlar.

* İki il ərzində (1995-1997) Çinlilər tərəfindən səbəbsiz yerə həbs olunan uyğur türklərinin sayı 560 mindən çoxdur.

* 1995-1997-ci illərdə Şərqi Türküstanın daxilində Qırmızı Çinin törətdiyi işgəncə nəticəsində öldürülən və itən insanların sayı 5000-dən

çoxdur.

* Milli və dini dəyərlərini qorumaq naminə ölümünə vuruşan Şərqi Türküstanlı soydaşlarımıza dünyanın heç bir yerində rast gəlinməyəcək işgəncələr tətbiq olunur. Əvvəlcə ayaqlarının altına mismar vurulan günahsız insanlar, saatlarla buz üstündə saxlanılır, sonra isə əlləri və ayaqları donduqdan sonra kəsilir.

* 1964-cü ildən bəri Çinin, Şərqi Türküstanda yerləşən nüvə mərkəzində keçirdiyi 44 nüvə sınağı nəticəsində 210 min insan öz həyatını itirmiş, minlərləsi şikəst qalmış, xərçəng kimi xəstəliklərə tutulmuş, minlərlə uşaq isə şikəst doğulmuşdur.

Kommunist Çin dövləti bu gün soydaşlarımızı türk və müsəlman olduqlarından ötrü soyqırıma məruz qoyduğu halda, bəzi Maoçuların hələ də Mao heyranlıqlarını dilə gətirə bilmələri çox dəhşətlidir. Aciz buraxılmış, dünya ilə əlaqəsi kəsilmiş, biçarə vəziyyətdə kömək gözləyən bu insanlara yardım əlini uzatmaq əvəzinə, onlara zülm edənlərin liderlərini tərifləyəcək qədər həddlərini aşan kimsələr, türk millətinin güclü vicdanı tərəfindən mühakimə olunmaqdadır.

Türk milləti Maoçulara, marksist leninistlərə cəsarət verən darvinizm təməlli dialektik materializm kimi fəlsəfələrin qarşısını alaraq, bəşəriyyətə böyük xidmət göstərir.

Tarixin ən zalım diktatorlarından biri olan Mao, 35 milyon uyğur türkünü qətlə yetirtdi. Sağ qalan xalq diri-diri torpağa basdırıldı, ölümünə döyüldü, işgəncələrə məruz qoyuldu. Bu zülm heç səngimədən eynilə davam edir. Kommunist Çin hökuməti hələ də uyğur türklərini nüvə sınaqları keçirməklə, ağlasığımaz işgəncələr verməklə qətlə yetirməyə davam edir.

## Kommunist Mao, törətdiyi qanlı inqilabı darvinizmə əsaslandırmışdı

Çində qanlı və qəddar bir inqilab törədən Mao, darvinizmin Çindəki inqilab üçün əhəmiyyətini isə belə açıqlamışdı: **"Çin sosializminin təməli, Darvinə və təkamül nəzəriyyəsinə əsaslanmalıdır".** (K. Mehnert, Kampf um Mao's Erbe, Deutsche Verlags-Anstalt, 1977)

Darvinist Maonun "qırmızı gözətçilər" adlandırdığı döyüşçülər, ölkəni tam bir terror mühitinə sürüklədi. Maonun əmrləriylə 6-10 milyon insan bilavasitə öldürüldü, on milyonlarla əks inqilabçı ömürlərinin mühüm bir hissəsini həbsxanalarda keçirdi və 20 milyonu bu yerlərdə öldü. Maonun, insanları heyvan hesab edən və dolayısilə həyatlarına əhəmiyyət verməyən darvinist layihələrinin faciəvi nəticəsi olaraq 20-40 milyon insan isə aclıqdan öldü.

Qırmızı gözətçilərin törətdikləri zülm, “Le livre noir du communisme (Kommunizmin qara kitabı)” adlı kitabda, belə bir nümunəylə izah edilir: "Hamısı ölümə məhkum edilən inqilab əleyhdarları, bütün xalqın dəvət edildiyi açıq iclaslarda, qırmızı gözətçilər tərəfindən parçalanırdılar. Xalq isə bu əsnada; "öldür öldür!" deyə qışqırırdı. Qırmızı gözətçilər bəzən parçaları qızardıb yeyir və ya hələ də canlı olan məhkumun gözləri qarşısında ailəsinə yedirdirdi; hamı "keçmiş mülk sahibi"nin qaraciyərinin və ürəyinin yeyildiyi ziyafətlərə və məruzəçinin yeni kəsilmiş başlardan hazırlanmış bir paya cərgəsi qarşısında danışdığı yığıncaqlara dəvət olunmuşdu. Çində adamyeyənliyə çatacaq qədər güclənən nifrət və vəhşilik hakim idi".

Bu gün Mao yaşamır. Lakin buna baxmayaraq, Çin dövləti hələ də darvinist Maonun qoyduğu qanunlarını tətbiq edərək, zalımlığını davam etdirir. Şərqi Türküstan xalqına tətbiq olunan zülm bunun yalnız bir nümunəsidir. Əsl təhlükə isə, Mao kimi 20-ci əsrin ən qəddar və zalım diktatorlarından birini, dəyərli bir ziyalı kimi göstərməyə çalışan müasir kommunistlərdir.

## Maoçuluq təbliğatı aparanlar, niyə Şərqi Türküstanlı günahsız xalqa edilənləri görməzlikdən gəlirlər?

Mao, 20-ci əsrin tarixinə qanlı bir inqilabın əli qanlı lideri kimi daxil oldu. Ancaq onun bütün bəşəriyyətə etdiyi ən böyük pislik, arxasında sayları milyonları ötüb keçən tərəfdar kütləsi qoyub getməsi oldu. Hər gün qəzetlərdə Maonun qanlı varislərinin törətdiyi yeni bir zülm əks olunur. Bir gün müdafiəsiz insanları edam edir, sabahısı gün körpələri öldürür, başqa bir

gün isə insanlar üzərində nüvə sınaqları keçirirlər...

Maoçu vəhşiliyin ən böyük hədəfi isə Şərqi Türküstanda yaşayan uyğur türkləridir. Həm müsəlman olduqları, həm də etnik azlıq təşkil etdikləri üçün Pekin rejiminin hədəfi halına gələn uyğur türkləri, Maonun hakimiyyətə gəldiyi 1949-cu ildən bəri səngiməz bir soyqırıma məruz qalırlar.

Müsəlman uyğurların birdən artıq uşaq sahibi olmalarının qadağan edildiyi Şərqi Türküstanda, bu qadağanı pozanların uşaqları "əhali planlaşdırması" adı altında hələ ana bətnində olarkən abortla qətlə yetirilir və ya doğulduqdan sonra boğularaq öldürülürlər. Qəzetdə dərc olunan bir xəbər isə bu vəhşiliyin qeyri-insani bir cəhətini daha göstərir. Buna görə də, bütün bölgələrdə işləyən həkimlərə məhv edəcəkləri rüşeym miqdarı üçün bir norma ayrılır və həkimlər bu normanı keçə bilmək üçün sanki bir-birləri ilə yarışırlar. Həmçinin müsəlman anaların balalarını erkən dünyaya gətirmələri üçün üstlərinə çıxılıb qarınları əzilir...

## Maonun ölkəsi Çin = cinayətlər, edamlar, qətliamlar...

Mao, bəşəriyyət tarixinin ən böyük qatillərindən, Çində həyata keçirdiyi inqilab isə bəşəriyyət tarixinin ən qanlı dövrlərindən biridir. Mao, arxasında 50 milyona yaxın ölü və on milyonlarla işgəncə qurbanı qoyub getdi. Necə ki, onun 1976-cı ildəki ölümü də Çin xalqı üçün heç nə dəyişdirməmiş, onun azğın ideologiyası ilə öyrədilən yeni qatillər günahsız insanları qətlə yetirməyə davam etmişdirlər.

Darvinizmə olan bağlılıqlarıyla, insani dəyərlərdən və dinin gözəlliklərindən uzaq, sevgisiz, insaniyyətsiz və zorakılıqdan zövq alan insanlar olan Maoçular bu gün hələ də eyni vəhşiliyi davam etdirirlər. Hər gün kütləvi edamların həyata keçirildiyi Çinlə əlaqədar ötən həftə qəzetlərdə dərc olunan bir xəbər, Maoçuluğun qanlı üzünü tam açıqlığı ilə göstərmişdir.

Bir ailəyə 1-dən çox uşaq sahibi olma hüququ verməyən Çində, insanlar dünyaya gələn körpələrini küçələrə atıb gedirlər. Aşağıdakı şəkildə görülən yeni doğulmuş körpə də ailəsi tərəfindən işlək yol üzərinə qoyulub tərk edilmiş və yüzlərlə insanın laqeyd baxışları altında çırpınaraq can

vermişdir. Bu şəkillər hələ də Maoçuluğu müdafiə edən və ya kommunizmin süqut etdiyini iddia edənlərə bir cavab xüsusiyyəti daşıyır.

## Maoçu Çində kommunizm ən vəhşi halıyla yaşamağa davam edir

Maonun dövründə Çində, insanlar ortada konkret bir səbəb olmadan qırmızı gözətçilər tərəfindən evlərindən, küçələrin ortasından götürülərək həbs edilir, işgəncəyə uğradılır və ya öldürülürdülər. Mao bu gün yaşamır, ancaq qanunları Çin dövləti tərəfindən sədaqətlə qorunur.

Çinin ən böyük qəzetlərindən biri olan "Halkın günlüğü" qəzetində ötən günlərdə dərc olunan bir xəbər, Çin cəmiyyətinə edilən zülmün və ədalətsizliyin bu gün də eyni sürətlə davam etdiyini göstərir. Bu xəbərdə, prezident Tsyan Tsemin tərəfindən 7 apreldə Fucyen əyalətində başladılan, daha sonra bütün ölkəyə yayılan kampaniya çərçivəsində 10 min insanın nəzarət altına alındığı, 500 insanın isə edam edildiyi bildirilmişdir. Ümumiyyətlə başa güllə sıxaraq edam etmə üsulundan istifadə edilən Çində, bir ildə edam edilən insanların sayının, dünyanın yerdə qalan ölkələrində bir ildə edam edilən insanların ümumi sayına bərabər olduğu ifadə edilir.

Bu xəbərdəndən də açıq şəkildə görüldüyü kimi Çin hələ də bir "Mao dəliliyi" ilə yaşayır. Bu vəziyyət bizə, kommunizmin bəşəriyyət üçün nə qədər böyük bir təhlükə olduğunu yenidən göstərir. Məhz bu gizli təhlükənin və insanı heyvan hesab edən bütün qanlı ideologiyaların dayaq nöqtəsi darvinizmdir. Bu səbəblə də, darvinizmin gerçək üzünün elmi və tarixi dəlillərlə izah edilməsi, kommunizmin hiyləgər üzüylə necə gizlənərək pusquda gözlədiyinin insanlara göstərilməsi çox əhəmiyyətlidir.

## Kommunist Çində, Mao dövründə yaşanan zülm hələ bitmədi

1949-cu ildə Maonun kommunist partizanlarının hakimiyyəti ələ keçirmələriylə birlikdə Çində böyük bir zülm yaşanmağa başlanmışdı. Maonun böyük sıçrayış siyasətindən sonra 1958-1961-cı illər arasında yaradılan süni qıtlıq əsnasında tam 40 milyon Çinli öz həyatını itirdi. Bilavasitə Maonun əmrləriylə 6-10 milyon insan qətlə yetirildi. 20 milyon insan ömürlərinin böyük bir hissəsini həbsxanalarda keçirdi. Mədəniyyət inqilabı əsnasında da milyonlarla insan vəhşicəsinə öldürüldü, qeyri-insani işgəncələrə məruz qaldı. Mao 1976-cı ildə öldü və arxasında 50 milyondan artıq ölü, on milyonlarla işgəncə qurbanı və azğın bir ideologiya qoyub getdi. Ancaq Çində zülm bitmədi.

Çox yaxın bir vaxtda Çində "kütləvi edam nümayişi" həyata keçirildi. Əvvəlcə sanki parad keçirirmiş kimi polislərlə birlikdə, əlləri bir nəqliyyat vasitənin dəmirlərinə bağlanılmış halda xalqa göstərilən 113 insan, ibrət olsun deyə saatlarla xalqın içində gəzdirildi. Daha sonra da böyük bir stadionda, xalqın gözləri qarşısında edam edildi. Ancaq bu Çindəki nə ilk, nə də son edam nümayişi idi. Beynəlxalq Amnistiya Təşkilatının verdiyi məlumata görə, 1999-cu ildə Çində 1263 insan edam edildi və bu rəqəmin yalnız edamların məlum qismi olduğu ifadə edildi.

Məhz bu həqiqətlər kommunizm süqut etdi deyənlərə bir cavab xüsusiyyəti daşıyır.

## Darvinist-faşistlər qatilləri qəhrəman elan edir

Faşistlər, sentimentallıq və coşğuyla kütlələri özlərinə bağlayaraq, istiqamətləndirərlər. Bunun üçün müxtəlif taktikalardan istifadə edərlər. Amerikalı tədqiqatçılar Baigent, Leigh və Lincoln nasistlərin məşhur Nürnberq mitinqlərindəki romantik beyin yuma üsullarını belə təsvir edirlər: "Pis şöhrətə sahib Nürnberq mitinqlərində... hər şey (formaların və bayraqların

rəngləri, məruzəçilərin yeri, proqramın başlama vaxtının gecə yarısına tuş gətirilməsi, projektorlardan istifadə, zamanlama) çox diqqətlə hesablanardı. Bu mitinqlərdə çəkilən filmlər, insanların sanki öz özlərini sərxoş etdiklərini, özlərini bir növ hipnoz etdiklərini, "sieg heil (zəfərə salam)" adlı nasist şüarını dayanmadan təkrarlayaraq sanki Hitlerə tapınırmış kimi nasist salamı verdiklərini göstərir. Kütlələrin üzündən bomboş bir zehnin gətirdiyi xoşbəxtlik oxunur..." (The Messianic Legacy, Corgi Books, səh. 194)

Məhz Hitler, insanlara bir-birlərini irqlərindən ötrü öldürməyi, müharibəni, qəddarlığı bu "romantik milliyyətçi" üsullarla qanuni kimi göstərirdi. Romantik milliyyətçiliyin təməli isə darvinizm idi. Tanınmış tədqiqatçı Daniel Gasman, darvinizmin, bu şüuru yox edən, insanları coşduraraq cinayət işləməyə qədər təşviq edən romantik cərəyan üzərindəki təsirini belə açıqlayır: "Darvinizmin, Almaniyada alman romantizminin bir proyeksiyası olduğunu demək olar... Darvinizmin Almaniyada aldığı hal, bir növ saxta elmi təbiət dini, irqçiliklə qarışmış təbiətə sitayiş mistsizmidir".

Türk milləti bu kimi tam axmaq cəfəngiyatlara heç vaxt aman verməmiş, dərhal bunların qarşısını kəsmişdir. O, bu gün də faşizmin darvinizmdən qaynaqlanan qaranlıq üzünü bütün dünyaya göstərməyə davam edir.

## Darvinist-faşist Mussoliniyə görə sülh zərərli idi

Mussolini: "Faşizm daim sülhün zərərli olduğuna inanmışdır. İnsan qüdrətini ən yüksək səviyyəyə qaldıran müharibədir" deyir. Başqa bir nitqində isə; "faşizm, bütün dünyanın bir-birləriylə qucaqlaşmasına qarşı çıxar. Mədəni millətlər birliyi çərçivəsində yaşamaqla birlikdə, hər birinə meydan oxuyaraq baxar" ifadələrini işlətmişdir.

Yuxarıdakı sözlərindən də aydın olduğu kimi Mussolini bir təkamülçü olaraq, Darvinin; "həyat bir müharibədir, bu müharibədə güclülər qalib gələr, zəiflər isə məğlub olar" prinsiplərinə inanmışdır. Bu fikirləri istiqamətində İtalyan xalqını müharibə aparmağa məcbur etmiş; Albaniya, Efiopiya və Yuqoslaviyanın fiume limanı başda olmaqla bir çox ərazini işğal etmişdir. Bu

ölkələrin xalqlarını öldürmüş, onlara zülm etmiş, hətta Efiopiya xalqına qarşı zəhərli qazdan istifadə edərək insanların əzab çəkərək ölmələrinə səbəb olmuşdur.

Mussolininin özü kimi bir darvinist-faşist lider olan Hitlerlə birlikdə səbəb olduqları müharibənin nəticəsi olduqca ağırdır. İkinci dünya müharibəsi, bəşəriyyət tarixinin ən dağıdıcı, ən ölümcül müharibəsi olaraq tarixə keçmişdir.

Ancaq yaşanan əzablar insanlara çox böyük təcrübə qazandırmışdır. Tarixdə bu cür hadisələrin təkrarlanmasının qarşısını almaq üçün edilməsi lazım olan ilk şeyin darvinizmlə və darvinist liderlərlə mübarizə aparmaq olduğu aydın olmuşdur.

## Faşizm hiyləgərcəsinə forma dəyişdirir

Çarlz Darvin təkamül nəzəriyyəsiylə insan irqlərinin var güclə həyat mübarizəsi apardıqlarını iddia etmişdi. Üstəlik, bu mübarizənin təkamüli inkişaf prosesi üçün zəruri olduğunu, yəni bəzi insan irqlərinin yox edilməsinin bəşəriyyətin inkişafını təmin etdiyini müdafiə etmişdi.

Təkamül nəzəriyyəsinin insan cəmiyyətlərinə tətbiq olunmasıyla meydana çıxan "sosial darvinizm" anlayışı 1850-ci illərdən indiyədək meydana gələn bütün irqçi düşüncələrə ilham verdi. 20-ci əsrdə dünyanı qana bulayan Hitler, Mussolini, Franko və digər faşist liderlərin törətdikləri qırğınlar və zülmlər, Darvinin təkamül nəzəriyyəsinin "güclülər yaşar, zəifləyər ölər" prinsipindən qaynaqlanırdı.

Faşizm müdafiəçiləri milyonlarla günahsız insanı qətlə yetirərkən, bu qorxunc cinayətləri "irqin saflaşdırılması" və "inkişafdan geri qalmış irqlərin təmizlənməsi" adı altında guya "elmi" bir təmələ əsaslandırmışdılar.

Hazırkı dövrdə, darvinizmin irqçi izahı olan faşizm bu dəfə "millətçilik" adı altında hiyləgərcəsinə forma dəyişdirərək bəşəriyyəti təhdid etməyə davam edir. Bu gizli təhlükəyə qarşı daim diqqətli və təmkinli olmaq vacibdir.

Faşizmin axarına qapılan insanların əksəriyyəti bu təhlükəni görməyə bilər. Ancaq irqlər arasında bərabərsizliyi, üstün irqlərin hegemoniyasını müdafiə edən faşizm, insaniyyətdən, mədəniyyətdən, sevgi və tolerantlıqdan,

incəsənət və estetikadan, gözəl əxlaqdan məhrum bir cəmiyyət meydana gətirər. "Həyat bir mübarizədir; güclü zəifi yox edər və beləliklə də, həyatda qalar" anlayışını cəmiyyətlərə hiyləgərcəsinə təlqin edər. 21-ci əsrdə millətçilik maskasının arxasından çirkin üzünü göstərən faşist ideologiya və bəşəriyyəti 150 ildir ki, zülm və xaosa sürükləyən darvinizm, bəzi ətraflar tərəfindən israrla dəstəklənilir. Bu gün bütün bu bəlalara qarşı ən təsirli mübarizə üsulu, problemi kökündən həll etmək və darvinist düşüncəni fikirlə məğlub etməkdir.

Vicdan və iman sahibi, milli və mənəvi dəyərlərinə bağlı olan türk milləti, bu mövzunun əhəmiyyətini və təciliiliyini qavramış, bəşəriyyəti darvinizm təhlükəsinə qarşı xəbərdar etməyi özünə uca vəzifə qəbul etmişdir.

## Darvinin təşviq etdiyi irqçilik, Avropada hələ də hökm sürür!

Darvin, irqçiliyin atasıdır. “İnsanın mənşəyi” adlı kitabında irqçi fikirlərini belə açıqlamışdır: "Bəlkə də, əsrlər qədər davam etməyəcək yaxın bir zamanda, mədəni insan irqləri, vəhşi irqləri tamamilə yer üzündən siləcək və onların yerinə keçəcəklər. Digər tərəfdən insanabənzər meymunlar da... Şübhəsiz aradan götürüləcəklər. Beləliklə insanla onun ən yaxın qohumları arasındakı boşluq daha da genişləyəcək. Bu sayədə ortada hal-hazırkı avropa irqlərindən belə daha mədəni olan irqlər və hal-hazırkı zəncilərdən, avstraliyanın aborigen əhalisindən və qorillalardan belə daha geridə qalmış pavian növündən olan meymunlar qalacaq".

Darvindən guya elmi bir dəstək alan irqçilik, bu gün hələ də Avropada və Amerikada böyük ölçüdə davam etdirilir. Son zamanlar qəzetlərdə irqçiliklə əlaqədar dərc olunan xəbərlərdən yalnız bir neçəsi belə, bu böyük təhlükənin əhəmiyyətini göstərir: "İngiltərə hökuməti; Tamillər, rumlar, somalililər, albanlar, əfqanlar, çinlilər və romalılara sərhəd qapılarında "fərqli rəftar" etmə qərarı aldı". (4 may 2001)

"250 uşaq kölə daşıyan xəyalət gəminin Ekvatorial Qvineyanın paytaxtı Malaboda olduğu müəyyənləşdirildi. Kapitanın tutulmamaq üçün uşaqları dənizə atmasından qorxulur... Qara kölələrin dənizə atılması, tarixdə də

tətbiq olunan çox geniş yayılmış bir üsuldur. Qeyri-qanuni kölə ticarətiylə məşğul olan gəmilərin tutulma təhlükəsi baş verdikdə, kölələrin zəncirlərə vurularaq dənizə atıldıqları məlumdur". (17 aprel çərşənbə axşamı)

"Moskvada Qafqaz mənşəli xalqların ticarətlə məşğul olduğu bir bazara, irqçi dazların hücumu nəticəsində 10 bazarçı yaralandı. Kreml sarayındakı bir başqa hücum hadisəsində isə bir çeçen gənc bıçaqlanaraq öldürüldü". (22 aprel 2001)

"ABŞ-ın ən yoxsul əyaləti olan Mississippidə keçirilən referendumda ağlar, irqçi ayrı-seçkiliyi simvolizə edən konfederasiya bayrağını seçməkdən imtina etmədi". (19 aprel 2001)

**Şübhəsiz ki, Allah qatında ən üstün olanınız, ən çox Allahdan qorxanınızdır. (Hucurat surəsi, 13)**

## Müasir Qərb dünyası darvinist Hitlerin yoluyla gedir

Hitler, Mussolini, Franko kimi faşist liderlərin tarixin dərinliyinə basdırılmaları, onların müdafiə etdikləri darvinist fikirlərin yox olması demək deyil. Bu gün onların düşüncələrini özlərinə nümunə götürən bir çox faşist təşkilat Avropa ölkələrində fəaliyyətdədir. Xüsusilə də 80-cı illərdən etibarən, dünyanın bir çox ölkəsində təkamül nəzəriyyəsinin alovlandırdığı irqçi və neo-faşist hərəkatlar yeni bir oyanış içindədirlər. Almaniyada, Belçikada, Avstriyada, İngiltərədə, İsveçdə, İtaliyada, İspaniyada və ABŞ-da, hər gün yeni bir hücum, yeni bir odlama, yeni bir bombalama və ya təcavüzkarlıq hadisəsi baş verir. Xarici ölkələrdəki türk xalqı ölüm qorxusu içində yaşamağa çalışır, məktəbə və ya işə gedə bilmir, gecələri küçəyə çıxa bilmir və öz dillərində danışa bilmirlər.

Adları xuliqan, daz, neo-nasist də olsa, bu darvinist-faşist qrupların tək bir yerdən əmr aldıqları istər xarici görünüşlərindən, istər istifadə etdikləri simvollardan, istərsə də işlətdikləri ifadələrindən aydın olur. Hamısı Hitler kimi danışır, nasist zabiti kimi geyinir, jurnallarında və mahnılarında zorakılığı və irqçiliyi tərifləyirlər. Məqsədləri isə eynidir; Darvinin türklərlə

əlaqədar söylədiyi cəfəngiyatlara inandıqları üçün, inkişafını tamamlaya bilməmiş ibtidai heyvanlar hesab etdikləri türkləri dəhşətə gətirmək, qorxutmaq, qaçırtmaq, uzaqlara sürgün etmək, sürgün edə bilmədikləri təqdirdə isə yox etməkdir. Beləliklə də, guya bütün etnik, dini və mədəni çirklərdən təmizlənmiş, 500 milyon nəfərlik ağ irqdən ibarət təmizlənmiş bir cəmiyyət meydana gətirmək.

Ancaq türk xalqı faşizmin bu sürətli yüksəlişindən xəbərdardır və keçmişdə olduğu kimi bu gün də faşizmin hakimiyyətinə icazə verməyəcək.

## "Hitler övladları" içlərindəki kin və nifrəti göstərmək üçün hər yoldan istifadə edirlər

Hitler, alman irqindən başqa bütün irqlərin yox edilməli olduğuna inanır və onları heyvan hesab edirdi. "Şimali Avropa almanlarını bəşəriyyət tarixindən çıxartsanız, geriyə meymun rəqsindən başqa bir şey qalmaz" demiş və tarixin ən böyük qırğınlarından birini törətmişdi. Bu sözləri söyləyərkən də ən böyük dəstəyi, Çarlz Darvinin təkamül nəzəriyyəsindən alırdı. Darvin isə böyük millətimiz haqqında bu cəfəngiyatları söyləmişdi: "Təbii seleksiyaya əsaslanan müharibənin, mədəniyyətin inkişafına sizin güman etdiyinizdən daha çox fayda verdiyini və verməkdə olduğunu sübut edə bilərəm. Düşünün ki, bir neçə əsr bundan əvvəl Avropa, **türklər** tərəfindən işğal edildiyi vaxt, Avropa millətləri nə qədər böyük təhlükə altında qalmışdı, amma artıq bu gün Avropanın **türklər** tərəfindən işğalı bizə nə qədər gülünc gəlir. Avropa irqləri olaraq tanınan mədəni irqlər, həyat mübarizəsində **türk barbarlığına** qalib gəlmişdirlər. Dünyanın çox da uzaq olmayan bir tarixinə baxdığımda, **bu cür inkişafdan geri qalmış irqlərin** əksəriyyətinin mədəniləşib **inkişaf etmiş irqlər tərəfindən aradan götürüləcəyini (yox ediləcəyini) görürəm".** (Francis Darwin, The Life and Letters of Charles Darwin, Vol. I, 1888. New York:D. Appleton and Company, səh. 285-286)

Bəlkə də, Hitler və onun kimi düşünənlər tarixin qanlı səhifələrində özlərinə layiq olduqları yeri tapdılar. Amma "Hitler övladları" faşizmin, müxtəlif adlar altında hələ də fəaliyyət göstərdiyini bizə sübut edir. Neo-faşistlərin internet səhifələrində, jurnallarında və mahnı sözlərində bu

kin və nifrəti görmək mümkündür. Məsələn, "xalqın qəzəbi" adlı neo-nasist bir qrup, öz mahnısında; "biz Almaniyanı təmizləyən gücük" deyir. Bir başqa mahnısında isə türkləri nəzərdə tutaraq; "onları həbs edin və ya bir yerə qatın. Səhra belə ola bilər, yetər ki, qatın onları" deyərək kinlərini dilə gətirirlər. Endsieg adlı musiqi qrupu isə içlərində türklərə qarşı olan nifrəti; "onları mismarlamalı, onları öldürməli, onları zindana salaq, toplama düşərgələrinə salaq" cümləlariylə ifadə edir.

Bilinməlidir ki, şərəfli türk millətinə qarşı düşməncəsinə rəftarlar nümayiş etdirən irqçi hərəkatlar, 21-ci əsrdə özlərinə yaşamaq üçün bir yerə tapa bilməyəcəklər. Çünki türk milləti dünyada yenidən ayaqlanan faşist hərəkatların təməl dayağının darvinizm olduğunu görmüş və bu yanlış ideologiyanın qarşısını kəsmək üçün bütün tədbirləri almışdır. 21-ci əsrdə dünya millətləri darvinizmlə birlikdə faşizmin də süqutuna şahid olacaqlar.

## Türk düşmənçiliyinin kökləri 19-cu əsrdə axtarılmalıdır

Türk düşmənçiliyi, Osmanlı hakimiyyətinin zəiflədiyi dövrlərdə; "türklər Avropadan tamamilə çıxarılıb atılmalıdır" deyən Avropalı dövlət insanları tərəfindən başladılmış, sonra isə Osmanlı imperiyasının parçalanmasını hədəfləyən siyasətin təməl düşüncələrindən birini təşkil etmişdir. Özlərini guya; **"inkişaf etmiş və mədəni millətlər"** kimi xarakterizə edən bəzi avropalılar, türk millətini, mümkün qədər ən uzaq məsafələrə sürgün edilməsi lazım olan, guya "inkişafdan geri qalmış və ibtidai" bir ünsür hesab etmişdirlər. Bu fikirlərinin elmi təməlini də türkləri, **"ibtidai və inkişafdan geri qalmış bir irq"** hesab edən Çarlz Darvinin təkamül nəzəriyyəsindən götürmüşdürlər.

19-cu əsrdə və 20-ci əsrin birinci rübündə Avropa ölkələrinin paytaxtlarında böyük əks-səda oyandıran türk düşmənçiliyi fikrinin keçmişdə qaldığını düşünmək böyük səhvlikdir. Son günlərdə uca səslə dilə gətirilən; **"türkləri Avropadan uzaqlaşdırma"** mesajları türk düşmənçiliyinin hələ də davam etdiyini olduğunu göstərir.

O dövrlərdə; "...Cahil qatı mövhumatçı insanlar, barbar millət... türklər

daim türk qalacaqlar, heç vaxt avropalaşmayacaqlar..." deyən, o vaxtkı İngiltərənin baş naziri Lord Salisbury-un yerini, bu gün müxtəlif süni vəsilələrlə türkləri Avropadan uzaqlaşdırmaq istəyən Avropa dövlətləri almışdır. (Erol Ulubelen, İngiliz Gizli Belgelerinde Türkiye, sentyabr 1982, səh. 77)

"İstanbul tamamilə türklərin əlindən alınmalıdır, bir vəba toxumu, müharibələrin yaradıcısı, qonşuları üçün bir təhqir olan türklər Avropadan tamamilə çıxarılmalıdır..." deyən ABŞ-lı senator Lodgenin yerini isə, hazırkı dövrdə nəcib türk millətini soyqırım törətməklə günahlandıran ABŞ-lı senatorlar tutmuşdur. *(İngiliz Gizli Belgelerinde Türkiye, səh. 210)*

Ancaq türk milləti baş verən bu oyunlardan xəbərdardır, həmçinin bu tələləri birlik və həmrəylik içində dağıdacaqdır. Sahib olduğu şərəfli tarix, türk millətinin üstün əxlaq və xarakterinin bir dəlilidir.

## Türk millətini parçalamaq istəyənlərin sayıqlamaları darvinizmdən qaynaqlanır

Bu gün Avropanın türklərə olan münasibətinin, əsassız erməni soyqırımı iddialarının, İtaliya və Fransanın Türkiyə əleyhində yürütdüyü fəaliyyətlərin, Avropa İttifaqının Türkiyəni üzvlüyə qəbul etməməkdə israrlı davranmasının və neo-nasistlərin türk düşmənçiliklərinin altında Darvinin türk düşmənliyi fikri yatır. Bu, öz təsirini Sevr müqaviləsindən əvvəl də göstərmiş bir düşmənçiliyin dövrümüzə əks olunmasıdır.

19-cu əsrdə İngiltərə baş naziri William Ewart Gladstone, türkləri, müstəmləkəçi Britaniya imperiyası üçün təhlükə hesab edirdi. Türk milləti əleyhində çirkin bir təbliğat başlatmış və belə demişdi: "Türklər bəşəriyyətin insan olmayan nümunələridir. Mədəniyyətimizin davam etməsi üçün onları gəldikləri Asiya çöllərinə sürgün etməli və ya Anadoluda yox etməliyik".

İngilislər, türkləri yox etmək məqsədiylə özlərinə tezliklə "elmi (!)" bir dayaq da tapdılar. İrqçi ingilis bioloq Çarlz Darvin onlara tam istədikləri açıqlamanı verdi: "Təbii seleksiyaya əsaslanan müharibənin, mədəniyyətin inkişafına sizin güman etdiyinizdən daha çox fayda verdiyini və verməkdə olduğunu sübut edə bilərəm. Düşünün ki, bir neçə əsr bundan əvvəl Avropa,

**türklər** tərəfindən işğal edildiyi vaxt, Avropa millətləri nə qədər böyük təhlükə altında qalmışdı, amma artıq bu gün Avropanın **türklər** tərəfindən işğalı bizə nə qədər gülünc gəlir. Avropa irqləri olaraq tanınan mədəni irqlər, həyat mübarizəsində **türk barbarlığına** qalib gəlmişdirlər. Dünyanın çox da uzaq olmayan bir tarixinə baxdığımda, **bu cür inkişafdan geri qalmış irqlərin əksəriyyətinin mədəniləşib inkişaf etmiş irqlər tərəfindən aradan götürüləcəyini (yox ediləcəyini) görürəm".** (Francis Darwin, The Life and Letters of Charles Darwin, səh. 285-286)

Darvinin bu sözlərindən yola çıxan bəzi Avropa dövlətləri, Türkiyəni mənfəətləri üçün təhlükə hesab edir və ölkəmizin parçalanmasını gözləyirlər. Sevr müqaviləsinin bağlandığı dövrdə olduğu kimi, bugünkü gündə də, Türkiyə torpaqlarını parçalayaraq dağıtmağa çalışırlar.

Ancaq, türk milləti bunların yaşaanmasına icazə verməyəcək. İdarə etmək, hüzur və əmin-amanlıq gətirmək türk millətinin fitrətində var. Türk milləti bölünə bilməyəcəyi kimi, bütün Asiya türklərini, Orta Şərqi və müsəlmanları vahid halda toplayaraq, kökü keçmişdə olan bir gələcəyi hazırlayır.

## Dövrümüzdəki iki əhəmiyyətli təhlükə, darvinizmin doğru olduğunu hesab etmək və onu bir təhlükə kimi görməməkdir

Darvinizm, həyatın mənşəyinə açıqlama gətirən iddialar ortaya atan hər hansı bir nəzəriyyə deyil. Darvinizmin iddiaları, insanları bir Yaradıcı olmadığına, yaranmanın və həyatda qalmanın ancaq qarşıdurma və mübarizə yoluyla mümkün olacağına inandırmaq üçün 150 ildir ki, şüurlu və planlı şəkildə insanlara təlqin edilir. 20-ci əsrdə Hitler, Mussolini, Stalin, Lenin, Mao kimi ən qanlı diktatorlar, rejimlərinin ideologiyalarını darvinizmə əsaslandırmışdırlar. Dini isə, ideologiyalarının və darvinizmin önündəki ən böyük mane hesab etmişlər.

Bəşəriyyətin bu cür bəlalardan, zalım diktatorlardan və darvinizmdən dəstək alaraq qırğınlar törədən, terror mühiti meydana gətirən qruplaşmaların əlindən xilas ola bilməsi üçün darvinizmin mütləq elmi və

fəlsəfi baxımından çökdürülməlidir.

Bu gün darvinizmin qəti şəkildə və sürətlə çökməsinə mane olan iki əhəmiyyətli təhlükə var;

**1) Darvinizmin hipnozuna qapılaraq Quranda da təkamüldən bəhs edildiyini irəli sürən dindarlar**: Halbuki, Quranda təkamüldən bəhs edilmir. Quranda canlılardakı mükəmməllik və onların yaranma mərhələlərindən bəhs edilir. Allah bütün canlıları "ol" əmri verərək yaratdığı bildirir.

**2) "Darvinizm təhlükəsi artıq yoxdur, bu təhlükə bundan illərlə əvvəl yox edilmişdir" deyənlər**: Bu da böyük bir səhvlikdir, çünki bu gün bir çox ölkənin xalqı darvinizmə inanmasa belə, başçılar darvinizmi müdafiə edir və məktəblərdə bu əsassız nəzəriyyəni öyrədirlər. Hətta Çin və Rusiya kimi bir çox ölkədə darvinizm məcburi bir inanc kimi dövlət tərəfindən insanlara öyrədilir.

Buna görə də, darvinizm təhlükəsini görməzlikdən gəlmək və ya bu nəzəriyyənin gücdən düşdüyünü hesab etmək, onu Quran hökmlərinə uyğun gəlirmiş kimi göstərməyə çalışmaq, vicdana və ağla uyğun hərəkət deyil. Bu gün Çeçenistanda, Şərqi Türküstanda, Kosovada və daha bir çox yerdə insanlar darvinizmin dəstək verdiyi ideologiyaların müdafiəçiləri tərəfindən zülmə uğradılırlar.

## Marks və Engelsin cəhaləti

Marks və Engels, canlıların dialektikası iddialarına, Darvinin təkamül nəzəriyyəsinin elmi bir dəstək verdiyini güman edirdilər. Halbuki, belə düşünməklə böyük səhvliyə yol verirdilər. Bu səhvliyə yol vermələrinin ən əhəmiyyətli səbəblərindən biri isə, yaşadıqları dövrdə elmin inkişafdan olduqca geri alması idi.

- O dövrdə istifadə edilən mikroskoplarda hüceyrə sadə bir ləkə kimi görülürdü. Halbuki bu gün, hüceyrənin nəhəng bir kosmos gəmisindən olduqca mürəkkəb bir quruluşa sahib olduğunun müəyyənləşdirilə bildiyi elektron mikroskoplarından istifadə edilir.
- O dövrün laboratoriyaları bir neçə sınaq şüşəsindən və bir neçə primitiv sadə alətdən ibarət idi. Hazırkı dövrdə isə, olduqca funksional

kompyuterlər və ən qabaqcıl texnologiya məhsulu cihazlarla təchiz edilmiş laboratoriyalar elm insanlarına xidmət edir.

O dövrün geriliyi şəraitində hüceyrənin nə olduğundan belə xəbəri olmayan Engels, “Təbiətin dialektikası” adlı kitabında, çəkinmədən təkamül nəzəriyyəsinin sübut edilmiş bir həqiqət olduğunu söyləmiş və belə demişdi: "...Bütün çox hüceyrəli orqanizmlər (istər bitkilər, istərsə də insan da daxil, bütün heyvanlar) hər vəziyyətdə hüceyrənin bölünməsi qanununa görə bir hüceyrədən meydana gəlirsə, bu orqanizmlərin sonsuz müxtəlifliyə sahib olmasının səbəbi nədir? Bu sual, ilk dəfə Darvin tərəfindən əhatəli şəkildə açıqlanan və sübut edilən təkamül nəzəriyyəsi ilə cavablandırıldı". (Friedrich Engels, Doğanın Diyalektiği, səh. 251-252)

Marks və Engels təkamül nəzəriyyəsinin sübut edildiyini güman edəcək qədər elmi həqiqətlərdən xəbərsizdilər.

Halbuki indiki dövrdə ən qatı təkamülçülər belə təkamül nəzəriyyəsinin sübut edilmədiyini etiraf edirlər; dr. Robert Milikan (nobel mükafatı sahibi, tanınmış bir təkamülçü): “Biz elm insanlarının indiyə qədər heç bir elm insanının sübut edə bilmədiyi təkamülü sübut etməyə çalışması çox acınacaqlı haldır” deyir.

Herribert Nillson isə (təkamülçü elm adamı): “Təkamülü təcrübə yoluyla sübut etmə cəhdlərim 40 ildən artıq davam etdi və müvəffəqiyyətsizliklə nəticələndi” deyir.

Müasir darvinist-marksistlər, 19-cu əsrin böyük gerilik dövründə cahilcəsinə ortaya atılmış fikirləri, 21-ci əsrdə böyük təəssübkeşliklə müdafiə etməyə davam edirlər. Buna göz yumulmamalı, gənc nəsillərə 21-ci əsrin elmi həqiqətləri izah edilməlidir.

## Kommunist düşüncə fəlakət gətirər

Ötən əsrdə kommunist ideologiya ucbatından on milyonlarla insan qətlə yetirilmişdir. Kommunizm, bununla da kifayətlənməyib bəşəriyyətin incəsənət, estetika, elm, düşüncə kimi xüsusiyyətlərini yox etmək üçün də hər cür yolu sınamışdır. Kommunist ideologiyanın bəşəriyyətə vurduğu zərbəni görmək üçün, kommunist elm anlayışını araşdırmaq kifayətdir.

"Lisenko hadisəsi" bu mövzudakı ən bariz nümunələrdəndir.

Lisenko, təkamül nəzəriyyəsinin iddialarına kor-koranə bağlanmış qatı bir darvinist idi. SSRİ-də 1930-cu illərdə yaşanan kənd təsərrüfatı böhranı əsnasında olduqca böyük həcmdə və məhsuldar taxıl istehsalını həyata keçirəcəyini vəd etmişdi. Necə ki, Stalin dövründəki sovet elminə damğasını vuran Lisenkonun "kənd təsərrüfatı siyasəti", tonlarla toxumun sıradan çıxmasına, insanların boşuna əmək sərf etməsinə səbəb olmuşdur. Lisenkonun heç bir elmi dəlilə əsaslanmayan, hətta kəskin surətdə ağla və məntiqə zidd olan çox saydakı darvinist düşüncə və tətbiqlərindən bir neçəsi belədir:

- Əlverişli mühit şəraitində yetişdirilən buğda bitkilərinin çovdar toxumları verməyə başlayacağını iddia etmiş və bu məntiqə uyğun olaraq aparılan kənd təsərrüfatı sahəsindəki təşəbbüslər böyük ziyanla nəticələnmişdir.

- Əkiləcək toxumların, uzun müddət soyuq suda saxladılacaqları təqdirdə, soyuq hava şəraitinə uyğun bir quruluş qazanacaqlarını iddia etmişdir. Lisenkonun bu iddiası əsasında, Rusiyada tonlarla toxum soyuq suda saxladıldıqdan sonra Sibir çöllərinə əkilmişdir. Əlbəttə ki, toxumların heç biri cücərməmişdir.

Lisenko hadisəsi, materializmə və təkamül nəzəriyyəsinə olan kor-koranə bağlılığın elmə və cəmiyyətə nə qədər böyük zərərlər gətidiyini göstərən tarixi bir sənəddir.

## Kommunist dövlət olan Şimali Koreyada böyük bir nəsil aclıqdan və baxımsızlıqdan yox olur

Kommunist rejimlə idarə olunan ölkələrin vəziyyəti bütün bəşəriyyətə dərs olmalıdır. Bu gün kommunist Şimali Koreyada uşaqlar aclıqdan ölürlər. Səhiyyə sistemi tamamilə çökmüşdür; dərman tapılmır, əməliyyatlar belə narkozsuz həyata keçirilir. Qeyri-kafi qidalanmadan ötrü bir nəsil ya şikəst, ya ağır xəstə, ya da zehni qüsurlu olaraq dünyaya gəlir. Ölkədə elektrik və su yoxdur, bu səbəblə də xalq şiddətli epidemik xəstəliklərlə mübarizə aparır.

Fabriklər işləmədiyi üçün dərman və digər zəruri ehtiyaclar istehsal oluna bilmir. Xalq dənizdən yosun toplayıb bunları qurudaraq uşaqlarını qidalandırmağa çalışır. “New York Times” qəzetinin verdiyi xəbərə görə ayda 10 000-dən çox uşaq həyatını itirir. Bu ilin əvvəlində isə təxminən 2 milyon Şimali Koreya vətəndaşının aclıqdan öldüyü bildirilir. Ancaq kommunist Şimali Koreya rəhbərliyi jurnalistlərin ölkəyə girmələrini qadağan etdiyi kimi, ictimaiyyətə məlumat da vermirlər.

Bu gün Şimali Koreya dövləti öz xalqına, keçmişdə Leninin, Stalinin, Maonun etdiklərini tətbiq edir. Xalqlarını heyvan hesab edən, onlara dəyər verməyən darvinist-kommunist rəhbərliklər daha əvvəl də Rusiyada, Ukraynada, Çində on milyonlarla insanın aclıqdan, səfalətdən və xəstəliklərdən ölməsinə səbəb olmuşdur.

Darvinizm və kommunizm təhlükə deyil deyənlər, bunu bir daha düşünsünlər:

**Şimali Koreyadakı uşaqları kim və necə xilas edəcək?**

Alicənab türk milləti, darvinizm və kommunizmlə apardığı fikri mübarizə və mənəvi dəyərlərə verdiyi əhəmiyyətlə, dünyanı qaranlıqlardan nura çıxardacaq.

## Darvinizmin müdafiə olunması iman edənlər üçün əhəmiyyətli bir təhlükədir

İman edən bəzi insanlar, darvinizmin yaratdığı hipnozun təsirinə düşür və bu saxta nəzəriyyənin Quranla ziddiyyət təşkil etmədiyini söyləyirlər. Halbuki darvinizm yalanı həm Quranla ziddiyyət təşkil edir, həm də darvinizm yalanını müdafiə etmək zülmə, inkara, müharibəyə şərait yaradır.

Quranda, darvinizmin irəli sürdüyü təkamül prosesini dəstəkləyən heç bir ayə yoxdur. İnsanın yaranma prosesini izah edən ayələr, yaradılışın mərhələləridir və Darvinin insanın təkamül yolu heyvandan meydana gəldiyi iddiasını qətiyyən dəstəkləmir.

Darvinizmi elmi həqiqət hesab etmək; "elmin qarşısında biz nə deyə bilərik" deyərək darvinizmi qəbul etmək də böyük bir yanılmadır. Çünki

darvinizm elmi bir nəzəriyyə deyil və çox cüzi bir araşdırma və təhlil belə, bu nəzəriyyənin elmin qarşısında düşdüyü çıxılmaz vəziyyətləri, məntiqsiz və ağılsız iddialarını göstərmək üçün kifayətdir.

Bu səbəblə də, acizlik və çarəsizlik içində, bəşəriyyətə zülm və əzab gətirən bu nəzəriyyə qəbul edilməməlidir. Əksinə vicdanlı iman sahibləri bu nəzəriyyə ilə fikri baxımdan effektiv, səmimi və şövqlü şəkildə mübarizə aparmalıdırlar. Vicdan və ağıl sahibi kimsələr bu mövzuda həmrəy olduqları təqdirdə, bu nəsil dinsizliyə aid bütün ideologiyaların yer üzündən sürətlə silindiyini və yerinə Qurandakı gözəl əxlaqın hakim olduğunu görəcək.

Batili qəbul etmək doğru deyil. Doğru olan, haqqı batilin üstünə atmaqdır. Bu təqdirdə Allahın ayəsində bildirdiyi kimi **"batil yox olub gedər"**.

## Darvinizm=materializm=marksizm=anarxizm

**Karl Marks**: "Darvinin əsəri böyük bir əsərdir. Tarixdəki sinfi mübarizənin təbiət elmləri baxımından təməlini meydana gətirir".

**Stalin**: "Gənc nəsillərin zehnini yaradılış düşüncəsindən təmizləmək üçün onlara təkcə bir şeyi öyrətməliyik: Darvinin təlimlərini"

**Lenin**: "Marksın nəzəriyyəsi, təkamül nəzəriyyəsinin, ən tutarlı, ən tam, ən düşünülmüş və köklü formasıyla müasir kapitalizmə tətbiq olunmuş formasıdır. Marksın açıqlamalarının böyük əhəmiyyəti, burada da, materialist dialektikanı, təkamül nəzəriyyəsini, uyğun şəkildə tətbiq etmək və kommunizmi, kapitalizmdən etibarən inkişaf edən bir şey kimi düşünməkdir".

**Mao**: "Çin sosializminin təməli Darvinə və onun təkamül nəzəriyyəsinə əsaslanır".

**Engels**: "Təbiət metafizik olaraq deyil, dialektika olaraq işləyir. Buna görə də hamıdan əvvəl Çarlz Darvinin adı qeyd olunmalıdır".

**Trotski**: "Darvinin kəşfi, bütün üzvi maddələr sahəsində dialektikanın (dialektik materializmin) ən böyük qələbəsi oldu".

20-ci əsrin əli qanlı liderlərinin təriflə bəhs etdikləri darvinizm, materializmi, kommunizmi, bölücü terroru, anarxizmi yaradan azğın inanc

sistemidir. Bütün insanların məsuliyyət sahibi olmayıb sərbəst olduqlarını, dünyadakı bütün canlıların yaşamaq uğrunda mübarizə aparmalı olduqlarını, eləcə də, digər canlılar kimi insanların və tarixin də inkişaf etmək üçün mübarizə aparmalı olduqlarını müdafiə edən bu təsadüf fəlsəfəsi, 150 ildən bəri bütün dünyanı qan gölünə çevirmişdir.

Darvinist təbliğatın və onun dəstəklədiyi dialektik materializmin təsirinin aradan qalxması və gənclərin bu cəfəngiyatlardan uzaq şəkildə öyrədilməsiylə, bir çox təhlükəli ideologiyanın da həyat damarı kəsiləcək və dünya bütnü bu bəlalardan təmizlənəcək.

Şübhəsiz ki, burada ən əhəmiyyətli vəzifə, əsrlərdir ki, İslam dininə liderlik etmiş, ağıl və bəsirət sahibi türk millətinin boynuna düşür. Millətimiz, Quran əxlaqının təqdim etdiyi gözəllikləri təbliğ edərək, bütün bu ideologiyaların mənfur cəhətlərini dünyaya çatdırır.

## Bəzəkli sözlərlə anlaşılmaz və dərin göstərilməyə çalışılan marksist-leninist fəlsəfənin iddiaları olduqca bəsit və sadədir

Kommunistlərin öz fikirlərini ifadə edərkən əl atdıqları üsullardan biri, eynilə darvinistlər kimi bəzəkli sözlərdən istifadə etməkdir. Əslində hamının çox yaxşı bildiyi bir sözü xalqa naməlum olan digər bir söz əvəz edərək, marksist-leninist fəlsəfəni anlaşılmaz, əlçatmaz və mürəkkəb göstərmək istəyərlər.

Bu gün marksist-leninist fikri müdafiə edən jurnal və qəzetlərdə xüsusilə anlaşılmaz və mürəkkəbləşdirilmiş bu üslubu görmək mümkündür.

Məsələn, "dialektik materializm" anlayışından, əslində materializmi tərif etmək üçün istifadə edərlər. Dialektika çox işlənməyən bir söz olduğu üçün xalq bu sözün çox şey ifadə etdiyini zənn edər.

Halbuki 19-cu əsrdə Marks və Engelsin darvinizmin də təsiri altında qalaraq ortaya atdıqları iddialar olduqca adi, heç bir dərinliyi olmayan, sadə fərziyyələrdir. Ancaq bəzəkli izahatlar və bir də Marksın və Engelsin ağır filosof ədasıyla verdikləri pozaları əks etdirən şəkillərindən ibarət cildlərlə

kitab xalqa təqdim edildikdə, onlar da bu kitabların çox qiymətli əsərlər olduqlarını zənn edirlər. Halbuki Marksın və Engelsin sahib olduqları məlumatlar bu gün bir yuxarı sinif şagirdinin sahib olduğu məlumatlardan xeyli azdır. Ancaq, bu filosoflar xüsusi təlqin metodlarıyla insanların gözündə böyüdülməyə çalışılır.

Bu cür mənasız və təhlükəli fəlsəfələrlə effektiv mübarizə üsulu, doğrunu və haqqı xalis, sadə və səmimi bir üslubla bütün insanlara çatdıraraq təhlükəni açıq və aydın hala gətirməkdir.

## Qorxu və təhdid üzərində qurulmuş kommunist dövlət, öz əsgərlərinə belə işgəncə tətbiq edir

Darvinist fikirlər üzərində qurulmuş kommunist dövlət, insanları heyvan sürüsü hesab edər və öz millətinə nə dəyər verər, nə də güvənər. Buna görə də qorxu, təzyiq və dəhşət mühitləri yaradaraq, onlara nəzərət etməyə çalışar. Hər kəsi potensial şübhəli, təqsirkar və ya xain hesab edər. Leninin bu sözləri, darvinist-kommunist dövlətin öz xalqına baxış prizmasını əks etdirməsi baxımından əhəmiyyətlidir: "Diktatorluq bilavasitə zorakılığa əsaslanan və heç bir qanunla məhdudlaşdırılmamış hakimiyyətdir". (Lenin, Proleterya Devrimi ve Dönek Kautsky, səh. 53)

Bu azğın fikirləri miras almış Rusiya dövləti, millətinə zülm etməyə davam edir. Dünya mətbuatına əks olunan bəzi xəbərlər belədir: “Rusiyada hər il 500 əsgər öz zabitləri tərəfindən səbəbsiz yerə öldürülür və bu cinayətlər intihar halları kimi çatdırılır. Gənc rus əsgərləri, ailələrinə özlərini bu zülmdən qurtarmaları üçün yalvarma mahiyyətli gizli məktublar göndərirlər. Ancaq ailələr bir müddət sonra oğullarının işgəncə və ya döyülərək öldürülmüş cəsədlərini tapırlar”.

Kommunist ideologiyanı müdafiə edənlər, bunları bir daha düşünməlidirlər: Öz övladları işgəncə ilə öldürülsəydi, kommunizmə arxa çıxarlarmıydı?

Bir fəlakət və ya təhlükəyə qarşı ciddi tədbirlər almaq üçün, o təhlükəylə üz-üzə gəlmək lazım deyil. Dünya üzərində bu təhlükə altında

yaşayan insanların olması, vicdan sahiblərini hərəkətə keçirməlidir.

## Dialektik materializmin hiyləgər taktikası: bir addım irəli, iki addım geri

Hazırkı dövrdə darvinizmdən güc alan kommunizmin artıq bir təhlükə olmadığını, illər əvvəl süqut etdiyini güman edənlər xeyli yanılırlar. Çünki kommunizm süqut etməmiş, dialektik materializmin ən əhəmiyyətli qanununa uyğun olaraq iki addım geri çəkilmişdir.

Leninin bu haqqda kitab yazdığı; "bir addım irəli, iki addım geri" prinsipinə görə kommunistlər hədəflərinə çatmaq üçün yeri gəldikdə bir neçə addım geri çəkilərək sanki hədəflərindən uzaqlaşmış kimi görünərlər. Məhz bundan ötrü kommunist Çindəki məktəblilərə üç addım irəli, iki addım geri prinsipinə əsaslanan "dialektik gediş yolu" öyrədilər.

Bu həqiqəti göstərən ən konkret nümunələrdən biri kommunistlərin ailə təsisatı haqqındakı düşüncələridir. Dialektik materializmin banisi Karl Marksa görə evlilik təsisatı yox edilməlidir. Kommunist manifestdə Marks; "proletarların demək olar ki, heç ailə həyatı qurmadığını və onlar arasında fahişəliyin çox geniş yayıldığını" söyləyərək buradan bu nəticəyə gəlir:

**"...burjua ailəsi ortadan qalxmalıdır".**

Kommunistlər bu hədəflərinə çatmaq üçün, dialektik materializmin qanunlarına tabe olarlar. Ailə təsisatını yox etmək üçün güclü bir dövlətə ehtiyacları var. Ancaq güclü dövlət yaratmaq üçün, ilk növbədə güclü ailə təsisatı olmalıdır. Dolayısilə əvvəlcə geri addım ataraq, ailə təsisatını gücləndirərlər. Bu sayədə kommunist dövlət güclənər və bir mərhələdən sonra ailə təsisatını tamamilə yox edər. (Komünistler Nasıl Yalan Söyler, Dr. Fred C. Schwarz, s. 215-216)

Bu nümunədən aydın olduğu kimi, kommunistlərin "kommunizm süqut etdi", "Rusiyada ailə əlaqələri daha da gücləndi" kimi şüarları insanları aldatmamalıdır. Bu, dialektik materializmin olduqca məlum bir taktikasıdır. Kommunizm, bir buqələmun kimi rəng dəyişdirmiş və təkrar addım atmaq üçün əlverişli şəraitinin yaranmasını gözləyir.

Dolayısilə kommunizmin təməl fəlsəfəsi olan dialektik materializm və onun dırnaqarası elmi dayağı olan darvinizmlə ciddi şəkildə fikri mübarizə aparılması vacibdir. Əks halda, kommunistlər irəli atacaqları qanlı və zalım addımlar üçün pusquda dayaanıb gözləyirlər.

Bu ideologiya orta məktəblərdə və universitetlərdə getdikcə yayılır. Türkiyədə tarixin ən böyük kommunist bölücü təhlükəsi yaşanır. Amma ayıq-sayıq və ağıllı olmasıyla seçilən türk milləti bu təhlükəni görmüşdür və bu zalım ideologiyasının hakimiyyətinə icazə vermir.

**İnsanların eləsi də var ki, onun bu dünya həyatına aid sözləri səni heyran edər. O, qəlbindəki rəğmən Allahı şahid göstərər. Əslində o, azğın bir düşməndir. O, dönüb getdikdə yer üzündə fitnə-fəsad törətməyə, əkinləri və nəsilləri məhv etməyə çalışar. Allah isə fitnə-fəsadı sevmir. (Bəqərə surəsi, 204-205)**

## Terroru və zorakılıq hadisələrini dayandırmağın yolu, darvinist təhsilə son verməkdir

Hazırkı dövrdə bütün dünya ölkələri milli gəlirlərinin böyük bir hissəsini müdafiə xərclərinə ayırır. Çünki alınan əməliyyat tədbirləri, məhkəmələr, cəzaçəkmə müəsissələri zorakılıq və terrorun qarşısını almaqda kifayət etmir, cinayət hadisələrinin sayı isə gün keçdikcə daha da artır.

Bunun tək səbəbi bu ölkələrin gənclərini darvinist və materialist ideologiyayla yetişdirmələridir. Məktəbin ön qapısından yaxşı bir təhsil almaq üçün girən bir gənc, arxa qapısından "kommunist" və ya "faşist" olaraq çıxır. İnsanın inkişaf etmiş bir heyvan növü, həyatın isə mərhəmətin yaşanmadığı mübarizə meydanı olduğunu, yalnız güclülərin həyatda qalacağını, zəiflərin aradan götürüləcəyini, sağ qala bilmək üçün hər cür əxlaqsızlığı etmənin qanuni olduğunu öyrənən bir gəncdən başqa bir şey gözləmək də qeyri-mümkündür. Çünki bu gənclər gözəl əxlaq əvəzinə zorakılıq və təcavüzkarlığı, şəfqət əvəzinə qəzəb və kini, bölüşmək əvəzinə eqoizm və mənfəətçiliyi öyrənirlər.

Məhz bundan ötrü də zorakılıq və terrorun qarşısını almaq üçün atılmalı olan ilk addım, darvinizm və materializmin cəfəngiyatlarının gənclərə sanki bir həqiqətmiş kimi öyrədilməsinə mane olmaqdır.

Unudulmamalıdır ki, gəncləri bu şəkildə öyrətdikdən sonra; "niyə terrorist oldun?" demək böyük səmimiyyətsizlikdir. Əgər gənclərə vətən və millət sevgisi aşılayan, gözəl əxlaqı öyrədən təhsil müəsissələri yaradılıb, darvinist-materialist təhsil verilməsə bu böyük problem də öz-özünə aradan qalxar.

Darvinizmin gəncləri necə bir bataqlığa sürükləyəcəyini görən türk milləti lazımi tədbirləri almış, bu istiqamətdə böyük mədəniyyət səfərbərliyi başlatmışdır. Bu yolla da Darvinin qeyri-elmi cəfəngiyatlarını göstərir. Millətimiz bu mədəniyyət həmləsi ilə 21-ci əsrdə layiq olduğu yerə çatacaq.

**Həqiqətən, onlar hiylə qurdular. Halbuki onların hiylələri, dağları belə yerindən tərpətsə, Allah qatında onlara qurulmuş bir hiylə (pis bir qarşılıq) vardır... (İbrahim surəsi, 46-47)**

## Darvinist təhsil bəla gətirər

Darvinist təhsil verən Qərb dövlətlərində insanların böyük hissəsi sahib olduqları mənəvi və milli dəyərlərdən uzaqlaşmış və materializmin cəfəngiyatlarının cənginə düşmüşdürlər. Belə cəmiyyətlərdə vəfanın, sədaqətin, şəfqətin, fədakarlığın heç bir əhəmiyyəti yoxdur. Gənclər, özlərinə verilən təhsil nəticəsində, bu dünyada təsadüflər nəticəsində meydana gəldiklərini, bir gün ölüb yox olacaqlarını zənn edərlər. Dolayısilə dünyada çox az qalacaqlarına inanar və bütün eqoist ehtiraslarını təmin etməyə çalışarlar. Bu materialist anlayış zaman keçdikcə fərdlərin insani xüsusiyyətlərini itirmələrinə səbəb olar.

Məhz darvinist təhsilin təməli budur; **"heyvanlara bənzər insan cəmiyyətləri meydana gətirmək və heyvan sürülərinin arasına darvinizmin inkişaf etmiş heyvanlar kimi xarakterizə etdiyi insan sürüləri qatmaq"...**

Bu cür ictimai fəlakətə məruz qalmamaq üçün, 7-dən 70-ə qədər bütün insanlara darvinizmin elmi əsassızlığının izah edilməsi vacibdir.

Fərdlərinə vətən və millət sevgisi aşılayan, onlara sahib olduqları mənəvi dəyərləri qorumağı öyrədən təhsil sistemini, bu anlayış çərçivəsində formalaşdıran millətlər gələcəyə arxayınlıqla baxa bilər.

Müsəlman türk milləti, bu həqiqəti görmüş və vicdanlı, milli və mənəvi dəyərlərinə sahib çıxan bir gənclik yetişdirmişdir. Bu üstün xüsusiyyətləri, ona 21-ci əsrdə, darvinizm təhlükəsinə qarşı bütün insanları xəbərdar etmə və qoruma vəzifəsini yükləmişdir. Uca millətimizin bu tarixi vəzifəni layiqincə yerinə yetirməkdə olduğuna şübhə yoxdur.

## Darvinist elm insanlarının irqçi tətbiqlərinin hədəfi günahsız Afrika xalqıdır

Çarlz Darvinin insanın təkamül keçirmiş bir heyvan növü olduğu iddiası, ictimai həyat üzərində çox dərin izlər qoydu. Çünki bu düşüncəyə görə fərqli irqlər, xəstələr, zəiflər, kasıblar, qüsurlular təkamül prosesini tamamlamamış aşağı bir növ hesab edilirdi. Bu dünyagörüşünə sahib təkamülçü elm insanları əsrlər boyu aşağı irq kimi xarakterizə etdikləri yerli qəbilələri vəhşicəsinə qətlə yetirdilər, üzərlərində təcrübələr apardılar və onları bir heyvan kimi nümayiş etdirdilər.

Müasir təkamülçü elm insanları da atalarının izindən gedirlər və günahsız insanları guya elmi məqsədli çalışmalarında sınaq vasitəsi kimi istifadə edirlər. Tanınmış fransız jurnalı “La Recherche” 2001-ci ilin may ayındakı buraxılışında; "Tibb elmi sınaq vasitələrini tapdı mı?" başlığıyla dərc etdiyi iri həcmli xəbərdə elm adamlarının bu irqçi yanaşmalarına yer verir. Xüsusilə də son illərdə QİÇS kimi təhlükəli xəstəliklərlə əlaqədar araşdırmaların (yaranacaq təhlükələrdən bixəbər), afrikalı günahsız insanlar üzərində aparıldığına diqqət çəkilir və ya bəzi xəstələrin "xəstəliyin inkişafının izlənilməsi məqsədiylə" xüsusən müalicə edilməyib, ölümə tərk edildikləri vurğulanır.

Ancaq türk millətinin də dəstəyi sayəsində, darvinist elm insanlarının bu irqçi yanaşmaları bütün gerçəkliyi ilə gün işığına çıxarılmışdır və çıxarılmağa da davam edəcək. Millətimiz, darvinizmə qarşı başlatdığı mədəniyyət həmləsində bütün dünyaya nümunə olur.

## Gəncləri məktəb vaxtlarından darvinist yalanlarla öyrədənlər, meydana gətirdikləri təhlükədən xəbərsizdirlər

Terror bəlasını gücləndirən; gənclərə təkamül yolu ilə heyvanlardan meydana gəldiklərini, buna görə də, heyvanlar kimi hər cür əxlaqsızlığı və cinayəti işləyə biləcəklərini təlqin edən darvinist-materialist təhsildir. Əgər dünyadakı bütün təhsil müəssisələrində bu təhsil verilməyə davam edilsə, terrordan xilas olmaq da qeyri-mümkün olacaq.

Məktəb vaxtlarında darvinist-materialist kitablar oxuyaraq, yalnız maddəyə dəyər verən, bütün əxlaqi dəyərləri rədd edən və heç kimə qarşı məsul olmadıqlarına inanan gənclərin qarşısında terror bəlasına batmaqdan başqa bir variant yoxdur.

Bu, illərlə bir fermada zəhmətlə zəhərli ilanlar yetişdirmək, daha sonra bu ilanları sərbəst buraxıb, ilanlar insanları sancmağa başladığında isə; "niyə bu ilanlar insanları sancdı?" deməyə və onları tək-tək toplamaq üçün çalışmağa bənzəyir. Əhəmiyyətli olan həmin bu zəhərli ilanları bəri başdan yetişdirməməkdir.

Dünya ölkələri terrorla mübarizə mövzusunda böyük yanılmaya qapılır və yalnız "yaxşı təqib, yaxşı təsbit, yaxşı ələ keçirmə, yaxşı mühakimə etmə"ni əsas götürürlər. Halbuki tarixi təcrübələr bizə, "təqib, ələ keçirmə və mühakimə etmə" yoluyla terror bataqlığından qurtulmağın qeyri-mümkün olduğunu göstərmişdir. Əhəmiyyətli olan insanları terrora sürükləyən səbəblərin tapılması və bunların yaxşı bir təhsillə aradan qaldırılmasıdır.

Tarix boyu bu cür cəfəngiyatlara qarşı hər vaxt oyanıq olan türk milləti, bu təhlükədən də xəbərdardır. Kommunist qrupların hakimiyyətinə əsla icazə vermir. Dünya gəncliyini bu böyük bəladan yenə türk milləti qurtaracaq.

**Ey iman edənlər, hamınız "sülhə və əmin-amanlığa" daxil olun və şeytanın addım izləriylə getməyin... (Bəqərə surəsi, 208)**

## Zəiflər yox edilməlidir deyən darvinizm, dünyadakı zülmün ən böyük məsuludur

Vicdan sahibi insanlar, özləri təhlükəsizlik içində, isti və rahat bir evdə oturarkən, digər bir ölkədə milyonlarla insanın qəddarcasına qətlə yetirildiyini unutmazlar.

Məsələn, Kəşmirdəki müsəlmanlar illərdir ki, zülm görürlər. Bu günə qədər on minlərlə Kəşmirli müsəlman öldürüldü, qadınlara təcavüz edildi. Beynəlxalq təşkilatların verdiyi hesabatlara görə minlərlə insan şikəst qaldı, evlər yandırıldı, dini təhsil verən məktəblər bağlanıldı və minlərlə insan həbsxanalardadır... İnsanlar hələ də mağaraya bənzər yerlərdə, çox çətin şərtlər altında yaşamağa çalışırlar. Kəşmirdəki mühacir düşərgələrinə baş çəkən bir jurnalistin, düşərgədəki həyatı təsvir etdiyi bu cümlələri bu baxımdan çox əhəmiyyətlidir: "Həyat standartları normadan olduqca aşağıdır. İnsanlar sanki balaca torpaq evlərə sıxışmış vəziyyətdədir. Evlər ümumiyyətlə iki otaqlıdır. Otaqlarda bir neçə ədəd istifadəyə yararsız saxsı qablara var. Bir və ya iki ədəd yataq... Yataqlara yataq demək üçün min şahid lazımdır... Bəzi evlərdə alışdırılmış üç-beş budaq parçasıyla yandırılmış ocaqda, qaynayan bir qazana rast gəlinir. Ətrafda heç bir sulu yemək yoxdur! Amma utandığım üçün heç bir qazanın qapağını açmağa cəsarət göstərə bilmədim. Hansı çadıra girdiksə orada nə yemək, nə də üzərində yatmaq üçün bir şey tapa bilmədik! Çadırlardan birində yerə kiçik köhnə bir bez parçası sərilmişdi. Yataq kimi istifadə olunduğu bəlli idi. "Bu çadırda neçə insan qalır?" deyə soruşduğumda aldığım cavab "11 insan" oldu..."

İnsanların bu zülmdən xilas olmaları və insan kimi yaşaya bilmələri üçün onlara zülm edənlərin ideologiyası yox edilməlidir. Zülmün ideologiyası darvinizmdir. Dünyadakı möhtac insanlar üçün bir şey etmək və onların qurtuluşuna vəsilə olmaq istəyirsinizsə, darvinizmin elm qarşısındakı məğlubiyyətindən bəhs edən əsərləri oxuyun və bunları hamıya çatdırın. Şərəfli türk millətinin bu zülmün qarşısını ala biləcək tarixi bir mirasın sahibi olduğunu əsla unutmayın.

Sizə nə olub ki, Allah yolunda və: “Ey Rəbbimiz! Bizi əhalisi zalım olan bu şəhərdən çıxart, bizə Öz tərəfindən bir himayəçi təyin et, bizə Öz tərəfindən bir yardımçı təyin et!” deyən zəif kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?

## Kəşmirdəki zülm

Kəşmirdəki minlərlə günahsız və möhtac insan illərdir ki, zülmə məruz qalır. Bu şəkillərdə əks olunan mənzərələr, vicdan sahibi hər insanı hərəkətə keçirməli, zülmün ideologiyası olan darvinizmə qarşı yürüdülən fəaliyyətlər dəstəklənilməlidir. Bu, bütün iman edənlərin üzərinə düşən bir məsuliyyətdir.

## Əks fikirləri müharibə, zülm və qorxu yoluyla susdurmaq istəyənlər tarix boyu məğlubiyyətə uğrayıblar

Darvinizmdən ilham alan dialektik materializmə görə tarix, əks fikirlərin qarşıdurması və var gücləriylə mübarizə aparmasıdır. Bu inanclarından ötrü 20-ci əsrdə faşistlərlə kommunistləri bir-birinə qırdırmış, eyni vətənin övladlarını bir-birlərinə düşmən etmiş və dünyanı qan gölünə çevirmişdirlər. Bunun nəticəsində isə öz ideologiyalarının qalib gələcəyini zənn etmişdirlər. Ancaq, kommunizm bu mübarizədən qalib çıxa bilməmiş, dialektik materializmin tarixin dialektikası iddiası da çürümüşdür.

Tarixdə daima, üz-üzə gələn yaxşı və pis insanlar olmuşdur. Bunlar arasında isə fikri mübarizə baş vermişdir. Bu mübarizədən qalib çıxan isə daim yaxşı insanlar olmuşdur. Çünki Allahın Quranda göstərdiyi mübarizə üsulları insanlar arasında sülh, əmin-amanlıq və dostluq yaratmağa, ziddiyyət və düşmənçilikləri aradan qaldırmaq mahiyyətlidir.

Məsələn, Allah hz. Musaya Fironu doğru yola çağırmasını buyurmuşdur. Hz. Musa və Firon iki əks fikirin müdafiəçiləridir. Ancaq, Allah bu iki əks tərəfi bir-biriylə üzləşdirərkən, hz. Musa və qardaşı hz. Haruna belə demişdir:

**"Fironun yanına gedin. Çünki o, doğru yoldan azmışdır. Onunla yumşaq**

**danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!" (Taha surəsi, 43-44)**

Allahın əmrinə itaət edən hz. Musa qardaşıyla birlikdə Fironun qarşısına çıxmış və ona Allahın əmrlərini, doğru yolu və yaxşı əməlləri müxtəlif üsulları sınaqdan keçirərək, səbirlə çatdırmışdır. Onun bu fikri mübarizəsinin sonunda isə həqiqətləri görə bilməyən və yaxşı insanlara zülm etməyə cürət edən Firon, dənizdə boğularaq ölmüş, hz. Musa və yanındakılar isə xilas olmuşdur.

Bu nümunə bəşəriyyət tarixi barədə verilən qısa məlumatdır. Tarixdə heç kim bir-biriylə münaqişə edib, yumruqlaşıb, qan axıdaraq qalib gəlməmişdir. Qalib gələnlər, daim sülh və əmin-amanlığa çağıran, fikri mübarizə apararaq insanları düşünməyə sövq edən iman sahibləridir.

Firon repressiv və zalım rəhbərliyə sahib idi və öz aləmində bununla fəxr edirdi. Yuxarıda misir fironunun, müxaliflərinin başını parçalayarkən təsvir edən bir qabartma yerləşir.

## Türk milləti Balkan yarımadasından Orta Şərqə, Adriatik dənizindən Çinə qədər olan ərazilərdə nizam-intizam yaratmış yeganə gücün şərəfli varisidir

Hazırda Balkan yarımadası, türk respublikaları və Orta Şərqdəki müsəlmanlar sülh, əmin-amanlıq, rifah və etimada möhtacdırlar. Bunun təmin edilməsi üçün ən məqbul çıxış yolu yaxın keçmişdə bu bölgələrdə əmin-amanlıq yaratmış türk ordusunun hakimiyyətinin yenidən bərpa olunmasıdır.

Dünyanın ən ağıllı, vicdanlı, intizamlı, ədalətli və etibarlı ordusu olan türk ordusunun yaradacağı nizam-intizamla bu bölgələr firavan və sülh içində yaşayacaqları bir həyata qovuşa bilərlər.

Türk ordusunun yaradacağı ciddi nizam-intizamla, bölgə ölkələrinin

bütün problemləri həll edilər. Bölgəni təhdid edən xarici təhlükə qalmaz. Dolayısilə müdafiə və hərbi xərclərə ayrılan vəsait xeyli azalar və bundan ötrü xalqın rifah səviyyəsi yüksələr. Bu sayədə elm, sənaye və mədəniyyət daha da inkişaf edər. İdxalat və ixracatda, gömrük keçid məntəqələrində, nəqliyyatda yaşanan çətinliklər aradan qalxar. Bu geniş bölgədəki mədən, kənd təsərrüfatı və digər təbii zənginliklər ən səmərəli şəkildə qiymətləndirilər.

Bölgədə yaradılacaq sülh və sabitlik isə bütün dünyaya müsbət təsir edəcək.

**Nəticə etibarilə dünya, müsəlman türk ordusunun vicdanına, ədalətinə, tolerant və nizam-intizamına möhtacdır.**

Türkiyə 21-ci əsrdə tarixi mirasından ən faydalı şəkildə istifadə edəcək və bütün dünyada sülh və əmin-amanlığın təminatçısı olacaq.

# Həll yolu quran əxlaqı

## Dünya artıq müharibələrin, ədalətsizliklərin, qarşıdurmaların sona çatmasını istəyir

Dünyada sülh və əmin-amanlığın ən böyük təminatçısı türk milləti və qəhrəman türk ordusudur.

Keçmişdə olduğu kimi bu gün də türk milləti Orta Şərqdə, Balkan yarımadasında və Mərkəzi Asiyada əhəmiyyətli tarazlıq ünsürü olacaq və bütün bu millətləri sülh və əmin-amanlıq şəraitində bir yerə toplayacaq.

Ermənilər, yəhudilər və fələstinlilər də həmin bu sülh və əmin-amanlıq şəraitində yaşaya biləcəklər.

Türk respublikaları onsuz da uzun müddətdir ki, bunun həsrətini çəkirlər. Orta Şərqdə və Balkan yarımadasında da insanlar sülhü bərqərar edəcək bir xilaskar gözləyirlər.

Hər gün qəzetlərə baxıb, bu insanlardan ötrü kədərlənmək və heyiflənmək vaxtı artıq keçibdir.

Zaman, həll etmə zamanıdır.

Türk milləti vicdanı, ağlı və yüksək əxlaqı ilə, insanların zülmdən, iğtişaşlardan, müharibələrdən xilas olmalarına vəsilə olacaq, onları qaranlıqlardan nura çıxardacaq yeganə millətdir.

## Bir tərəfdə aclıq bir tərəfdə israf

Dünyadakı qida ehtiyyatları hər insanın gündəlik tələbatını ödəyəcək səviyyədədir. Amma buna baxmayaraq, dünyada hələ də 800 milyondan çox insan aclıqdan əziyyət çəkir.

Bu gün dünyanın bəzi ölkələrində, fərdi mənfəətlər uğruna və yalnız məhsul qiymətini artırmaq məqsədiylə yük maşınları dolusu tərəvəz və meyvə israf edilir. Dünyada israf edilən bu məhsullara möhtac olan və aclıq

sərhəddində yaşayan insanların varlığı isə heç nəzərə alınmır.

Halbuki, Allah israfı haram buyurmuşdur. Buna baxmayaraq, mövcud ehtiyyatlardan ağıllı və səmərəli şəkildə istifadə edilməsini, yaxşı planlama həyata keçirilməsini və verilən nemətlərin zəkatını verməyi nəsihət etmişdir.

**...Bar verdiyi zaman onların meyvəsindən yeyin, yığım günü zəkatını verin, lakin israf etməyin. Şübhəsiz ki, Allah israf edənləri sevmir. (Ənam surəsi, 141)**

Bəşəriyyətin yaşadığı bu problemlər, imanlı, vicdanlı, şəfqətli, mərhəmətli və fədakar kimsələr tərəfindən həll ediləcək.

## İllərlə darvinist-materialist fəlsəfə ilə idarə olunan rus millətinin aqibəti bütün dünyaya ibrət olmalıdır

Bu gün Rusiyada hər cür bəla, dərd, sıxıntı və çətinlik yaşanır. Xalq ac və işsizdir, insanlar vərəm, QİÇS kimi epidemik xəstəliklərdən ölürlər, gənclər narkotik bataqlığındadırlar və əxlaqi degenerasiya da dayanmadan güclənir.

Rusiyada yaşananlar, darvinist-materialist-kommunist ideologiyaların nəhəng bir ölkə xalqını nə hala gətirməsini göstərən ibrət vəsiləsidir. On illərdir ki, mənəvi dəyərlərdən məhrum, Allahın varlığını inkar edən, insanları heyvan, həyatı isə heyvanların həyatda qalma mübarizəsi hesab dən dünyagörüşüylə yetişdirilən rus milləti, böyük bir çöküşün cəngindədir.

Putin kimi kommunizmdən faşizmə keçənlərin bu tənəzzülün qarşısını ala bilməyəcəyi aydındır.

**Çıxış yolu**: Darvinist-materialist fəlsəfənin rədd edilərək Quran əxlaqının qəbul olunmasıdır.

İnsanları Allahın yaratdığı ruh sahibi varlıqlar olaraq tanıdan, insanlar arasında fədakarlığı, mərhəməti, şəfqəti, həmrəyliyi əsas qəbul edən Quran əxlaqı, yalnız rus xalqının deyil, bütün dünyanın qurtuluşu və rifahı üçün

yeganə həlldir.

Türk millətİ ağlı və vicdanıyla tarix boyu yaxınlığındakı darvinist-kommunist təhlükədən qorunmağı bacarmışdır. Bütün dünyanı bu təhlükəyə qarşı xəbərdar edən də yenə türk millətidir.

## Aclıq və səfaləti ortadan qaldırmaq üçün həll, Quran əxlaqıdır

Ötən həftələrdə aparılan araşdırma nəticələri dünyadakı yoxsulluğun gün keçdikcə artdığını göstərmişdir. BMT-nin verdiyi hesabatlar 900 milyonu Asiyada olmaqla, ümumilikdə 1,2 milyard insanın aclıq sərhədində yaşadığını göstərir. Ancaq bunun səbəbi dünyadakı qida ehtiyyatlarının çatışmaması deyil. Çünki dünyadakı qida ehtiyyatları bütün dünya əhalisinin ehtiyaclarını asanlıqla təmin edəcək miqdardadır.

Aclıqdan əziyyət çəkən insanların təməl ehtiyaclarının ödənməsi ildə təxminən 40 milyard dollara başa gəlir. Bu isə, dünyanın ən zəngin 225 insanının ümumi mal varlığının cəmi 4%-ni təşkil edir. Dünyadakı zəngin insanlar vicdanlı, mərhəmətli, şəfqətli və ədalətli davrandıqları təqdirdə, dünyada aclıq problemi qalmayacaq. Ancaq bu gün dindən uzaq yaşayan sərvət sahibləri; **"onların mallarında məlum bir haqq vardır - yoxsullar və ehtiyac sahibləri üçün" (Məaric surəsi, 24-25)** ayəsində xəbər verilən məsuliyyətlərindən xəbərsizdirlər. Bu səbəblə də, aclıq, yoxsulluq kimi bir çox şey insanlara çıxış yolu olmayan problem göstərilir.

Halbuki çıxış yolu çox asandır. Dünyada dinin gətirdiyi gözəl əxlaqın yaşanması, bütün bu problemlərin yeganə köklü həllidir. Mərhəməti, şəfqəti, vicdanı və ədaləti ilə bütün dünyaya nizam-intizam gətirmiş türk milləti, Türk-İslam əxlaqını dünyaya hakim edərək, dünyadakı bütün pislikləri gözəlliklərə çevirməyi istəyir.

# Ziddiyyətlər sülh və tolerantlıqla aradan qaldırılar, vuruşma və boğuşma ilə deyil

Dialektik materializm, insanlar arasında daim ixtilaf yaşandığını və bundan ötrü də, daimi müharibə və döyüş mühitinin tələb olunduğunu iddia edən zalım bir fəlsəfədir. Dırnaqarası elmi təməli Darvinin təkamül nəzəriyyəsidir. Bu fəlsəfəni müdafiə edən kommunistlər, qiyamətə qədər davam etdirməyə niyyət etdikləri əzab, zülm, qan tökmə, boğuşma və qırğın mühitləri meydana gətirmişlər.

Dialektik materializm ucbatından 20-ci əsrdə kommunizmi və faşizmi mənimsəyənlər qan tökmə maşınına çevrilmiş və hər iki tərəf bir-birinin qanıyla qidalanmışdır.

Halbuki ixtilaflar, vəhşilik və qırğın törədilməsini tələb etməz. Hər ixtilaf, Quranda bildirildiyi kimi ağıl və vicdan sahibləri tərəfindən sülh, əmin-amanlıq və tolerantlıq mühitində həll edilər. Bunun üçün heyvanlar kimi boğuşmaq, bir-birinə hücum etmək, parçalamaq, qırıb dağıtmaq lazım deyil. Dialektik materializmin yalanına aldanan millətlərin övladları, bir-biriylə illərlə müharibə aparmış və zəifləmiş millətlərə çevrilmişdirlər. Beləliklə də, Allahın Quranda bildirdiyi bir həqiqət təcəlli etmişdir:

**Allaha və Onun Elçisinə itaət edin, bir-birinizlə mübahisə etməyin, yoxsa ruhdan düşər və zəifləyərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir. (Ənfal surəsi, 46)**

İnsanlara və millətlərə güc verən yeganə şey, Quran əxlaqını yaşamaqdır. Darvinizmdən güc alan dialektik materializm kimi aldatmalara əsla inanmayan türk milləti, gözəl əxlaqı ilə tarix boyu qardaşlıq və həmrəyliyin ən gözəl nümunələrini göstərmişdir.

## Yer üzündəki zülmə son qoymaq üçün...

Dünyanın hər yerində davam edən müharibələrdə günahsız insanların, kiçik uşaqların öldürülməsi vicdanınızı narahat edirsə, sırf müəyyən bir irqə mənsub olduqlarından ötrü bir çox insanın haqsız yerə qətl edilməsi həmiyyətinizə toxunursa, o zaman bunu bilməlisiniz ki, oturub tənqid eləməklə bu zülmün sonu gəlməz. Həqiqi mənada pisliklərin sona çatmasını və yer üzünə yaxşılığın hakim olmasını istəyirsinizsə, olduqca cəsur davranmalı, zülmün yerini yaxşılığın alması üçün səy göstərməlisiniz.

"Bəs nə etməliyəm?" deyirsinizsə, edəcəyiniz tək şey; Allahın əmr etdiyi gözəl əxlaqı yaşamaq və heç kimdən çəkinmədən daim gözəl əxlaqı yaşamağa davam edərək insanları doğru yola dəvət etməkdir.

"İnsanlar nə deyərlər?" deyə düşünənlər, Allah yolunda lazımi cəsarəti göstərə bilməzlər. İman edən bir insan yalnız Allahdan qorxmalı, yalnız Onun rizasını qazanmağa çalışmalıdır. Eləcə də, Allahın hüdudlarını qorumalı, Onun insanlar üçün seçib bəyəndiyi əxlaqı yaşamalı və yaşatmaq məsələsində olduqca əzmkar olmalıdır. Məhz Allah bu insanlardan razı olar, bu insanları cənnəti ilə müjdələyər.

Quranda hekayələri xəbər verilən peyğəmbərlər və əməlisalehlər, cəsarət mövzusunda möminlərə nümunədirlər. Onlar, Allah yolunda böyük səy göstərmiş, qətiyyən Allahdan başqasından qorxmamış, Onun əmr etdiyi gözəl əxlaqı səbir və şövqlə insanlara çatdırmışdırlar.

Müsəlmanların üzərinə düşən vəzifə isə, bu üstün əxlaqı nümunə götürmək və eyni şövqlə dini yaşamaq və yaşatmaqdır. Bu məsələdə qərarlılıq göstərən insanların sayı artdıqca, dünyadakı zülm də yox olmağa məhkumdur.

## Zülmə qarşı biganə yanaşmaq, zülm edənlərdən biri olmaq deməkdir

"Bir yeni il gecəsində, Əl-Xəlil şəhərində küçəyə çıxma qadağasını pozduğu bildirilən bir fələstinli, İsrail əsgərləri tərəfindən dayandırılaraq,

silahsız olduğu və cavab reaksiyası vermədiyi halda ayaqlarından vurulmuşdur. Fələstinli gəncin ayağı parçalanmış halda; "məni hansı səbəbə görə vurdunuz" deyə yerdə qıvrılarkən, İsrail əsgərləri heç bir şey olmamış kimi yollarına davam tmişdirlər". (03.01.2001 Milliyet gazetesi)

Bu, hər gün qəzetlərdə dərc olunan bir çox zülm xəbərindən yalnız biridir. İnsanlar bu kimi xəbərləri adi hadisələr hesab edər və məsələnin özlərini bir o qədər də maraqlandırmadığını düşünərlər. Halbuki zülmə qarşı biganə yanaşıb səssiz qalmaq, zülmə ortaq olmaq, ona səbəb olmaqdır.

Qəzetlərdə və televiziyalarda bu kimi xəbərlərlə qarşılaşmaq istəmirsinizsə siz də bir şey edə bilərsiniz. "Mən nə edə bilərəm ki" deyə düşünməyin. Bunu unutmayın ki, bütün bu vəhşiliyin, zülmün səbəbi dinsizlikdir. Dünyada hakim olan zülmü dayandırmaq üçün yeganə çıxış yolu isə şəfqət və mərhəməti, ədalət və tolerantlığı əmr edən Quran əxlaqının yaşanması və yaşadılmasıdır. Tarix boyu Quran əxlaqının gözəlliklərini yaşamış türk milləti, zalımlara mane olmaq məsələsində qərarlıdır.

Bunu unutmayın ki, nə vaxtsa sizə də zülm edilməyəcəyinə zəmanət verə bilməzsiniz!

## Şeytanın bir silahı: romantizm

Bu günə qədər romantizmi insanlara məxsus gözəl bir xüsusiyyət hesab etmiş, romantizmə diqqət göstərmiş, hətta insanları duyğuları əsasında hərəkət etmələri üçün təşviq etmiş ola bilərsiniz. Halbuki, romantizm əslində istər insanlar, istərsə də cəmiyyətlər üçün böyük təhdid və böyük bir bəladır. Çünki romantizm, insanın ağıllı surətdə düşünməsinə və dini yaşamasına mane olmaq istəyən şeytanın bir silahıdır.

Romantizm bəlası həyatın hər anına hakimdir: Bəzən bir faşistin qəzəblə sıxılmış yumruğu, bəzən bir kommunistin şiddət və kinlə söylədiyi bir marş, bəzən də sevdiyi qıza, sevgisinə cavab verməyəcəyi təqdirdə intihar edəcəyini söyləyən bir gəncin sözləri bu böyük bəlaya işarə edər. Ancaq romantizmin əsl təhlükəli tərəfi, insanların çox böyük hissəsinin bunu bir təhlükə deyil, gözəl bir şey hesab etmələridir.

Bəşəriyyəti bu təhlükədən qurtarmağın yeganə yolu isə, onlara

Qurandakı üstün əxlaqı və Allaha təvəkkül etməyi öyrətməkdir.

## Dünya hakimi olmaq türklərin fitrətində var

Qərb dövlətlərində gündəmə gətirilən uydurma erməni soyqırımı iddiaları, türkləri yer üzündən silmək istəyən Darvinçi zehniyyətin davamıdır və yalandan ibarətdir. Halbuki Qərb dövlətləri də, türklərin ədalətli, vicdanlı, üstün xarakterə sahib, mərhəmətli və tolerant əxlaqından çox yaxşı xəbərdardırlar.

Nəcib türk milləti 6 əsrdən artıq davam edən şanlı tarixiylə bu üstün əxlaqını bütün dünyaya sübut etmişdir. Soyqırım iddialarına verilə biləcək ən gözəl cavab məhz bu tarixdir. Çünki bu qədər uzun müddət hər dildən, dindən və irqdən olan insanı dostcasına, qardaşcasına, sülh və tolerantlıq içində dinc şəkildə idarə etməyi bacarmış yeganə millət türk millətidir. Bu həqiqəti bilavasitə əcnəbilərin ağzından da dinləmək mümkündür:

**İsveç kralı XII Karl** Türkiyəyə sığınmaq məcburiyyətində qaldığında bu təəssüratları yaşamışdır: "Şəfqətin, comərdliyin, nəcibliyin, nəzakətin əsiriyəm. Türklər məni məhz bu almaz ipə doladılar. Bu qədər şəfqətli, bu qədər nəzakətli bir millətin arasında azad bir əsir kimi yaşamaq, bir bilsən necə də gözəldir!...".

18-ci əsrdə Osmanlı torpaqlarında yaşayan **Claude Alexandre de Bonneval** bunları demişdir: "Çünki türkləri sevirəm. Onlar (sanki) cənnətdəki məkanlardan biri olan bu bənzərsiz məmləkətə yaraşan bənzərsiz insanlardır. Fitrətlərində səmaya məxsus ucalıq olub, insanların könlünü təvazökarlıqla alırlar. Bu böyük ruhlu millətin arasında vətənimi unutmaqdan qorxuram. Vətən əziz və çox əzizdir. Lakin türklər də əziz və çox əzizdir".

**Fransız şair Lamartin** bunları söyləmişdir: "Türklər bir irq və bir millət olmaq şərəfiylə yer üzünün ən şərəfli insanlarıdır. Onlar çox uca və nəcib xarakterə sahibdirlər... Nəcibllikləri alınlarında və əməllərində yazılmışdır... Bütün hərəkətləri nəcibanədir və vəcd ilə yaşayan duyğulu millətdir. Onların yurdu zadəganlar diyarıdır, qəhrəmanlar, şəhidlər ölkəsidir. Məncə bəşəriyyətə şərəf verən belə bir millətin düşməni olmaq bəşəriyyətin düşməni olmaqdan fərqsizdir. Allah məni belə bir ləkədən qorusun".

Hələ bunlar kimi bir çox hökmdar, dövlət adamı, tarixçi və siyasətçi bənzər ifadələrlə türklər haqqındakı fikirlərini dilə gətirmişdirlər. Buna görə də, türk millətinə yaraşdırılan əsassız iddialar nəticəsiz bir səyin məhsuludur. Türklər istər Balkan yarımadasındakı, istər Mərkəzi Asiyadakı, istərsə də Orta Şərqdəki dövlətlərlə güclü tarixi əlaqələrlə bir-birinə bağlıdır. Bölgədə müasir, rasionalist, milliyyətçi və güclü bir rəhbərliyə ehtiyac olduğu aydındır. Bu vəzifədə səlahiyyət sahibi olan yeganə millət isə türk millətidir. Bu yolla yaradılacaq güclü bir birliyin NATO-dan da, Aİ-dən də daha güclü olacağı aydındır. Belə bir sistemdə ermənilərin, yəhudilərin və fələstinlilərin də rahatlıq tapacağı tarixlə isbat olunmuş bir həqiqətdir.

## Harun Yəhyanın dünya dillərinə çevrilən əsərləri müsəlmanlar üçün böyük şövq mənbəyi olur

*Michael Ellison, ABŞ*

Bu məktubumu yazmağımın səbəbi, Harun Yəhyanın əsərlərinin ingiliscəyə çevrilərək, burada, yəni ABŞ-da satılmalarından duyduğum məmnuniyyəti ifadə etməkdir. Mən qəlbimdə, daim məni Yaradan və ətrafımdakı dünyaya dair fikirlərə sahib bir müsəlmanam. Xeyli gəncəm və Harun Yəhya qardaşımın yazıları həqiqətən intellektual səviyyəmin artmasına kömək oldu. Özünə Allah tərəfindən elm və qavrayış verildiyinə dair heç bir şübhəm yoxdur və Allahın izniylə bu elmi əsərləri vasitəsiylə dünyanın hər yerində insanları dinə dəvət edir.

*Asim Qureshi, London, İngiltərə*

Mükəmməl kitablardır! "təkamül yalanı", "düşünən insanlar üçün", "dünya həyatının həqiqəti" və "xalqların həlakı" kitablarınızı oxudum və xüsusilə ilk üç kitabı oxumaqdan çox zövq aldım. Mənim sevimli müəllifimsiniz. Oksford Universitetində fizika üzrə oxudum lakin kitabınızı oxuyana qədər, Darvinin təkamül nəzəriyyəsi və İslamla əlaqədar ağlımda bir sual işarəsi var idi. Bu mövzu ilə bağlı daha əvvəl heç kitab oxumamışdım ancaq əksini düşünmək üçün bu nəzəriyyənin çoxlu sübutu olduğunu hesab etmişdim. Veb saytınızda bu qədər çox sayda yayımlanmış kitabınız olduğunu görəndə çox təəccübləndim... Bu cür mükəmməl kitablar yazmağa

davam etməyiniz üçün dua edirəm və Allah sizi bundan ötrü mükafatlandırsın.

*Moussa Chahine, Sidney, Avstraliya*

Böyük İslam dinini təbliğ etmək üçün göstərdiyiniz bu xidmətlərdən ötrü Allah sizi dünya və axirət həyatında müvəffəq edib mükafatlandırsın. Harun Yəhyanın bütün əsərlərinin ən yaxın zamanda ingilis dilinə çevrilməsi üçün Allaha dua edirəm. Çünki onun kitabçalarının metodologiyası oxucuların diqqətini özünə çəkir və həmin bu kitabçalar Qərb cəmiyyətlərində yaşayan insanlar üçün olduqca faydalıdır.

*Inayat Bunglawala, İngiltərə*

Allahın möhtəşəm yaratması mövzusundakı inanılmaz kitab seriyalarınız üçün sizə təşəkkür etmək istəyirəm. Hazırda əlimdə ingilis dilinə tərcümə beş kitabınız var. Kitablarınızın keyfiyyəti və dünya ilə bağlı materialist-darvinist açıqlamalara qarşı meydan oxumadakı cəsarətiniz məndə böyük təsir oyatdı... Allah sizi cəsarətli səyinizdən ötrü mükafatlandırsın...

*Moez Massoud, Danimarka*

Bu mesajı hörmətli Harun bəyin oxuması üçün hal-hazırda Allaha dua edirəm. Əlhəmdülillah kitabınız şövqləndirmənin də xaricindədir. Bu hər şeyə qadir olan Allahın açıq-aydın rəhmətinin bir əlamətidir...

Sizi Allah üçün sevirəm.

*Sohail Yousuf, Kəraçi, Pakistan*

Pakistanın Kəraçi şəhərində elmi bir jurnalın redaktoru vəzifəsində çalışıram. Sizin İslama və elmə çox böyük xidmət göstərdiyinizi eşitdim və sizə bütün qəlbimlə hörmət edirəm. Lütfən yaxın zamanda Pakistana gələcəyinizi söyləyin, çünki sizi görmək istəyirəm. Lütfən bir də mənə, bütün kitablarınızı necə əldə edəcəyimi söyləyin. Sağlam, uzun bir ömür sürməyiniz üçün Allaha dua edirəm.

*Waheed Dabbaagh, Mançestr, İngiltərə*

Allah elminizi və hikmətinizi artırsın. Həqiqəti axtaran, yolunu azmış bir ruhun aclığını yox edən əsərləriniz məndə inanılmaz bir təsir oyatdı. Sizinlə tanış olmaq və bilavasitə sizin rəhbərliyiniz altında, çalışmaq və öyrənmək üçün sizə yoldaşlıq etmək istəyirəm. Tək məqsədim Allah rizasını qazanmaqdır. Elminiz ruhumu işıqlandırır. Sizin Allahın ən böyük

dostlarından biri olduğunuza inanıram.

*Syed Irfan Ahmed, Hamdard-e- Sehat Karachi jurnalının köməkçi redaktoru, Pakistan*

"Xalqların həlakı" kitabınızı oxudum. Kitab ümmətə dərs verir. Bu kitabın səylə ərsəyə gətirildiyi görülür. Bu səy, əlbəttə ki, bir çıxış yolu göstərir. Daha da artığını etməyiniz üçün, sizə daha çox cəsarət versin deyə hər şeyə qadir olan Allaha sizin üçün dua edirəm... Əgər icazə versəniz mən bu kitabı urdu dilinə çevirə bilərəm. Bu mənə çox böyük bir zövq verər.

*Mushfiqur Rahman, Şimali Virciniya, ABŞ*

Kitablarınızdan birini ("təkamül yalanı") oxuduğumdan bəri, sizin kim olduğunuz və İslama töhfə vermək məqsədiylə, ağıl və məntiqə əsaslanan elmi dəlillərdən istifadə etməklə, bu cür mükəmməl bir əsər hazırlamış insanın kim ola biləcəyi məni maraqlandırırdı. Daha sonra burada, yəni ABŞ tapa bildiyim bütün kitablarınızı əldə etdim. Allah gördüyünüz işlərdən ötrü sizi qorusun və Öz rizası üçün daha artığını edə biləsiniz deyə sizə səbat versin... Mən yeni müsəlman olanları və müsəlman olmayan, lakin müsəlmanlıqla maraqlanan kimsələri dəstəkləyən bir qrupun koordinatoruyam. ...Gördüyünüz böyük işlərdən ötrü sizə yenidən təşəkkür etmək istəyirik. Allah olduqca artığını etməyinizi nəsib etsin. Buradakı yoldaşlarım adından sizə salamlarımızı və Ramazan təbriklərimizi çatdırıram.

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

## 21-ci əsr Allaha yönəlişin müjdəsini verir

**İnsanların dəstə-dəstə Allahın dininə girdiklərini gördükdə, həmd ilə Rəbbini təriflə və Ondan bağışlanmağını dilə. Həqiqətən, O, tövbələri çox qəbul edəndir!. (Nəsr surəsi, 2-3)**

19-cu əsrdə Çarlz Darvinin təkamül nəzəriyyəsiylə yanaşı, 20-ci əsrdə

materialist və dinsiz ideologiyalar insanlar arasında sürətlə yayıldı. Bunun nəticəsində zəifləri tapdalayan, bütün mənəvi dəyərləri rədd edən, dindən uzaq nəsillər meydana gəldi. Məhz buna görə də, 20-ci əsr bu nəsillərdən dəstək alan faşizm və kommunizm kimi ideologiyaların zülm, kütləvi qırğınlar və irqçi hücumlar törətmələrinə səhnə oldu, bəlaların və çətinliklərin əsri kimi yad olundu.

21-ci əsrdə materialist fəlsəfənin, hansı adla xatırlanmasından asılı olmayaraq, bəşəriyyətə bəladan başqa bir şey gətirmədiyi aydın oldu və insanlar yaşadıqlarından ibrət götürərək dinə sarıldılar. 20-ci əsrin son dövrlərində başlayan bu dinə və mənəviyyata qayıdış prosesi, sürətlə bütün dünyanı əhatə edir. Allaha inanan, dua edən, yaradılış dəlillərini görən, ailə, dövlət, millət, əxlaq kimi anlayışlara layiq olduqları həqiqi dəyəri verən cəmiyyətlər yaranmağa başladı.

Televiziyalarda, qəzetlərdə gördüyünüz siyasi liderlər, elm insanları, idmançılar, yazıçılar, incəsənət xadimləri Allaha olan inanclarını səmimi ifadələrlə dilə gətirirlər.

21-ci əsr Allahın izniylə imanın, sülhün, əmin-amanlığın hakim olacağı bir dövr olacaq. Bu Allahın bütün insanlara olan vədi və müjdəsidir.

## Koalanın üstün tibb məlumatı

Avstraliyada evkalipt ağacının 600-dən çox növü var və bütün ağacların yarpaqlarındakı kimyəvi maddələr bir-birindən fərqlidir. Koalalar, üstün bir seçicilik nümunəsi göstərərək bu 600 ağacdan yalnız 35-ni seçərlər və həyatlarını bu ağacların yarpaqlarını yeməklə davam etdirərlər.

Bir evkalipt ağacında iki fərqli növ yarpaq mövcuddur və koala bədən temperaturuna görə bu iki növ yarpaqdan birini yeyər. Bədən temperaturu aşağıdırsa, yəni üşüyürsə tərkibində "fellandren" yağı olan yarpağı yeyərək bədən temperaturunu yüksəldər. Bədən temperaturu yüksəkdirsə, bu zaman da tərkibində "cineol" olan yarpaqları çeynəyərək bədənini sərinlədər. Bundan savayı koala, evkalipt yarpaqlarında olan başqa yağlardan da istifadə edərək qan təzyiqini aşağı sala bilər və əzələlərini dincəldər.

Görəsən koala bədən temperaturunu nizamlayarkən hansı növ

yarpaqlardan yeməli olduğunu haradan bilir? Üstəlik, ehtiyac duyduğu yarpağın, 600 növ evkalipt ağacından hansında olduğunu necə müəyyənləşdirir?

Əlbəttə ki, koalanın öz ağlı və iradəsiylə belə bir seçim etməsi qeyri-mümkündür. Ona bu seçimi etməyi öyrədən; hər şeyə gücü çatan, bütün canlıları istiqamətləndirərək, onlara nələr etməli olduqlarını ilham edən Allahdır.

## Bütün orqanları qüsursuz şəkildə əmələ gətirən hüceyrələr yaradılış möcüzəsidir

İnsan bədəninin bütün orqanları və bütün hissələri çox mütənasib bir formaya malikdir. Bu orqanlara forma verən, sanki bir heykəltəraş kimi məharətlə çalışaraq onları müəyyən formaya salanlar isə, gözlə görülməyəcək qədər kiçik hüceyrələrdir.

Hüceyrələr, yaratma əməliyyatına hələ ana bətnində olarkən başlayarlar. Əvvəlcə bir hüceyrə yığını meydana gələr. Sonra bu hüceyrə yığını öz daxilində qruplara ayrılmağa başlayar. Daha sonra eyni orqanı meydana gətirəcək hüceyrələr bir yerə toplanaraq bir-birinə birləşərlər. Bu intensiv əməliyyatdan sonra, bəzi hüceyrə qrupları sümükləri, bəziləri ağciyəri, bəziləri dərini, bəziləri qan damarlarını, bəziləri də kəlləni meydana gətirər.

Bu vaxt hamısı ən uyğun yerdə və ən uyğun zamanda fəaliyyətə başlayar. Məsələn, kəlləni meydana gətirən hüceyrələr tam olmaları lazım olan yerdə yerləşərlər. Onurğa beynini meydana gətirənlər də kəllənin mövqeyinə görə olmaları lazım olan ən uyğun yeri seçdikdən sonra yaratma əməliyyatına başlayarlar. Ağciyəri əmələ gətirəcək hüceyrələr isə daha içərilərə doğru hərəkət edər və harada dayanıb işlərinə başlamalı olduqlarını çox yaxşı bilərlər. Heç vaxt beynin yerləşməsi lazım olan yerdə ağciyərləri əmələ gətirməzlər və ya döş qəfəsini və ağciyərləri bir-birləriylə mütənasib ölçüdə əmələ gətirərlər. Hətta ağciyərin döş qəfəsində sıxışıb qalmaması üçün döş qəfəsini genişlənəcək şəkildə əmələ gətirərlər. Eləcə də, kəllənin ölçülərini elə yaxşı nizamlayarlar ki, kəllə heç vaxt beynə təzyiq göstərməz.

Hüceyrələr, zamanlama məsələsində də çox diqqətcil və uzaqgörən

olarlar. Məsələn, qan damarları əmələ gəlmədən qanı yaratmazlar. Kəlləni və kəllədəki göz çuxurunu əmələ gətirmədən gözləri yaratmazlar.

Üstəlik, orqanlara, milyonlarla ildir ki, milyardlarla insanda heç bir dəyişiklik etmədən eyni cür forma verərlər. Məsələn, ağciyərin forması daim olması lazım olduğu kimidir. Beynin qırışlarını, formasını, kəllənin içinə yerləşəcək böyüklükdə olmasını, qövslərini ən mükəmməl və diqqətli şəkildə, sanki məharətli bir heykəltəraşın əlindən çıxmış kimi əmələ gətirərlər. Bütün toxumaları, tam tələb olunan şəkildə, artıq hissə saxlamadan və ya hər hansı nöqsana yol vermədən əmələ gətirərlər.

Şüursuz, ağılsız, dərrakəsiz, əli, beyni, gözü olmayan hüceyrələrin öz iradələriylə və təsadüflər nəticəsində belə qüsursuz bir əsər meydana gətirmələri qətiyyən qeyri-mümkündür. Darvinistlərin heç bir açıqlama gətirə bilmədikləri bu həqiqət, səmimi düşünən hər insan üçün böyük bir yaradılış möcüzəsidir.

Şəkillərdə sırayla damarların mərhələli şəkildə necə əmələ gəldiyi göstərilir.

## Hüceyrələrinizin sizi normal bir insan halına gətirmələrini təmin edən Allahdır

Əllərinizin, gözlərinizin, burnunuzun düzgün bir forma almalarını təmin edən hüceyrələrinizdir. Siz hələ ana bətinində olarkən fəaliyyətə başlayan hüceyrələriniz, bir estetik mütəxəssisindən daha yaxşı çalışaraq sizi müəyyən formaya salarlar.

Hüceyrələriniz heç bir artıq parça saxlamadan, artıq hissə yaratmadan bütün orqanlarınızı sanki əllərində bir qəlib varmış kimi mükəmməl şəkildə əmələ gətirərlər. Məsələn, neçə barmağınızın olacağını, uzunluqlarının və formalarının necə olacağını tam lazım olduğu kimi hesablayarlar. Bu, çox təəccüblü və həyəcan verici bir prosesdir.

Hüceyrələriniz, orqanlarınızı və bədəninizin hər kvadrat millimetrini əmələ gətirərkən müvəffəqiyyət əldə edərlər. Məsələn, yalnız gözə məxsus 40

fərqli hissə var. Gözün öz funksiyalarını yerinə yetirə bilməsi üçün, bütün hissələri mütənasib şəkildə böyüməli, aralarında möhkəm əlaqə olmalı və hamısının öz yerində yerləşməlidir. Əks halda göz görə bilməz.

Rüşeym 4 həftəlik olanda başının hər iki tərəfində bir oyuq meydana gələr. 6-cı həftədə bu oyuğu təşkil edən hüceyrələr müəkəmməl bir plan əsasında hərəkət etməyə başlayarlar. Bəzi hüceyrələr buynuz qişa, bəzi hüceyrələr göz bəbəyini, bəzi hüceyrələr də göz büllurunu əmələ gətirərlər. Hər hüceyrə əmələ gətirdiyi hissə tamamlandıqda öz fəaliyyətini dayandırar. Hər biri ayrı bir hissəni meydana gətirər, sonra mükəmməl şəkildə birləşərlər. Göz bəbəyi yerində başqa bir təbəqə əmələ gəlməz, hər şey yerli yerindədir. Bu əməliyyatlar aylarla davam edər və nəticədə olduqca estetik və funksional gözlər əmələ gələr.

Rüşeymi meydana gətirən hər bir hüceyrə bədənin quruluş planından da xəbərdardır. Sanki müqavilə bağlamış kimi, bir-birlərindən fərqli xüsusiyyətlərə sahib strukturlar əmələ gətirərlər.

Bəs hüceyrələr hara gedəcəklərini və nə əmələ gətirəcəklərini haradan bilirlər? Birlikdə hərəkət etdikləri digər hüceyrələrlə necə bu qədər həmahəng ola bilirlər?

Hüceyrələrə şifrələnmiş bu mükəmməl planı yaradan Allahdır. Hüceyrələrə nələr etməli olduqlarını ilham edərək bu planın mükəmməl şəkildə icra edilməsini təmin edən də Allahdır. Bir ayədə belə buyurulur:

**De: “Allahdan başqa yalvardığınız şəriklər haqda düşündünüzmü? Bir mənə göstərin görüm, onlar yer üzündə nəyi yaradıblar? Yoxsa onların göylərin yaradılmasında şərikliyi var?” Yaxud onlara bir kitab vermişik, onlar da ondakı dəlilə istinad edirlər?... (Fatir surəsi, 40)**

## Barmaqlarınızı əmələ gətirən hüceyrələr, Allahın əmrinə itaət edərlər

Ana bətnindəki rüşeymin inkişafı möcüzələrlə doludur. Bu inkişafı anbaan izləmə imkanımız olsaydı, eyni anda həm inşaat mühəndisi, həm də

inşaat fəhləsi vəzifəsini icra edən hüceyrələrin ağıllı, şüurlu və olduqca mütəşəkkil hərəkətlərini görərək təəccüblənərdik.

Bədənimizin bütün hissələrini tək-tək əmələ gətirən hüceyrələr, altıncı həftədən sonra əllərimizi də əmələ gətirməyə başlayarlar. Əllər ilk yarandıqları vaxt barmaqlara sahib olmazlar, onlar sanki tək hissədən ibarət bir yelpiyə bənzəyərlər. Ancaq, bu mərhələdə möcüzəvi bir hadisə baş verər və əli meydana gətirən hüceyrələrdən bəziləri tək-tək özlərini öldürməyə başlayarlar. Digər hüceyrələr həmin bu ölü hüceyrələri yeyərlər və bu nahiyələrdə boşluqlar əmələ gələr. Bu boşluqlar barmaqlar arası boşluqlardır. Beləcə barmaqlar formalaşmağa başlayarlar.

Diqqət yetirin. Barmaqları əmələ gətirəcək hüceyrələr heç vaxt özlərini öldürməzlər. Bunu edənlər barmaq arası boşluqları əmələ gətirmək üçün, yer açması lazım olan hüceyrələrdir və bu qərarı eyni anda və tam vaxtında verərlər. Şüur, ağıl və bilikdən məhrum bu canlılara özlərini öldürmə əmrini verən, barmaqları mükəmməl şəkildə dizayn edərək, insan üçün ən uyğun şəkildə əmələ gətirən kimdir? Əlbəttə ki, hər canlını mükəmməl şəkildə yaradan, yerin, göyün və ikisi arasındakıların Yaradıcısı olan Rəbbimizdir.

## Bədəninizdəki sümüklərin sanki bir incəsənət əsəri kimi, incə-incə yonulduğunu heç düşünmüşdünüzmü?

Bədəninizdəki 306 sümüyün böyük bir hissəsi forma etibarilə bir-birindən fərqlidir. Onlar hələ ana bətnində olarkən, ilk yarandıqları andan etibarən müxtəlifləşməyə başlayarlar. Tək bir yumurta hüceyrəsinin mayalanmasından sonra bölünməyə başlayan ziqot, olduqca böyük sürətlə çoxalar. Bir müddət sonra çoxalan bu hüceyrələr, sanki bədənin hansı hissəsinin hüceyrələri olmalarının lazım olduğu özlərinə öyrədilmiş kimi, müxtəlifləşməyə başlayarlar.

Bəzi hüceyrələr sümükləri, bəziləri qaraciyəri, bəziləri böyrəkləri, bəziləri də gözləri əmələ gətirər. Ancaq qaraciyəri, sümüyü və ya gözləri əmələ gətirəcək hüceyrələrin yalnız bir yerə toplanması kifayət etmir. Bunların öz aralarında da müxtəlifləşməlidirlər. Məsələn, sümük hüceyrələri,

əmələ gətirəcəkləri sümüyün bədənin hansı nahiyəsində yerləşəcəyini bilərək ona uyğun formaya düşməlidirlər.

Ayaqlardakı sümük hüceyrələri sanki professional bir heykəltəraş kimi işləyərək qövsvari, barmaqlar üçün girinti və çıxıntıları olan, bilək üçün oynaq yeri hazır olan mükəmməl ayaq sümükləri əmələ gətirərlər. Kəlləni əmələ gətirən sümük hüceyrələri də beynin ölçülərini bilirmiş kimi, tam ona uyğun, girintisi və çıxıntısı olmayan, beyni mükəmməl şəkildə əhatə edən, yumru bir sümük təbəqəsi əmələ gətirərlər. Nə onu daha kiçik ölçüdə əmələ gətirib beynin onun içində sıxışıb qalmasına səbəb olar, nə də daha böyük ölçüdə əmələ gətirib insanın başını daşımasını çətinləşdirərlər.

Özlərinə hansı formanı verməli olduqlarını, nə hüceyrəsi olmalı olduqlarını çox yaxşı bilərək, sümüklərə mükəmməl bir forma verən hüceyrələrin bu şüuru haradan gəlir?

Onlara bu incə planı ilham edən Allahdır. Bir ayədə Allahın bənzərsiz elminə belə diqqət çəkilir:

**"...Sümüklərə bax, gör Biz onları necə bir-birinə birləşdirir, sonra da onların üstünü ətlə örtürük..." (Bəqərə surəsi, 259)**

## Sinir hüceyrələrini qoruyan mikroskopik qılaflar

İnsanın həm beyni, həm də onurğa beynindəki sinir lifləri qoruyucu bir maddəyə örtülmüşdür. "Miyelin" adlandırılan bu maddə sinir liflərini bir qılaf kimi qoruyar. Miyelin, elektrik kabelinin xarici səthini meydana gətirən plastik maddəyə bənzədilə bilər. Necə ki, bu maddə, elektrik ötürülüşündə yaranacaq qısa qapanmaların qarşısını alırsa, miyelin də sinir hüceyrələrində gedən elektrik ötürülüşündə izolyasiya vəzifəsi yerinə yetirir.

Miyelin qılaf, həmçinin sinir hüceyrələrinin çıxıntıları olan aksonların xəbərdarlıqları ötürmə sürətini də qat-qat artırar. Sinir liflərindəki xəbərdarlığın ötürülmə sürəti, miyelinsiz liflərdə 0,25 m/san. olduğu halda, çox qalın miyelin təbəqəsiylə örtülmüş liflərdə bu 100 m/san. qədərdir. Bu

sürət, 1 saniyə ərzində xəbərdarlıqların bir futbol meydançasının uzunluğu qədər məsafəni gedib gəlməsinə bərabər bir sürətdir.

Mikroskopik miyelin qılaflarının sürət artırma xüsusiyyəti bizim üçün mühüm əhəmiyyət daşıyır. Bu qılaf zədələndiyi təqdirdə beyindən çıxan və ya beynə daxil olan elektrik cərəyanlarının sürəti yavaşlayar. Bunun nəticəsində də elektrik cərəyanları əlaqədar yerlərə lazımi vaxtda çata bilməz və ya yanlış yerlərə doğru hərəkət edərlər. Bu isə bədənin müxtəlif yerlərində hissiyatın yox olmasına, hətta sonrakı mərhələlərdə yeriyə bilməmə kimi olduqca ciddi problemlərin yaranmasına səbəb olar.

Yağa bənzəyən bir maddənin insanın sinir sistemi üçün bu qədər həyati əhəmiyyət daşıması, əlbəttə ki, təsadüflərlə açıqlanması mümkün olmayan bir vəziyyətdir. Təkcə miyelin qılafının olmaması belə, insanın bədəninin funksiyalarını yerinə yetirə bilməməsi üçün yetərli səbəbdir. Miyelinin sahib olduğu xüsusiyyətlər, yerləşdiyi yer və sinir hüceyrələri üzərindəki təsiri kimi incəliklərin hamısı xüsusi olaraq dizayn olunmuşdur. Miyelindəki bu qüsursuz dizayn Allaha aiddir.

## Hər yerdə Allahın varlığına aid dəlillər var

Faqositoz, bakteriyaların, mikrobların, göbələklərin, ölü hüceyrələrin, bədəndə istifadə yararsız toxumaların hüceyrələr tərəfindən həzm edilməsi deməkdir. Bunu həyata keçirən faqosit hüceyrələri, həzm edəcəkləri cisimləri seçməkdə olduqca diqqətli davranmalıdırlar. Əks halda bədənin normal strukturları və hüceyrələri də həzm edilərək məhv edilər. Sağlam hüceyrələrin faqosit hüceyrələr tərəfindən yox edilməsi demək, bədəndə tam mənasıyla bir qarışıqlıq çıxması deməkdir. Lakin heç vaxt belə bir qarışıqlıq yaşanmaz. Çünki bunun üçün lazımi tədbir görülmüşdür.

Faqositozun baş verib verməməsi xüsusilə üç seçmə əməliyyatla müəyyənləşdirilər:

-Birincisi bədəndəki strukturların bir çoxu, ölü toxumalar və yad cisimciklərin əksinə faqositoza davamlı olan hamar səthlərə malikdir.

-İkincisi bədən hüceyrələrinin əksəriyyəti faqositləri itələyən qoruyucu zülal qılaflarına malikdir. Digər tərəfdən ölü toxumaların və yad cisimciklərin

əksəriyyətində adətən qoruyucu qılaf olmaz, bu da onları faqositoz üçün əlverişli hala gətirər.

-Üçüncü olaraqsa bədəndə yad cisimciklərinin varlığından xəbər tutan xüsusi bir sistem var.

Əgər bütün bunlar olmasaydı bədənimizdə öz-özünü yeyən bir mexanizm fəaliyyət halında olacaq və bu da gec-tez canlının yox olmasına səbəb olacaqdı.

Bu cür həssas bir nizamın olduğu yerdə kor təsadüfdən bəhs etmək, təkamül kimi çürük bir iddianı irəli sürmək, əlbəttə ki, məntiqsizdir.

## Zülalların heyrətamiz həzmetmə prosesi yaradılış dəlillərindən biridir

Qidalar vasitəsiylə qəbul etdiyimiz zülalların həzm prosesi mədədə başlayar. Mədədə zülalları gözləyən bir ferment var. Pepsin adlı bu ferment ətdə olan kollagen lifləri parçalayar və beləliklə də, hüceyrəvi zülalları həzm edilə biləcək hala gətirər.

Zülalların böyük ölçüdə həzm olunma prosesi isə, mədəaltı vəzdən ifraz olunan fermentlər sayəsində reallaşar. Mədəaltı vəzdən ifraz olunan tripsin və bəzi digər fermentlər parçalanmış zülalları daha da kiçik hissələrə ayırarlar.

Nəhayət zülalların həzm olunma prosesi artıq nazik bağırsaqlarda getməyə başlayar. Bu hüceyrələrin xarici səthindəki fermentlər parçalanmış zülalları daha kiçik hissələrə parçalayar. Parçalanan kiçik amin turşusu qrupları isə hüceyrə içinə alınaraq burada olan digər fermentlər sayəsində tək-tək parçalanar və bu parçalanma nəticəsində ortaya çıxan amin turşuları bu hüceyrələrdən qan dövranına daxil edilər.

Bu izah edilənlərin işarə etdiyi bir həqiqət var. Bədənimizə hələ zülallar daxil olmadan, zülal adlı bəzi molekulların mövcud olduğu və bunların qidalar yoluyla bədənimizə daxil olacağı əvvəldən bilinir. Hətta zülalların molekulyar quruluşu ən incə nöqtəsinə qədər müəyyənləşdirilmişdir, bunları parçalayacaq fermentlər mükəmməl strukturlarıyla dizayn olunmuşdur,

əlaqədar hüceyrələr həzm sistemimizi meydana gətirən orqanlarda uyğun yerlərə yerləşdirilmişdir, bu hüceyrələrin vəzifələri genetik şifrələrlə kodlaşdırılmışdır.

Bütün bu incəliklər ilk insandan bəri tam və mükəmməl şəkildə mövcuddur. Bu gün müasir elm sayəsində ortaya çıxan bütün incəliklər mükəmməl bir yaradılışın dəlilləridir. Şübhəsiz ki, gözləri olub da görməyən, qulaqları olub da eşitməyən, ürəkləri olub da hiss etməyənlər, bu yaradılış dəlilləri qarşısında yenə israrla cahilliklərinə və inkarlarına davam edirlər.

## 1 qram DNT molekulu=1 trilyon CD dolusu məlumat

Gələcəyin kompyuterlərini dizayn edən mühəndislər insan genomunu "əlçatmaz" bir dizayn kimi xarakterizə edirlər. Bunun səbəbini anlamaq üçün kiçik bir müqayisə aparaq.

İnsan bədənindəki təxminən 100 trilyon hüceyrənin hər birinin nüvəsində yerləşən DNT molekulu, həmin insana aid bütün xüsusiyyətləri özündə saxlayan məlumatı toplamışdır. DNT ağlasığmaz dərəcədə üstün bir dizayna və məlumat toplama tutumuna malikdir. Belə ki, 1 qram DNT molekulu, özündə 1 trilyon CD dolusu məlumat saxlayır (discover, XXI cild, no. 4, aprel 2000). Tək bir CD-yə yüzlərlə kitab dolusu məlumatın yerləşdiyi düşünülsə 1 trilyon CD dolusu məlumatı özündə saxlayan DNT-nin tutumu daha yaxşı aydın ola bilər.

DNT-dəki məlumat toplama sistemi, kompyuter mühəndislərinin hələ təqlid etməyi belə xəyal edə bilmədikləri qədər mükəmməl bir quruluşa malikdir.

DNT molekulu, istisnasız hər insanda və hər heyvanda ilk yaradıldıqları andan etibarən mövcuddur. Bu xatırlandığında, nə qədər üstün bir yaradılışla yaradıldığımız açıq şəkildə ortaya çıxır.

Belə kiçik bir yerdə, müəyyən bir kodlaşdırma sistemiylə düzülmüş atomlarda, canlıların bədən quruluşuna dair bütün məlumatların saxlanmış olması, hər şeyin Yaradıcısı olan Allahın bənzərsiz gücünü və sonsuz ağlını

göstərir.

## Böyrək hüceyrələrinin sahib olduğu məlumat və şüurun qaynağı nədir?

Natrium, bədən toxumalarında və qanda mövcuddur. Böyrək hüceyrələrinin bəziləri qandakı natrium miqdarını aşkarlayacaq xüsusiyyətlərə sahibdirlər. Əgər natrium miqdarı azalsa, bu hüceyrələr vəziyyəti dərhal böyrəklərdə yerləşən natrium soran hüceyrələrə xəbər verərlər. Bədəndən kənarlaşdırılacaq mayenin içinə, böyrəklərdəki süzülmə əsnasında bir miqdar natrium qarışmışdır. Həmin bu hüceyrələr bədəndən kənarlaşdırılacaq mayedəki bu natrium molekullarını tutar və onları bədənə geri qaytararlar. Böyrəklərdəki natrium miqdarını aşkarlayan hüceyrələrin üzərinə bu əməliyyat üçün xüsusi nasoslar yerləşdirilmişdir. Təcili vəziyyətlərdə bu nasoslar fəaliyyətə keçər və natrium molekulları tutularaq bədənə geri qaytarılar.

Əgər böyrəklərdəki bu geriyə sorulma mexanizmi olmasaydı, həddindən artıq qida və maye itkisindən ötrü ölüm qaçınılmaz olardı.

Burada verilən məlumat üzərində düşünülməli olan əhəmiyyətli məqamlar var. Hər şeydən əvvəl, bədənimizdə yaşamağımız üçün lazım olan maddələrin çatışmazlığının və ya artıqlığının aşkarlanması üçün xüsusi olaraq dizayn olunmuş hüceyrələr var. Bu hüceyrələrin təsadüfən əmələ gəlmədikləri, xüsusi olaraq yaradılaraq böyrəklərə yerləşdirildikləri olduqca aydındır. Həmçinin bu hüceyrələr, bədəndəki maddələri bir-birindən fərqləndirmə qabiliyyətinə də sahibdirlər. Məsələn, natriumu, kaliumdan, amin turşularından, kalsiumdan, zülallardan, sidik cövhərindən fərqləndirə və seçib qana geri qaytara bilirlər. Bu maddələri ayrı-ayrılıqda bir insanın önünə qoysanız, bunları bir-birindən fərqləndirə bilməyəcək. Kiçik bir hüceyrəyə, əksər insanın belə sahib olmadığı, bu cür böyük biliyi və şüuru verən, əlbəttə ki, təsadüflər deyil.

Verilən nümunələrdən də görüldüyü kimi böyrəklərdəki bu sistemin təsadüfən əmələ gəldiyini iddia etmək, darvinistlərin məntiqsizliyini açıq şəkildə göstərir. Bu sistem, Allahın sonsuz elminin, ağlının və gücünün

göstəricilərindən yalnız biridir.

Böyrəklərdə, gələn qanın tərkibindəki natrium kimi maddələrin süzüldüyü yer

**Göylərdə və yerdə olanların hamısı Ona məxsusdur. Hamısı Ona könüllü surətdə təzim edir. O yaradılışı başladır, sonra bunu təkrarlayır, sonra siz Ona geri qayıdırsınız. Bu da Onun üçün çox asandır. Göylərdə və yerdə olan ən uca sifətlər Ona məxsusdur. O, güclü və üstün, hökm və hikmıt sahibdir. (Rum surəsi, 26-27)**

## İnsan bədənindəki təhlükəsizlik işçiləri: Mikroorqanizmlər

Bütün insanların bağırsaqlarında 400 fərqli bakteriya növü var. Xoşxassəli olan bu bakteriyalara bədənə fayda vermələri üçün vəzifələr verilmişdir. Bədənimiz üçün qidaları həzm etməkdən, vitaminləri yararlı hala gətirməyə, hətta yeri gəldikdə vitamin sintez etməyə qədər bir çox əhəmiyyətli məsuliyyətləri var.

Tədqiqatçılar, bağırsaqlarımızdakı bakteriyaların, xəstəlik törədən bakteriyalara qarşı bizi qoruduqlarını kəşf etmişdirlər.

Ancaq bu maraqlı xüsusiyyət təkcə bakteriyalara aid deyil. Bədənimizdə bakteriyalarla yanaşı yenə bizə heç bir zərər verməyən mikroorqanizmlər də yaşayır. Bu mikroorqanizmlər də müdafiə sistemimizin kənardan daxil olan mikroblara qarşı qorunmasına yardım edir.

Bu yardımın olduqca təəccüblü bir səbəbi var.

Hər hansı bir mikrobun bədənə daxil olması, bu canlıların yaşadıqları yerlərin tutulması deməkdir. Məhz buna görə də, mikroorqanizmlər və bakteriyalar bədənimizə kənardan daxil olan düşmənlərə qarşı müdafiə sistemimizlə birlikdə böyük bir döyüş aparırlar. Bunlar sanki bədənin pulla

işləyən təhlükəsizlik işçiləri kimi hərəkət edərək yerləşdikləri nahiyəni qoruyarlar.

Qətiyyən şüura və ya ağla sahib olmayan orqanizmlərin belə bir məsuliyyət boynuna götürmüş olmaları, əlbəttə ki, düşündürücüdür. Bu canlılar özlərindən tam bir fərqli quruluşdakı başqa bir canlıya, yəni insana necə fayda verəcəklərini bilirlər. Üstəlik, bədənimizin düşmənlərini və dostlarını bir-birindən fərqləndirməyi də bacarırlar.

Şüursuz hüceyrələrin bütün bunları öz ağıllarıyla bacarmaları qeyri-mümkündür. Bütün bunlar çox açıq şəkildə yaradılışı sübut edir. Allah insan bədənini buna bənzər vəsilələrlə qoruyur və bizə bənzərsiz yaratma sənətini göstərir.

## Elektrik siqnallarıyla açılıb-bağlanan hüceyrə qapıları

Sinir hüceyrələri digər hüceyrələrdən fərqli olaraq elektrik siqnallarıyla işləyən hüceyrələrdir. Bu hüceyrələrin qılaflarında elektrik siqnalları ilə açılıb-bağlanan qapılar var. Zülal quruluşuna malik bu qapılar yalnız kalium, kalsium, natrium kimi müəyyən ionların hüceyrə daxilinə girməsinə icazə verər və bu işdə çox diqqətcil və seçici davranarlar. Əgər bu seçicilik olmasaydı, hüceyrəyə zərər verə biləcək maddələr, ion və ya molekullar bu qapılardan keçərək hüceyrənin ölümünə səbəb ola bilərdilər.

Hüceyrə qapılarındakı bu seçicilik, qapını meydana gətirən zülaldakı bəzi xüsusi çıxıntıların yalnız müəyyən ionlarla əməkdaşlıq etməsindən qaynaqlanır. Beləliklə də, bəzi ionlar bu qapıdan daha asanlıqla keçərkən, digərləri üçün bu əməliyyat demək olar ki, qeyri-mümkün hala gəlir. Qapı zülallarının çox xüsusi quruluşları barədə məlumat DNT-də genetik şifrə halında mövcuddur və bu ilk insandan bəri bütün insanlarda heç dəyişmədən eyni mükəmməllikdə qalmışdır.

- Bəs sinir hüceyrələrindəki qapılarda bu inanılmaz seçmə qabiliyyəti necə və niyə meydana gəlmişdir?
- Bu qapılar hüceyrə üçün hansı ionların faydalı olacağını haradan bilirlər?

- Üstəlik qapılardakı bu elektrik siqnallarıyla işləyən mexanizm necə və kim tərəfindən yaradılmışdır?

Hüceyrəni yaradan ağıl, sinir hüceyrəsi membranına bu mükəmməl nəzarət mexanizmini yerləşdirərək hüceyrənin yaşaya bilməsi üçün ən əlverişli şəraiti də yaratmışdır. Hüceyrə membranındakı bu mükəmməl dizayn, əlbəttə ki, təkamülçülərin iddia etdiyi kimi kor təsadüflərin deyil, sonsuz ağıl sahibi, aləmlərin Rəbbi olan Allahın əsəridir.

Şəkildə, bir sinir hüceyrəsinin elektrik siqnalları ilə lazım olduğu zaman açılıb-bağlanan qapıları görülür.

## Elm, yaradılış dəlillərini kəşf etməyə davam edərkən, təsadüf nəzəriyyəsini yenidən yerlə-yeksan etdi

İnsan Genomu layihəsi, canlıların nə qədər mükəmməl bir dizayna və təsadüfən əmələ gələ bilməyəcək qədər mürəkkəb bir quruluşa sahib olduqlarını yenidən göstərdi. Bu layihə çərçivəsində insan DNT-sindəki böyük məlumat oxunmağa çalışılır.

İnsan bədənində 100 trilyon hüceyrə var və hər hüceyrənin nüvəsində insana aid məlumatların saxlandığı DNT molekulu yerləşir. Yəni DNT, canlıya aid bir məlumat bankıdır. Bu bank isə heyrət verici böyüklükdə bir məlumat tutumuna malikdir. Bu tutumu "500 səhifəlik 900 cildlik ensiklopediyanı dolduracaq qədər möhtəşəm bir məlumat" olaraq ifadə edə bilərik. Bu məlumatın inanılmaz paketləmə sistemiylə millimetrin yüz mində bir hissəsi qədər bir yerə yerləşdirilmiş olması daha da möhtəşəmdir. Üstəlik, bu fövqəladə məlumat yaşamış və yaşamaqda olan milyardlarla insanın trilyonlarla hüceyrəsinin hər birində mövcuddur.

Onlarla ildir ki, dünya səviyyəsində ağlı, şüuru və biliyi ilə tanınmış yüzlərlə elm adamı, ən son texnologiya ilə təchiz edilmiş laboratoriyalarda bu məlumatı oxuya bilmək üçün gecə-gündüz çalışdılar və buna baxmayaraq, hələ ancaq bu məlumatı meydana gətirən hərflərin bir qismini yan-yana

düzməyi bacardılar.

Amma bu inanılmaz vəziyyətə baxmayaraq, təkamülçülər hələ də DNT-də mövcud olan bu böyük məlumatın, daşın, torpağın, qazların təsadüfən bir yerə gələrək, meydana gəldiyini iddia edirlər. Şübhəsiz ki, təkamülçülərin bu iddialarının, 900 cildlik ensiklopediyadakı məlumatların, yerə atılan milyardlarla hərfin təsadüflər nəticəsində yan-yana düzülmələri ilə meydana gəldiyini iddia etməkdən bir fərqi yoxdur.

DNT-dəki bütün məlumatların Allahın sonsuz elmi və qüdrəti ilə yaradıldığı və şifrələnərək hüceyrənin nüvəsinə yerləşdirildiyi isə açıq bir həqiqətdir. Təkamülçülər, insan genləriylə əlaqədar yeni çalışmaların göstərdiyi möcüzəvi quruluşu görməzlikdən gəlmək üçün nə qədər çalışsalar da, artıq bu məğlubiyyət qaçınılmazdır.

## Suyu zəhərli bir maddəyə çevirən atom

Həyatımızda böyük əhəmiyyəti kəsb edən su, iki hidrogen və bir oksigen atomunun birləşməsindən əmələ gəlir. Amma bu iki atomun su molekulunu əmələ gətirəcəkləri şəkildə birləşmələrini təmin etmək olduqca çətindir. Suyu əmələ gətirən şərtlər cüzi də olsa dəyişdikdə ortaya çox əhəmiyyətli nəticələr çıxır.

Məsələn, suyu meydana gətirən atomlar müəyyən temperatur və enerji səviyyələrində digər bir oksigen atomuyla daha birləşərlər. Bu birləşmə nəticəsində $H_2O$ formulu əvəzinə $H_2O_2$ formulu ortaya çıxar. Bu kiçik bir dəyişiklik kimi görünər, əslində isə suyun xüsusiyyətlərini tamamilə dəyişdirər və ortaya hidrogen peroksit adlı zəhərli maddənin çıxmasına səbəb olar.

Görüldüyü kimi tək bir atom, canlılar üçün həyati əhəmiyyəti olan suyu, canlılar üçün olduqca zərərli, ölümcül təsirləri olan bir zəhərə çevirə bilir.

Tək bir atomun, bir molekulun xüsusiyyətlərini tamamilə dəyişdirə biləcək, onu faydalı olduğu halda, zərərli hala gətirə biləcək xüsusiyyətlərə sahib olması, atomlar və molekullardakı xüsusi dizaynın göstəricisidir. Təsadüflər zənciriylə bu cür incə və həssas bir tarazlıq meydana gəlməz. Allah hər şeyi müəyyən bir nizam içində yaradan, ən gözəl şəkildə var

edəndir.

## Yer üzündəki suyun niyə heç tükənmədiyini bilirsinizmi?

Su, bir oksigen atomunun iki hidrogen atomuyla birləşməsi nəticəsində əmələ gələr. Hidrogen atomları oksigen atomunun hər iki tərəfinə 105 dərəcəlik bucaq altında bağlanarlar. Hidrogen rabitəsi adlandırılan bu rabitəni yaratmaq üçün elə böyük miqdarda bir enerji lazımdır ki, yarım litrlik suyu əmələ gətirmək üçün sərbəst qalan enerji vasitəsilə bir lampa tam bir gün boyu fasiləsiz surətdə yana bilər.

Bu məqamda dərhal belə bir sual verilməlidir: Hidrogen atomları oksigen atomunun hər iki tərəfinə yerləşməyi, üstəlik bunu müəyyən bucaq altında icra etməyi haradan bacarırlar? Bu formulu necə və haradan öyrənmişdirlər? Hər hansı bir kimya məlumatına sahib ola bilməyəcək atomlar, bucaqları necə ölçə bilirlər? Əlbəttə ki, bütün kainatın sahibi olan və hər şeyi mükəmməl şəkildə var edən Allah atomları da yaradan və onlara bütün xüsusiyyətlərini verəndir.

Digər bir sual isə, yer üzündəki suyun necə olub da heç tükənməməsidir. Yer üzündəki suyun hamısı planetimizin əmələ gəldiyi ilk mərhələlərdə mövcud olan inanılmaz temperaatur sayəsində meydana gəlmişdir. Yəni əgər planetimizin yarandığı ilk vaxtlarda lazımi temperatur əmələ gəlməsəydi, bugünkü su olmayacaqdı. Məhz bu mükəmməl tarazlıq, üstün güc və ağıl sahibi Allahın həyatın davamı üçün lazım olan bütün ehtiyacları bilib, hər şeyi buna görə yaratdığının dəlillərindən biridir.

## Su bitkisi vallisneriya kosmos texnologiyası ilə yarışır

Bir su bitkisi olan vallisneryanın çiçəkləri, bitkinin su içində qalan hissələrində əmələ gələr.

Suyun içində olarkən, bitkinin tac yarpaqları portağal qabığı kimi çiçəyin ətrafını bürüyər. Bu sayədə suyun içəri daxil olaraq tozcuqları zay etməsinin qarşısı alınmış olar. Çiçəklər səthə çıxanda bağlı tac yarpaqları açılaraq su səthinə yayılar. Tozcuqları daşıyan erkək orqanlar tac yarpaqların üzərində şaquli vəziyyət alaraq sanki bir yelkən funksiyası yerinə yetirərlər.

Dişi bitkinin çiçəkləri isə, fərqli bir yerdə uzun bir saplağın ucunda və su səthində yerləşərlər. Dişi çiçəyin yarpaqları, su səthində və suda cüzi batıqlıq meydana gətirəcək şəkildə açılmışdır. Bu batıqlıq erkək çiçəyin özünə yaxınlaşmasını təmin edən çəkim qüvvəsi meydana gətirər. Erkək çiçək dişi çiçəyin yanından keçərkən bu çəkim qüvvəsinin təsiri altına düşər. Beləliklə də, çiçəklər birləşər, tozcuqlar dişi çiçəyin çoxalma orqanına çatar və mayalanma baş verər.

Yer üzündə yaradılan ilk vallisneryadan bəri, çiçəkdəki bu çoxalma sistemi tam və mükəmməl şəkildə fəaliyyətini davam etdirir. Təkamülçülərin iddia etdiyi kimi çoxalma sisteminin mərhələli şəkildə inkişafı qeyri-mümkündür. Çünki bu sistem tam işləmədikdə erkək çiçək dişi çiçəyi mayalandıra bilməyəcək və bu bitki yer üzündən silinib gedəcəkdi. Vallisnerya bitkisindəki bu qüsursuz dizayn Allahın sonsuz ağlının və nümunəsiz yaratma gücünün bir göstəricisidir. Bütün bu möcüzələr, düşünən və ağlını işlədən bir insan üçün böyük bir dəlildir. Allah, bu nümunələrlə bizə, yəni insanlara yaratma sənətini və sonsuz qüdrətini göstərir.

## Dəniz ilbizinin inanılmaz zəhər yaratma texnikası

Nudibranch, fövqəladə rənglərlə bəzənmiş, qabıqsız, olduqca yumşaq bir ilbiz növüdür. Bu dəniz ilbizi güclü zəhər daşıyan "dalayıcı hüceyrələri" sayəsində düşmənlərindən asanlıqla qorunar.

İlbiz bu dalayıcı hüceyrələri, öz bədənində əmələ gətirməz. Lakin hyroid adlı zəhərli bir canlını, təhlükə anında istifadə etmək məqsədiylə bədənində saxlayar. Hyroidlərlə qidalanan dəniz ilbizi, onları həzm sistemində həzm etmək əvəzinə qoruyucu bir təbəqəylə örtər və ehtiyyatda saxlayarlar. Qoruyucu təbəqəylə örtüldüklərində zəhərləri ilbiz üçün təsirsiz hala gələn hyroidlər, bundan belə dalayıcı hüceyrələr olaraq, həmin ilbizləri düşmənlərinə qarşı qoruyarlar.

Şübhəsiz ki, bir dəniz ilbizinin, hyroidlərin zəhərli olduğunu bilməsi, həmin bu zəhəri təsirsiz hala gətirmək üçün onları bir təbəqəylə örtməyi fikirləşib tapması, qoruyucu təbəqəylə örtülən hyroidləri müdafiə silahı olaraq istifadə edə biləcəyini düşünməsi və nəhayət bütün bunları sınayaraq öyrənməsi **qeyri-mümkündür.**

Məhz bu məqamda bütün kainatda açıq-aydın şəkildə görülən həqiqət yenidən qarşımıza çıxar. Dəniz ilbizlərinə nələr etməli olduqlarını ilham edən, bədənlərində hyroidlerin zəhərini təsirsiz hala gətirəcək bir sistem yaradan, sonsuz ağıl və elm sahibi olan Allahdır.

**O, əl-Həyydir (diridir), Ondan başqa məbud yoxdur. Allaha, dini yalnız Ona məxsus edən kimsələr olaraq, dua edin. Aləmlərin Rəbbi olan Allaha həmd olsun!. (Mömin surəsi, 65)**

## Tutuquşu balıqlarını ölümdən qoruyan xüsusi yataq torbası

Tutuquşu balıqları, gecələri qəlsəmə boşluqlarının yuxarı kənarlarındakı ifrazat vəzindən jelatin bənzəri bir maddə ifraz edərlər. Bu maddə bir müddət sonra balığın bütün bədənini əhatə edərək, elə bil, şəffaf bir yataq torbasına çevrilər. Həmin bu yataq torbası, tutuquşu balığını qoxu yoluyla taparaq ovlayan müren balıqlarına qarşı bənzərsiz bir qalxan vəzifəsi yerinə yetirir və heyvanı yem olmaqdan qoruyur. Beləliklə də, müren balığı qoxusunu ala bilmədiyindən, tutuquşu balığının yanından keçərkən ona toxunsa belə, varlığından xəbərdar ola bilməz.

Tutuquşu balıqları gecələr istifadə etdikləri bu qoruyucu qılafı necə

əldə ediblər? Düşmənləri müren balıqlarının güclü qoxu bilmə duyğusundan qorunmalarını, gecəni rahatlıqla keçirmələrini təmin edən bu cür mühüm maddəni necə kəşf ediblər?

Şübhəsiz ki, bir balığın, öz bədənində kimyəvi bir maddə sintez edib, özünü bu maddəylə bürüməsini düşünməsi, belə bir plan qurması və bunu tətbiq etməsi qeyri-mümkündür.

Belə məharətli kamuflyaj üsulunun şüurlu dizayn məhsulu olduğu çox açıqdır; tutuquşu balığını müdafiə sistemi ilə yaradan göylərdə, yerdə və ikisinin arasında olan hər şeyin yaradıcısı olan Allahdır.

## Təbiətdəki hər canlı Allahın qüsursuz yaratmasının dəlilidir

Qumlaqçı sürüləri hücuma uğradıqlarında, bəziləri hücumuna məruz qaldıqları canlıların ətrafında dəlicəsinə hərəkət etməyə başlayar, bəziləri də onlara qarşı "hücum planı" hazırlayar. Bütün qumlaqçı sürülərinin bütöv halda hərəkət etməsinə səbəb olan amil, yaralı balığın qanında mövcud olan və yaralanma nəticəsində sintez olunan bir ifrazatdır.

Şübhəsiz ki, bu heyvan bir ağla və şüura sahib deyil. Bu təqdirdə;

- Özünü həmcinsinə edilən hücumlardan xəbərdar edən kimyəvi maddəni necə əmələ gətirib?

- Bu kimyəvi maddəni sintez edəcək mexanizmi necə hazırlamış və öz bədəninə necə yerləşdirə bilmişdir?

- Hücum anında, başqa bir qumlaqçı balığının ifraz etdiyi kimyəvi maddəni, öz bədənində necə təhlükə siqnalı kimi qəbul edə bilir? Bu qəbul mexanizmini öz bədənində necə meydana gətirmişdir?

Şübhəsiz ki, bu suallara, təkamülçülər kimi "təsadüf əsəri" cavabını vermək ağla və məntiqə zidddir. Dünyada yaradılan ilk qumlaqçı balığından etibarən, milyonlarla ildir ki, bütün qumlaqçı balıqları bu qüsursuz sistemli birlikdə yaradılıblar.

Canlılardakı mürəkkəb sistemlər, aləmlərin Rəbbi olan Allah tərəfindən

yaradılmışdır. Allah bu kimi möcüzəvi nümunələrlə insanlara öz elmini və qüdrətini göstərir.

## 70 qram yanacaqla fasiləsiz 4000 km. uçuş

200 qr. ağırlığındakı qızılı cüllüt, hər il Alyaskadan Havay adalarına qədər 4000 km-lik məsafəni, 88 saat (təqribən 3,7 gün) ərzində heç dayanmadan qanad çırparaq qət edərlər. Elm insanları quşun belə bir səfər üçün yanacaq kimi istifadə edəcəyi 82 qr. yağa sahib olmasının lazım olduğunu hesablayıblar. Halbuki, qızılı cüllütün yalnız 70 qram yağı var. Buna baxmayaraq, heç bir qızılı cüllüt yanacağı bitdiyi üçün dənizə düşməz. Bəs bunun sirri nədir?

Qızılı cüllütlər V formasında düzülərək sürü halında uçarlar. Bu, hava müqavimətini azaldaraq, quşlara enerjiyə 23% qənaət etmələrini təmin edər. Bu vəziyyətdə, yerə endiklərində yağlarından 6-7 qram artıq qalır. Bu artıq yağ, küləklərin əks istiqamətdən əsdiyi vaxtlarda istifadə ediləcək yanacaq ehtiyyatıdır.

Qızılı cüllüt, uçuş məsafəsini və yanacaq kimi istifadə edəcəyi yağ miqdarını necə hesablaya bilir?

Bu mükəmməl və düzgün hesablama işləri, istiqamət tapma bacarığı və toplu halda uça bilmə qabiliyyəti, şübhəsiz ki, quşların öz iradələriylə qazandıqları müvəffəqiyyətlər deyil. Bunların hamısı, hər canlını ehtiyac duyduğu sistemlərlə təchiz edən Allahın ilhamıyla baş verər. Necə ki, Quranda "dəstələr halında quşlar"a diqqət çəkilir və bu canlıların Allahın qüdrətiylə uça bildikləri xəbər verilir:

**"Məgər onlar başları üzərində dəstə-dəstə pərvazlanıb uçan, hərdən də qanadlarını yığan quşları görmürlərmi? Onları havada ancaq Mərhəmətli Allah saxlayır. Şübhəsiz ki, O, hər şeyi görür". (Mülk surəsi, 19)**

# Allah hər canlıya ilhamla yol göstərər

Tunisin Aralıq dənizi sahilində yaşayan qara səhra qarışqası mükəmməl cəhət təyin etmə qabiliyyətinə malikdir.

Qarışqa, doğan günəşin yüksəlməsiylə 70 dərəcəyə qədər qızan səhra qumunda, yuvasından qida axtarmaq üçün çölə çıxar. Qarışqa yuvasından başlamış 200 metr məsafəyədək olan bir sahədə tez-tez dayanmaq və olduğu yerdə fırlanmaqla ziqzaq formasında hərəkət edər. Amma bu cür mürəkkəb ziqzaq hərəkətlər etməsinə baxmayaraq, yeməyini tapdığında, dərhal düz xətt boyunca yuvasına doğru qayıdar. Qarışqanın bu səfəri, boyu ilə müqayisə edildikdə, bir insanın səhrada 35-40 km gəzdikdən sonra, birbaşa başladığı nöqtəyə qayıtmasıdır.

Nə kompası, nə də xəritəsi olmayan qarışqanın gözlərinə yerləşdirilmiş cəhət təyin sistemi olduqca üstündür və insanların sahib olmadığı bir xüsusiyyətdə yaradılmışdır: Səhra qarışqası işığı polyarizə edər. Yəni insanın görə bilmədiyi bəzi şüaları da görə bilən qarışqa, bunlardan istifadə edərək cəhətləri təyin edə bilər. Beləliklə də, hər an yuvasının hansı tərəfdə olduğunu təxmin edə bilən bu heyvan, geri ayıdarkən heç bir çətinlik çəkməz.

Bir qarışqanın texnoloji tədqiqatlar nəticəsində kəşf edilmiş "işığın polyarizə olma xüsusiyyəti"ni bilməsi və bundan kompas kimi faydalanması mümkündür mü? Şübhəsiz ki, bu bilik və qabiliyyət, üstün elm sahibi, bütün canlıların yaradıcısı olan Allahın əsəridir və səhra qarışqası Allahın ilhamıyla hər dəfə doğru istiqaməti müəyyənləşdirə bilir.

# Qarışqalardakı möcüzəvi turşu fabriki

Qarışqaların bədənlərində qarışqa turşusu ($H_2CO_2$) adlı kimyəvi maddəni ifraz edən vəzlər var. Antibiotik təsirinə malik bu maddəni müntəzəm şəkildə bədənlərinə sürən qarışqalar, həm yuvalarında, həm də öz üzərlərində bakteriya və göbələklər əmələ gəlməsinin qarşısını alarlar.

Quşlar isə qarışqalar kimi kimyəvi maddələr ifraz edə bilməzlər. Ancaq tez-tez qarışqa yuvalarının təpəsinə qonaraq bu yerlərə sürtünən quşlar,

qarışqaların tüklərinin arasında gəzmələrinə icazə verərlər. Bu sayədə bütün bədənləri qarşıqa turşusuna bulanan quşlar bütün parazitlərindən xilas olarlar.

Qarışqanın qarışqa turşusunun formulunu bilməsi və onu hazırlayacaq bir vəz əmələ gətirməsi qeyri-mümkündür. Quşların qarışqalarla bu cür mükəmməl əməkdaşlıq edərək parazitlərini təmizləməyi düşünüb tapmaları, bunun üçün qarışqa yuvalarına qonmağa qərar vermələri də qeyri-mümkündür.

İstər quşlara, istərsə də qarışqalara qarışqa turşusundan faydalanmağı ilham edən, aləmlərin Rəbbi olan Allahdır. O bütün canlıların ehtiyacını bilən və tam təmin edəndir.

## Kəpənəklərdən, isinən kompyuter çipləri üçün tapılan həll

Kəpənək qanadları mükəmməl dizayn olunmalarıyla yanaşı, möcüzəvi bir xüsusiyyət də daşıyırlar. ABŞ-da Taft Universitetində aparılan bir tədqiqat nəticəsi kəpənəyin qanadlarında xüsusi bir soyutma sistemi olduğunu göstərdi. Kəpənəklər soyuqqanlı canlılar olduqları üçün bədən temperaturları daim tənzimlənməlidir. Bu, çox böyük problemdir. Çünki kəpənəklər uçarkən qanadlarda böyük miqdarda istilik yaranar. Bunun həlli isə, qanın qanadlardakı çox nazik kinolent strukturların içindən keçirilməsi ilə təmin edilər. Kəpənəyin bədənində yaranan yüksək temperatur, qanadlardakı nazik damarlarda olan qanın hərəkətiylə birlikdə yox olar.

Kəpənəklərdəki bu xüsusi soyutma sistemi kompyuter çiplərindəki sistemlə müqayisə edilmiş və çox yüksək performansa sahib olduğu görülmüşdür.

Kompyuter çipi texnologiyası inkişaf etdikcə yaranan istilik problemi də böyüyür. Daha sürətli çiplər, daha çox isinmə deməkdir. Bu isinmənin aradan qaldırılması problemi çip istehsalçılarının gündəmində duran məsələdir. Bu mövzuda görülən işlər nəticəsində kəpənək qanadlarındakı texnologiyanın 2 il ərzində istehsal prosesində tətbiq olunması planlanlaşdırılır.

Elm insanları təbiətdəki canlıları nümunə götürərək müxtəlif dizaynlar

yaradırlar. Bir sözlə, canlılardakı bənzərsiz sistemlər, texnologiyanın inkişafında və onun yeni həllər gətirməsində rəhbər rolunu oynayır.

## Milçək qulağındakı dizayn eşitmə alətində inqilab yaradacaq

"Ormia Ochracea" adlı milçəklər, yumurtalarını cırcıramaların üzərinə buraxar və yumurtalardan çıxan sürfələr də cırcıramalarla qidalanar. Meşədəki bir cırcıramanın yerini tapmaq isə olduqca çətindir. Amma Ormia milçəyi, bu iş üçün xüsusi dizayn olunmuş həssas qulaqları sayəsində, onun yerini asanlıqla tapa bilər.

İnsan beynində də səsin yerini müəyyənləşdirmək üçün eyni üsuldan istifadə edilər. Bunun üçün səsin, əvvəlcə yaxınlığındakı qulağa, daha sonra uzaqlığındakı qulağa çatması kifayətdir. Səsin iki ayrı qulağa neçə millisaniyə fərqlə çatdığını hesablayan beyin, beləliklə, səsin gəldiyi istiqaməti müəyyənləşdirir. İnsanda bu əməliyyat 10 millisaniyədə qurtarır. Halbuki Ormia milçəyi, eyni işi sancaq böyüklüyündəki beyniylə, üstəlik, insandan 5000 dəfə sürətli görür.

Təbiətdəki dizaynlar insan üçün daim tükənməz bir ilham mənbəyi olmuşdur. Müasir texnoloji məhsulların böyük hissəsi təbiətdəki dizayn nümunələrinin təqlid edilməsiylə meydana gətirilmişdir. Milyonlarla ildir ki, mükəmməl şəkildə işləyən sistemləri təqlid etmək, şübhəsiz ki, dizaynerlərin işini olduqca asanlaşdırır. Milçəyin qulağındakı bu mükəmməl dizayn da, hazırkı dövrdə **"ormiafon"** adı altında, eşitmə aləti və dinləmə cihazlarının istehsalında təqlid edilməyə çalışılır.

**Göylərdə və yerdə olanların hamısı Ona məxsusdur. Hamısı Ona könüllü surətdə təzim edir. (Rum surəsi, 26)**

# Beynin içindəki möhtəşəm sirr

Beyin qabığındakı bir neçə kub santimetrlik bir yer, görmə sinirlərimizdən gələn xəbərdarlıqların toplandığı televiziya ekranı kimidir. Biz, daha doğrusu idrakımız, qapqaranlıq kəllənin içində, qapqaranlıq beyin qabığının üzərinə düşən rəngləri, müxtəlif harmoniyadakı işıqları, rəngarəng bir kəpənəyi televizordan seyr edərmiş kimi seyr edərik. Bütün dünyamızı, bu beynimizdəki ekrandan görərik.

Görəsən gördüyümüz şeylərin əsli necədir? Məsələn, beynimizdəki ekrandan seyr etdiyimiz, qırmızılı, sarılı, mavili kəpənəyin əsli, görəsən yenə eyni rənglərə malikdirmi? Yoxsa, ancaq bizim beynimizdəki görüntüsü mü belədir? Bu sualların cavabını heç vaxt bilmərik. Beynin içində bu görüntüləri seyr edən ruhumuz heç vaxt beynimizdən kənara çıxıb, bu görüntülərin əslini görə bilməz. Dolasyısilə gördüklərinin əslləri ilə eyni olub olmadığını heç vaxt bilə bilməz.

Bu o qədər böyük bir möcüzədir ki, insanların bir çoxu bunu qavraya bilmir, bilənlərin çoxu da anlamazlıqdan gəlir. Allah insanlara doğulduqları andan etibarən beyinlərinin içində yerləşmiş ekrandakı görüntüləri seyr etdirir, hər insanın ruhunu həyatı boyunca kəllə kimi kiçik, dar və sıxılmış bir yerdə yaşadır. Ancaq seyr etdirilən görüntülər o qədər möhtəşəm, o qədər təfərrüatlı və o qədər əslinə bənzərdir ki, insanlar əslində bunların harada olduqlarından belə xəbərsizdirlər. Onlar, beyinlərindəki surəti çıxarılmış görüntüləri seyr edərkən və bunları kəllələrin içində yaşayarlarkən, gəmiylə dənizə çıxdıqlarını, təyyarəylə havaya yüksəldiklərini, kilometrlərlə yol qət etdiklərini zənn edirlər. Hətta bu həqiqətin özlərinə dəfələrlə çatdırılmasına baxmayaraq, əslində kəllələrin içində yaşadıqlarına heç cür qənaət gətirə bilmirlər. Məhz bu da, bir insanın dünyada qarşılaşa biləcəyi ən böyük möcüzələrdən biridir. Bu möcüzə barədə dərin şəkildə düşünməyin, sizə yeni üfüqlər qazandırdığını görəcəksiniz.

## Mal-dövlət toplama hərisliyinə qapılan insanların ən böyük qorxuları...

Ətrafınızdakı mal-dövlət toplama hərisliyinə qapılmış insanların ən çox nələrə əhəmiyyət verdiklərini bir düşünün: yaxşı bir ev, lüks əşyalar, dəbdəbəli ləl-cəvahiratlar, son model bir avtomobil, banklarda böyük miqdarda pul, yaxta... Məhz buna görə də, bu insanların ən çox qorxduqları şey sahib olduqları bütün bu maddələri beyinlərindəki ekrandan seyr etdikləri və əslləriylə əsla təmasda ola bilməyəcəkləri həqiqətdir.

Halbuki bu, 21-ci əsrdə yaşayan hər insanın, anlaya biləcəyi şəkildə açıqlanmış çox böyük bir elmi həqiqətdir. İnsanlar dünyanın beyinlərində yaranan surəti daxilində yaşayarlar. Xarici aləmdəki dünya ilə təmasda olmaları qeyri-mümkündür. Çünki heç bir şəkildə səsi, işığı və qoxunu keçirməyən kəllələrin içinə, yalnız bu maddələrdən elektrik siqnalları halında gəlib çatan məlumatlar daxil ola bilir.

Şəkildəki kimi pul verib, arxada görülən möhtəşəm villanı satın alan insanın içində olduğu vəziyyət də belədir. Bir villa satın aldığını və onun üçün ödəyəcəyi pulu saydığını zənn edərkən, əslində beynində yaranan bir görüntünü satın alır, qarşısındakı insana da pulun əslini deyil, görüntüsünü verir. Pulu alan insan da əslində bir görüntünü alır. Yəni təkcə görüntü alveri gedir.

## Dünyanın ən zəngin insanı, əslində dünyanın ən çox mal-dövlətinə deyil, yalnız bu mal-dövlətin beynində yaranan görüntüsünə malikdir

Sizə aid olduğunu zənn etdiyiniz əşyaların əslinə, əslində heç vaxt sahib ola bilməyəcəyinizi nə vaxtsa düşündünüzmü? Bu, yuxarı sinif biologiya və fiziologiya kitablarında belə oxudulan, hər kəsin bildiyi elmi bir həqiqətdir.

Bir avtomobiliniz olduğunu fərz edək. İçinə minərək sükanından

yapışdığınız, qaz pedalına basaraq istədiyiniz sürətlə idarə etdiyiniz bu avtomobili, əslində beyninizin içindəki bir ekrandan seyr edirsiniz. Önünüzdəki sükandan, spidometrdən, yan güzgülərdən və avtomobilə aid bütün hissələrdən gələn şüalar gözünüzdə elektrik siqnallarına çevrilər və sinirlər vasitəsilə beynin görmə mərkəzinə ötürülər. Beləliklə də, beyninizdə, əslindən heç fərqlənməyən bir avtomobil görüntüsü əmələ gələr. Ancaq diqqət yetirin! **Siz əslindən heç fərqlənməyən, amma əsli olmayan bir görüntü seyr edərsiniz.**

İstəsəniz də, həyatınız boyu bu avtomobilin əslini görə bilməzsiniz. Çünki siz nə etsəniz də, avtomobilin görüntüsü daim beyninizdəki görmə mərkəzində yaranacaq. Nə qədər istəsəniz də görmə mərkəzində yaranan görüntüdən başqa tək bir nöqtə belə görmə gücünə sahib deyilsiniz. Buna görə də, əslində bu avtomobilin əslinə deyil, beyninizdə yaranan surətinə sahibsiniz.

Eynilə qarderobunuzdakı paltarlarınız, içində yaşadığınız eviniz, mebelləriniz və sizə aid olduğunu düşündüyünüz bütün sərvətinizin yalnız beyninizdə yaranan surətlərinə sahib ola bilərsiniz. Dolayısilə dünyanın ən zəngin insanı, əslində dünyanın ən böyük mülkünə deyil, yalnız bu mülkün beynində yaranan surətinə sahibdir.

## Beyindəki bir görüntü olan fabrik, yaxta və torpaq sahələrinin, özlərini boş yerə kədərləndirən sahibləri

Bir çox insanın həyatda ən çox dəyər verdiyi şey evləri, fabrikləri, yaxtaları, torpaqları, ləl-cəvahiratları, bankdakı hesabları, antikvarları, bir sözlə, maddi varlığıdır. Bütün həyatlarını bunları əldə etmək üçün keçirər, gecə-gündüz demədən çalışarlar. Ən böyük qorxuları isə, ömürlərini sərf edərək topladıqları bu malları nə vaxtsa itirməkdir. Ancaq bu insanlar sahib olduqları mal-dövlətin həqiqi mahiyyəti barəsində heç düşünməyərək, xeyli aldanmışdırlar.

Çünki, **"evim, fabrikim, yaxtam, ləl-cəvahiratım!"** deyə sahibləndikləri və narahatlıq içində qoruduqları bu mallarının əslləriylə heç vaxt təmasda ola

bilməzlər. **Əsla həqiqi evlərinin içində otura bilməz, əsla həqiqi yaxtalarıyla gəzə bilməz, əsla həqiqi ləl-cəvahiratlarını taxa bilməzlər.** Onlar yalnız bu əşyalardan beyinlərinə gəlib çatan elektrik siqnallarını, beyinlərindəki ekrandan seyr edərlər. Bu seyr etdikləri də, tamamilə həqiqi mal-dövlətlərinə bənzəyən surətlərindən başqa bir şey deyil.

Məhz bu böyük həqiqət insanların bütün hərisliklərinin, narahatlıqlarının yersiz olduğunu göstərir. Beyinlərindəki ekrandan seyr etdikləriylə öyünənlər, göstəriş edənlər həqiqətlər qarşısında çox biabırçı vəziyyətə düşürlər. Ancaq bütün ömürlərini, bu dünyada qazanc təmin etmək üçün çalışıb keçirənlər, axirəti unudub, yalnız dünya həyatına yönələnlər ölüm həqiqətiylə qarşılaşdıqlarında artıq çox gec olacaq. Rəbbimiz bu həqiqəti bizə; **"kaş ilk ölümüm həmişəlik olaydı! Var-dövlətim məni əzabdan qurtarmadı. Hökmranlığım da məhv olub getdi" (Haqqə surəsi, 27-29)** ayəsiylə bildirir.

## Bəşəriyyət artıq böyük həqiqəti anlayır

Bosfor boğazının kənarında əyləşib, dəniz mənzərəsini seyr etdiyinizdə, bu çox zövq aldığınız görüntü, əslində beyninizdə yaranar. Yəni siz, xarici aləmdəki əsl dənizi görməz, onun beyninizdə yaranan surətini seyr edərsiniz. Görmə sinirləri elektrik kabeli kimi, xarici aləmdən gözünüzə gələn işığı, elektrik siqnalı halında beyninizdəki görmə mərkəzinə ötürər. Dəniz mənzərəsi isə, kiçik bir nöqtə olan bu görmə mərkəzinizdə yaranar. Halbuki görmə mərkəzinizdə tək bir işıq, tək bir rəng və ya hərəkət belə yoxdur, çünki kəlləniz işığı içəri keçirməz. Buna baxmayaraq, bu kiçik və qapqaranlıq yerdə, olduqca təfərrüatlı, olduqca rəngli, heç bir elektron cihazın meydana gətirdiyi ilə müqayisə edilməyəcək qədər aydın və üç ölçülü xarici dünya görüntüləri seyr edərsiniz.

Dənizin və səmanın mavi rəngi, buludların ağ görüntüsü, uzaqdakı binaların mebel rəngi, elektrik siqnallarının sizin beyninizdə yaratdığı rənglərdir. Siz, dənizin, buludların, səmanın, binaların əsl rənglərini heç vaxt öyrənə bilməzsiniz. Çünki heç vaxt bunların əsl görüntüləri ilə təmasda olmazsınız. Ancaq bunların beyninizdə yaranan görüntüləri elə mükəmməldir ki, demək olar ki, əsli ilə eynidirlər. Buna görə də, siz doğulduğunuz andan

etibarən gördüklərinizin, xarici aləmdəki real görüntülər olduğunu zənn edərək aldanarsınız. Halbuki həqiqət, sizin daim beyninizdə yaranan görüntüləri seyr etməyinizdir.

Belə olduqda, dənizin əsl rənginin mavi olduğundan əmin ola bilərsinizmi? və ya hər insanın eynilə sizin kimi buludları ağ, binaları mebel rəngində gördüyü qətidirmi? Məhz bunu əsla bilməz və heç vaxt öyrənə bilməzsiniz. Çünki heç vaxt beyninizdəki məkandan çıxıb, xarici dünyadakı əsl səmanı, dənizi, binaları, buludları görə bilməzsiniz.

Bu, həyatınızdakı ən mühüm həqiqətlərdəndir və əsrlərdir ki, böyük diqqətlə insanlardan gizlədilməyə çalışılmışdır. 20-ci və 21-ci əsrdə baş verən elmi inkişaflar, bu həqiqətin çox açıq şəkildə başa düşülməsinə və bəşəriyyətə asanlıqla çatdırılmasına vəsilə olmuşdur. Bu həqiqəti görməzlikdən gəlməyin və mütləq üzərində düşünün.

## Ev mi sizin içinizdə, yoxsa siz mi evin içindəsiniz?

Evinin bir otağında oturub, televizora baxan və ya yemək yeyib, ailəsiylə söhbət edən bir insan, özü bilməsə də, əslində çox böyük möcüzə ilə iç-içədir. Bu böyük möcüzə, bir evin içində oturan hər insanın gördüyü dörd divardan ibarət görüntünün, əslində həmin insanın beyninin içində olduğu həqiqətidir.

Bəs onda ev mi sizin içinizdədir, yoxsa siz mi evin içindəsiniz?

İnsanların böyük hissəsi bu böyük həqiqəti bilməz; özlərini bir evin içində oturan, həmin evin içində televizora baxan və söhbət edən biri kimi zənn edər. Bu həqiqəti anlayan kəslər isə qorxduqları üçün bu böyük möcüzəni anlamazlıqdan gələrlər. Halbuki anlamazlıqdan gəldikləri bu böyük həqiqət, inkaredilməz, elmin də göstərdiyi qəti bir mövzudur. Evi meydana gətirən dörd divardan, divardakı tablodan, televizordan, yerdəki xalçadan, rəngli yumşaq mebellərdən və tavandakı çilçıraqdan gözə çatan xəbərdarlıqlar göz hüceyrələri tərəfindən elektrik siqnalına çevrilə. Bu siqnallar daha sonra beynin görmə mərkəzinə ötürülər və insan, içində oturduğunu zənn etdiyi ev görüntüsünü əslində beyninin arxasındakı kiçik bir

yerdə seyr edər.

Burada insanın ağlına çox əhəmiyyətli bir sual daha gəlməlidir: İşığın içəri girə bilmədiyi qapqaranlıq kəllənin içindəki bu rəngli və canlı görüntüləri, gözə, göz bülluruna, torlu qişaya, quzehli qişaya ehtiyacı olmadan görən kimdir?

Sualın cavabı; "insanın ruhu"dur.

İnsanın özünü bir otağın içində zənn etməsinin səbəbi isə beynində seyr etdiyi görüntülərin çox aydın və əsli ilə fərqləndirilə bilməyəcək qədər eyni olmasıdır. Bu da başlı-başına bir möcüzədir.

## Bir stadion dolusu insanın hər biri ayrı bir matçı seyr edər

Bir futbol matçı seyr etmək üçün stadiona daxil olan insan, içəridə olan minlərlə insanla eyni matçı seyr edəcəyini zənn edərkən, əslində xeyli yanılır.

Çünki stadiondakı hər insanın beynində ayrı bir futbol meydançası, ayrı futbolçular, ayrı tamaşaçılar, bir sözlə, ayrı bir görüntü əmələ gələr. Ancaq hər kəs tək bir stadionun, tək bir matçın olduğunu və minlərlə insanın eyni matçı seyr etdiyini zənn edir. Hətta evlərindəki televiziyalardan bu matçı seyr edən kəslərin də ekrandakı eyni matçı seyr etdiyini zənn edirlər.

Halbuki hər bir insanın beynində ayırd edilə bilməyəcək dərəcədə əsliylə eyni olan, tamaşaçı sayı qədər surət yaradılar. Nə stadionda oturanlar xarici aləmdəki görüntünü, nə də evlərindəki televizorun qarşısında əyləşənlər ekrandakı əsl görüntünü görə bilərlər. Çünki heç bir insanın beyninin içindəki ekrandan çıxıb, xarici aləmdəki görüntünün əsliylə təmasda olması mümkün deyil. Bu insanların tək görə bildikləri şey beyinlərinə çatan məlumatların beyinlərindəki ekranda şərh olunmasıdır. Görən ruhdur. Həm ruhu, həm də tamamilə əslinə bənzəyən görüntüləri, üstəlik, bunları hər bir insan üçün ayrı-ayrılıqda yaradan isə göylərin və yerlərin Rəbbi olan Allahdır.

## Beyninizdəki böyük səssizlik içində uca səsli konserti dinləyən kimdir?

Xarici qulaq, ətrafdakı səsləri qulaq seyvanı vasitəsiylə toplayıb orta qulağa ötürərə, orta qulaq aldığı səs titrəyişlərini gücləndirərək daxili qulağa ötürər; daxili qulaq da bu titrəyişləri sinirlər vasitəsiylə beynə ötürər. Eşitmə əməliyyatı beyindəki eşitmə mərkəzində baş verər. Bəs beyində səsi eşidən kimdir?

Eşitmə mərkəzində tamamilə səs yoxdur. Yəni xarici aləmdən nə qədər çox səs gəlirsə gəlsin, xarici aləm nə qədər gurultulu olursa olsun, beynin içi daim səssizdir. Beynə çatan səs deyil, sinir xəbərdarlıqlarıdır. Lakin bu dərin səssizliyin içində ən bəyəndiyiniz musiqiləri, bir stadiona yerləşdirilmiş nəhəng səs kolonkalarından yayılan ən tanınmış qrupların konsertlərini dinləyərsiniz.

Səssiz beynin içində, **qulağa ehtiyac duymadan bütün stadiona yayılan uca bir səsi dinləyənin kim olduğunu** nə vaxtsa düşündünüz mü?

Şüursuz ət, sümük və sinirlərdən şüur, dərketmə və təqdir edə bilmə qabiliyyəti gözlənilə bilməz. Ruhunuza "eşitmə və görmə qabiliyyətini" verən, sizi qüsursuz şəkildə yaradan Allahdır. Bu, üzərində düşünülməli olan **çox əhəmiyyətli** və **möhtəşəm** bir həqiqətdir.

Üstəlik, bu şüur heç vaxt bir konsertin əslini dinləyə bilməz. Heç vaxt tanınmış bir müğənninin səsinin əslini eşidə bilməz. Onun eşitdikləri, əsllərin bir surətidir. Ancaq bu, o qədər həqiqi, **tamamilə əslinə bənzər və çox keyfiyyətli surətdir ki,** insan bunu heç vaxt əslindən ayırd edə bilməz. Həyatı boyunca daim əsllərini eşitdiyini zənn edər. İnsanların böyük hissəsinin ayırd edə bilməyəcəyi qədər həqiqi yaradılan bu səslər, Allahın yaratmasındakı başqa bir möcüzədir.

## Göyə atılan hava fişənglərini əslində beyninizin içində seyr edərsiniz

Hava fişəng nümayişini seyr edən insanların çoxu, hava fişənglərinin

əslini gördüklərini zənn edərlər. Halbuki, heç vaxt əsllərini görə bilməzlər, gördükləri beyinlərinin içində yaranan hava fişəng nümayişidir. Çünki, hava fişənglərinin partlaması ilə yaranan işıqlar insanın gözünə çatar və görmə hüceyrələri tərəfindən elektrik siqnalına çevrilər. Bu elektrik siqnalları görmə mərkəzinə ötürülər və biz hava fişənglərinin görüntüsünü beynimizin arxasındakı bu yerdə seyr edərik. Bu məqamda ağla bir neçə qeyri-adi sual gəlir:

1) Beynimizin içində, elektrik xəbərdarlıqlarını hava fişəng nümayişi kimi **seyr edən kimdir?**

2) Beynimizin içi qapqaranlıq və tamamilə səssizdir. O zaman bu zülmət qaranlığın içində, rəngarəng, par-par parıldayan hava fişəng nümayişini gözə ehtiyacı olmadan **seyr edən kimdir?**

Qaranlıq beynimizin içində, rəngarəng, par-par parıldayan, parlaq, dərinliyi olan və olduqca aydın görüntüləri görən, gördüklərindən zövq alan, həyəcanlanan və dolayısilə özünü yaradan Allaha şükr edən, insanın ruhudur.

İnsanın beynində seyr etdiyi görüntülər o qədər aydın və əsli ilə o qədər eynidir ki, insanların böyük hissəsi gördüklərinin həqiqi nümayiş olduğunu zənn edərlər və bu möcüzəni görə bilməzlər. **Bu da tamam ayrı bir möcüzədir; çünki Allah hal-hazırda milyardlarla insanın ruhu üçün milyardlarla görüntünü eyni anda yaradır və onlar da əsllərini gördüklərini zənn edərək aldanırlar.**

Bir dəfə oxuyub, bu böyük möcüzənin üzərindən keçməyin. Üzərində dərin dərin düşünün. Bu əhəmiyyətli həqiqət sizə Allahın yaratmasındakı möcüzələri görməniz üçün əhəmiyyətli bir qapı açacaq.

## Qaranlıq beynimizin içində rəngli bir dünyanı seyr etməyimiz, Ruhun varlığının dəlilidir

İnsan gözü üstün texnologiya əsasında yaradılan televizorlardan olduqca qüsursuz çalışar. Televizor, xüsusi sistemlərə sahib müasir laboratoriyalarda istehsal edilmiş, bir-birindən fərqli xüsusiyyətə malik

yüzlərlə hissədən ibarətdir. Gözü isə hüceyrələrdən ibarətdir və təməl maddələri zülal və yağlardır. Amma bütün bunlara baxmayaraq, üstün texnologiya əsasında yaradılan televizorun meydana gətirdiyi görüntü, gözün meydana gətirdiyi görüntüylə müqayisədə çox əskik və qeyri-kafidir.

Buna görə də, ixtisaslı dizaynerlər və mühəndislər, televizorlarda, illərdən bəri, gözün əmələ gətirdiyi aydınlıqda bir görüntü keyfiyyəti əldə etmək üçün çalışırlar. Necə ki, nəhəng fabriklərdə və tam təchizatlı laboratoriyalarda aparılan tədqiqatlar nəticəsində gözün əmələ gətirdiyi qədər aydın bir görüntü yaradıla bilmir.

Məsələn, televizordakı görüntü iki ölçülü olub, yalnız bəzi rənglərdən ibarətdir. Gözü meydana gətirən hüceyrələrsə bizə üç ölçülü, aydın, rəngarəng, **ayırd edilə bilməyəcək qədər əslinə bənzər** bir görüntü bəxş edərlər.

Gözün qüsursuz dizaynıyla yanaşı, üzərində dayanılmalı olan çox böyük bir mövzu daha var. Gözdəki hüceyrələrin vəzifəsi özlərinə gələn xəbərdarlıqları elektrik siqnalına çevirərək beynə ötürməkdir. Beyində isə bu elektrik siqnalları işıqlı, rəngli və dərinliyi olan bir görüntü kimi seyr edilər. Ancaq unutmamaq lazımdır ki, beynin içi qapqaranlıqdır, çünki beyin işığı içəri buraxmaz. Yəni əslində beynin içində bir görüntü də meydana gəlməz. Xarici aləmlə əlaqədar hər şey beynimizin içindəki zülmət qaranlığa gəlib çatan elektrik xəbərdarlıqlarından ibarətdir.

Bu qaranlığın içində **gözə ehtiyac duymadan** xarici aləmi görən, elektrik xəbərdarlıqlarını xarici aləmdəki masa, ağac, səma, ev, canlı və cansız varlıqlar hesab edən bir şüur var. Bu şüur Allahın insanlara verdiyi ruhdur.

Televizor, xüsusi yolla meydana gətirilmiş yüzlərlə hissədən ibarətdir, göz isə zülal və yağlardan. Buna baxmayaraq, televizorda yaranan bu mənzərənin görünütüsü iki ölçülü olub, məhdud sayda rənglərdən ibarətdir.

Ayırd edilə bilməyəcək qədər əslinə bənzəyən bu görüntü qapqaranlıq beyninizin içinə gəlib çatan elektrik siqnallarından ibarətdir.

## Materialistlərin gizlətdiyi inanılmaz həqiqət 21-ci əsrdə ortaya çıxdı

Alver etmək üçün marketdən içəri daxil olan bir insan (özü bilməsə belə) əslində çox böyük çətinliklərlə üz-üzədir.

- Çünki beynindəki ekrandan seyr etdiyi bir görüntü içində sürətlə hərəkət etməli olacaq.
- Bu vaxt beynindəki ekrandan seyr etdiyi insanların yanından sürətlə ötüb keçərkən, onlara toxunmamalı olacaq.
- Həmçinin beynindəki ekranda gördüyü rəflərdən, əslləri ilə əsla təmasda ola bilməyəcəyi yeməkləri seçməli olacaq.

Bunun səbəbi insanın xarici aləmə aid olan hər cür incəliyi yalnız və yalnız beynindəki bir ekrandan seyr etməsi, heç vaxt bu ekrandan xarici aləmə çıxa bilməməsidir. Hər insan həyatı boyu, yalnız maddələrin beyninə gəlib çatan surəti çıxarılmış görüntülərini görər və əsla bunların əsllərinə toxuna bilməz.

Bəs insanın bütün həyatını beyninin içindəki bir ekrandan seyr edərkən yeriməsinin, qaçmasının, alver etməsinin nə qədər çətin olduğunu nə vaxtsa düşündünüz mü?

Ancaq Allah bunları üstün elmiylə yaradaraq, insana bu çətinliyi qətiyyən hiss etdirmir. Hətta insanların böyük hissəsi, dünyanı beyinlərindəki bir ekran vasitəsiylə seyr etdiklərini belə bilmirlər.

Bəlkə də, bu möcüzəvi vəziyyət barədə indiyə qədər heç düşünmədiniz. Çünki materialist elm insanları bu həqiqəti bu günə qədər bütün insanlardan gizlətdilər. Ancaq 21-ci əsrdə, əsrlərdir ki, gizlədilən bu möcüzəvi həqiqət, elm tərəfindən ortaya çıxarıldı.

## Turş olan limon deyil, beynimizdə qəbul etdiyimiz surətidir

Limon yediyimizdə o turş dadı hiss edərik. Ancaq bu dadı hiss edən dilimiz deyil, beynimizdir. Beynimiz, dilimizdən başlanğıc götürərək özünə gəlib çatan xəbərdarlıqları turş bir dad hesab edər.

Ancaq beynimiz heç vaxt bu hiss etdiklərinin əsliylə təmasda olmaz. Çünki qəbul etdiyimiz dadlar, qoxular, gördüyümüz görüntülər yalnız beynimizə çatan elektrik siqnallarından ibarətdir. Beynimizə limonun əsli deyil, yalnız əslinin bir surəti çatar.

Belə olduqda, limonun əsliylə heç vaxt təmasda ola bilməyəcəyimizə görə bu turş dadı becə hiss edərik?

Dilimizə bir elektrodla lazımi şiddətdə elektrik cərəyanı versək yenə limon yediyimizi zənn edərik. Halbuki ortada nə limon, nə də dad var. Bu turş dadı hiss etməyimizin səbəbi limonla təmasda olmağımız deyil, beynimizin, özünə gəlib çatan elektrik cərəyanını şərh etməsidir.

İnsanların böyük hissəsi obyektlərin əslini görüb hiss etdiyinə inanar və buna görə yaşadığını düşünər. Lakin, əslində bu xarici aləminin əsliylə təmasda deyil. Bu təqdirdə bunları düşünək:

Beynimizdə surətini gördüyümüz obyektlərin xarici aləmdə əsllərinin olduğunu deyirik, amma ya xarici aləmdə əslləri yoxdursa? Çünki, heç vaxt bunu sınamaq və görmə imkanımız yoxdur. O zaman xarici aləmdə əsllərinin olduğu ehtimalı şübhə altında deyildirmi? Heç olmasa hər iki ehtimal da 50-50-yədir. Elə isə obyektlərin əsllərinin olduğundan necə əmin ola bilərik?

Məhz bu, bəşəriyyət tarixinin ən böyük sirlərindən biridir.

## Beyindəki surətlərdən ibarət həyatın görməzlikdən gəlinməsi qeyri-mümkündür

Yemək üçün əlinizə aldığınız bir şaftalının əvvəlcə yumru formasını və parlaq rəngini görərsiniz. Daha sonra tüklü səthini, şaftalıya məxsus kəskin

və xoş iyi hiss edər, bundan zövq alarsınız. Bir şaftalı dilimini daddığınız vaxtsa dadını, yumşaqlığını, qoxusunu hiss edərsiniz. Ancaq əslində əlinizdəki şaftalı, əslinin surətindən başqa bir şey deyil. Sizin şaftalının əslini görməyiniz, onu iyləməyiniz və ya dadını almağınızsa qeyri-mümkündür. Bu, insanların anlamazlıqdan gəldiyi inanılmaz bir möcüzədir.

Şaftalını yediyimiz vaxt aldığınız dad, dilin üzərindəki dad reseptorlarının beynə ötürdükləri elektrik siqnallarının hiss edilməsidir. Belə olduqda, dilin heç vaxt həqiqi qəbuledici olmadığına diqqət yetirilməlidir. Siz şaftalının əslindən aldığınız dadı ağzınızda hiss etdiyinizi düşünərsiniz. Amma əslində belə düşünməklə tamamilə yanılarsınız. Şaftalının ləzzəti və görüntüsünə dair bütün məlumatlar beynin dad bilmə mərkəzində əmələ gəlir. Beynə isə şaftalının şəkərli dadı və ya ləzzəti deyil, yalnız elektrik siqnallarından ibarət məlumatlar ötürülür. Beyində dadı qəbul edə biləcək bir dil də yoxdur. Dili, dili meydana gətirən əzələni, reseptorları olmadan meyvənin ləzzətini hiss edən və bundan zövq alan insanın **ruhudur**.

Ruhun qəbul etdiyi bütün hisslər əsliylə ayırd edilə bilməyəcək qədər mükəmməldir. Buna görə də, insanlar bu həqiqəti heç cür qavraya bilməzlər.

İnsanların bu açıq-aydın həqiqəti heç düşünmədən yaşamaları və bu həqiqəti qavraya bilməmələri də ayrı bir möcüzədir.

## İnsan ancaq beynindəki yeməkləri yeyə bilər

Çox müxtəlif yeməklərin olduğu ziyafət süfrəsinin başında əyləşən bir insan, süfrədə gördüyü yeməkləri yediyini zənn edər. Məhz bu insan, digər bütün insanlar kimi xeyli aldanmışdır. Çünki bu insan, əslində xarici aləmdəki yemək süfrəsində olan əsl yeməkləri deyil, onların beynində yaranan surətlərini yeyər. Dadı alan beynidir, dili və ya damağı deyil. Qırmızı almaların, yaşıl tərəvəzlərin rəngini görən beynidir, gözü deyil. Yenə bir-birindən ləzzətli yeməklərin qoxusunu alan beynidir, burnu deyil... Hər şey beynin içindəki kiçik bir yerdə baş verər. Bu insanın həqiqi yemək masasında oturması, həqiqi yeməklərə toxunması, həqiqi yeməklərin qoxusunu hiss etməsi və həqiqi yeməkləri yeməsi qeyri-mümkündür. O yalnız həqiqi yeməklərin surətləriylə təmasda olar.

Bu insanın bu mühüm səhvə yol verməsinin səbəbi isə, xarici aləmdəki yemək süfrəsiylə beynində surəti yaradılan yemək süfrəsinin, tamamilə bir-birinə bənzəməsidir. Buna görə də, əsliylə surətini bir-birindən ayırd edə bilməz. Gördüyü hər şeyin əsliylə təmasda ola bildiyini düşünər, amma bu əsnada qətiyyən beyninin içindən xarici aləmə çıxa bilməz.

Məhz bu, insanın dərin düşünərək qavraya biləcəyi inanılmaz bir həqiqətdir. Bu möcüzədən, əslində yuxarı sinif biologiya kitablarında belə bəhs edilir, amma insanlar ön mühakimələrindən ötrü bu həqiqəti qavraya bilmir və ya bunu anlamazlıqdan gəlirlər.

## İndiyə qədər heç kim bir gülün əslini görmədi, həmişə surətini seyr etdi

Ətrafımıza baxdığımızda hər şeyi beynimizin içində görərik. Gözlərəmiz və görmə sinirlərimiz, eynilə televizora görüntünü ötürən kabellər kimi, bir obyektə aid siqnalları beynimizə ötürərlər. Bu siqnallar isə, beynimizdə, bir televizor ekranında olduğu kimi, rəngli, üç ölçülü, işıqlı bir görüntüyə çevrilər və biz heç vaxt obyektlərin əslini görə bilmərik. Məsələn, gördüyümüz qıpqırmızı bir gülün beynimizdə yaranan surətidir. Gülün əsl rənginin necə olduğunu heç vaxt bilmərik və ya "yanımızdakı yoldaşımız da gülü bizim gördüyümüz rəngdə mi görür?, onun qırmızı adlandırdığı rəng, bizim qırmızı adlandırdığımız rənglə eynidirmi?", kimi sualların cavabını bilmək üçün təcrübələr apara bilmərik. Çünki eyni bağçadakı, eyni gülə baxan 100 insanın hər birinin beynində ayrı-ayrılıqda 100 gül görüntüsü əmələ gələr və heç biri, heç vaxt gülün əslini görməz, onun beynində yaranan surətini görər.

Bu açıq həqiqətə baxmayaraq, insanlar daim obyektlərin əsllərinə toxunduqlarını, əsllərini iylədiklərini zənn edərlər. İnsanların gördükləri surətləri həyatları boyu maddənin əsli zənn etmələri isə, Allahın yaratdığı ayrı bir möcüzədir. Bu əhəmiyyətli həqiqəti bilərək, Allahın yaratdığı möcüzələri görməyə başlamaq həyata baxış prizmanızı dəyişdirəcək.

# Dünya tarixindəki hər hadisə indi baş verir!

Allah qatında hər hadisə tək bir anda meydana gəlir. Allah üçün keçmiş, indi və gələcəkdəki şeylər, yalnız tək bir anda olmuş və bitmişdir. Keçmiş və gələcək, Allahın insanlar üçün yaratdığı anlayışlardır.

Bunu anlamaq üçün belə bir nümunə verək: Önünüzdə bir şəhərin quşbaxışı görünüşünü əks etdirən bir şəkil olduğunu düşünün. Bu şəkildə işarə ilə göstərilən insan, şəhərin digər ucuna getmək üçün müəyyən məsafə qət etməli və müəyyən vaxt sərf etməlidir. Ancaq bu əsnada bu şəklə quşbaxışı baxan bir insan, şəkildə şəhərin bütün uc nöqtələrini eyni anda görər. Eynilə bu nümunədə olduğu kimi, bizim baxış prizmamızdan baxdıqda, müəyyən hadisələrin reallaşması üçün zamana ehtiyac olduğu halda, bütün məkanları və zamanı yaradan Allahın hadisələrin əvvəlini və sonunu görə bilmək üçün zamana ehtiyacı yoxdur.

Allah qatında hər hadisə olub bitmişdir. Məsələn, Allah qatında, hz. Musa hal-hazırda Qırmızı dənizdən keçir, hz. Məhəmməd hal-hazırda yoldaşıyla birlikdə mağaraya sığınır, hz. Nuh hal-hazırda gəmisini hazırlayır və hal-hazırda gəmisiylə yola düşür, hz. İbrahim hal-hazırda oda atılır, hz. İsa hal-hazırda göyə yüksəldilir, hz. Məryəm hal-hazırda Cəbrayıl (ə.s)-la danışır və sair və il axır.

Allah qatındakı zamansızlıqda hər kadr, hər an eyni anda mövcuddur və sonsuza qədər də mövcud olacaq. Allahın yaratdığı heç bir görüntü, heç bir hadisə, heç bir varlıq yox olmaz. Bu, bir video kasetdəki görüntülərin seyr edilərək sonuna çatılsa belə mövcud olmağa davam etməsi kimidir. Ancaq insanın bu görüntüləri geri və ya irəli çəkmə imkanı yoxdur. Yalnız Allah, bütün bu kadrları tək bir anda görər və bilər. Əsla Allahın yaratmasındakı möhtəşəm sirləri və möcüzələri düşünərək, həqiqətlərlə üzləşməkdən qaçmayın.

Hz. Musanın Qırmızı dənizi keçməsinin təsvir edildiyi dövrümüzdəki bu anla, hadisələrin yaşandığı an Allah qatında birdir.

## Gəmi ilə səfərə çıxdığını zənn edən insan, beynindəki səfəri seyr edər

Gəmi ilə qitələrarası səfərə çıxdığını, kilometrlərlə yol getdiyini zənn edən biri əslində bir addım belə getməmişdir. Çünki bir gəmi vasitəsiylə səfərə çıxdığını zənn edərkən, əslində beyninin içində baş tutan səfəri seyr etmişdir. Gördüyü mənzərələr, fərqli ölkələrin sahilləri, limanlar, gəminin dənizi yararaq hərəkət etməsi, delfinlər və səmadakı buludların sürüklənməsi, bir sözlə, bütün bunlar beynində yaranan görüntülərdir.

Gəmi bir limandan ayrılarkən, limanın getdikcə kiçilən və ən sonunda yox olan görüntüsü, gəminin hərəkət edərək müəyyən məsafə qət etdiyi hissini verər. Halbuki, insan həmin anda, beynində getdikcə kiçilən liman görüntüsünü seyr edər. Gəmi də, liman da, səma da insanın beynindəki kiçik görmə mərkəzində yaranan görüntülərdir. Görüntülərin ölçülərinin dəyişməsi sayəsində, insan uzaqlıq və yaxınlıq hisslərini qavrayar, görüntüdə dərinlik olduğu hissinə qapılar. Əslində uzaqda olan heç bir şey yoxdur; hər şey tək bir səthdə, tək bir nöqtənin üzərindədir.

Dünya həyatına ehtirasla bağlananlar, həm bu əhəmiyyətli həqiqəti anlamazlıqdan gəlir, həm də insanların bunu anlamalarına mane olmağa çalışırlar. Çünki, gördüyü hər şeyin beynində yaranan bir surət olduğunu qəbul edən insan, nə çıxdığı səyahətlərlə digər insanlara göstəriş edə, nə də gördüyü yerlərlə öyünə bilər.

**De: “Allaha qoşduğunuz şəriklər arasında haqqa yönəldən bir kimsə varmı?” De: “Allah Öz qullarını haqqa yönəldir. Elə isə deyin görək haqqa yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa özünə doğru yol göstərilməyincə onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə edirsiniz?” (Yunis surəsi, 35)**

## Çox böyük bir həqiqəti görməzlikdən gəlməyin

Əlinizdə tutduğunuz kağızın nazikliyini, daşıdığınız paketin ağırlığını və ya sabunun sürüşkənliyini hiss edən əslində əliniz deyil. Əlinizlə toxunduğu cisimlər arasında gedən bəzi qarşılıqlı təsirlər, hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilər. Əlinizdəki sinirlərin beyninizə ötürdüyü bu siqnallar, beyində toxunma hissinə çevrilər. Dolayısilə əl uzadıb bir yoldaşınızla görüşdüyünüzdə, bu əl tutma hissi beyninizə gəlib çatan siqnalların şərhidir.

Bir çox insan (bu məlumata sahib olsa belə) maddənin əslinə toxunduğunu zənn edər. Halbuki bu, qətiyyən mümkün deyil. İnsan əl uzadıb bir yoldaşıyla görüşdüyünü beynində hiss edər. Yoldaşının əlinin əslinə heç vaxt toxuna bilməz. Toxunduğu və hiss etdiyi onun əlinin beynindəki bir surətidir.

Madam ki, toxunduğumuz və ya gördüyümüz cismin əsliylə təmasda bilmirik, o zaman bu surətin orijinalı ilə eyni olub olmadığından necə əmin ola bilərik? Heç vaxt bundan əmin ola bilmərik, çünki həyatımız boyu beynimizin içində yaşayarıq. Gördüklərimiz, toxunduqlarımız, eşitdiklərimiz, daddıqlarımız daim beynimizdədir. Ancaq bu surətlər Allahın yaratdığı bir möcüzə olaraq, original hallarına o qədər bənzəyir ki, insanların əksəriyyəti bu həqiqəti qavraya bilməzlər. Hətta, bu gördüklərinin bir xəyal olduğunu bu insanlara izah etmək, əsllərini görə bilmədikləri barədə onları razı salmaq üçün uzun açıqlamalar vermək lazımdır.

Əlinizdə tutduğunuz hər hansı bir obyekti hiss edən əliniz deyil. Əlinizdəki hüceyrələr bəzi qarşılıqlı təsirləri elektrik cərəyanına çevirər və bu elektrik cərəyanları beyninizdə toxunma hissini meydana gətirər.

## Beynimizdən kənardakı dünyada heç səs yoxdur

İnsanların əksəriyyəti, xarici aləmdə bəzi səslər olduğunu və bizim də

bu səsləri qulağımızla eşitdiyimizi düşünər.

Məsələn, maqnitofonun səsini sonuna qədər verən bir insan, ondan çox gur bir səs çıxdığını və bu səsi eşitdiyini zənn edər.

Halbuki əslində xarici aləmdə, yəni insanın beynindən kənarda heç səs yoxdur. Dünya tamamilə səssizdir.

Beynimizdən kənardakı dünyada yalnız titrəyişlər var.

Bu titrəyişlərsə yalnız qulaqlarımız və beynimiz tərəfindən səsə çevrilər. Yəni, eşidəcək bir qulaq və beyin olmadığı müddətcə, səs də yoxdur.

Üstəlik beynin içi də tamamilə səssizdir. Xarici aləmdə hər hansı bir səsin mövcud olduğunu qəbul etsək belə, bu səs beynə çata bilməz.

Beynə çatan, səsin elektrik siqnalları halındakı surətidir.

Lakin insan, bu dərin sükunət içində, eşitmə mərkəzinə gəlib çatan elektrik siqnallarını güclü səs kolonkalarından çıxan gur səsli bir mahnı kimi dinləyər.

Bəs səssiz beynin içində, bir qulağa, qulaq hüceyrələrinə, qulaq seyvanına ehtiyac olmadan, mahnıları dinləyən, dinlədiklərindən zövq alan kimdir?

Bu, **insanın ruhudur.**

O zaman, dinləyən bir insan ruhu olmadığı müddətcə, nə maqnitofonun, nə işləyən bir mühərrikin, nə də çalan bir zəngin səsi yoxdur. Allahın yaratdığı bu inanılmaz möcüzə üzərində mütləq düşünün.

## Beyninizdəki dərin sükunətdə, konfransdakı səsləri dinləyən ruhunuzdur

Böyük bir auditoriyada diqqətlə bir çıxışı dinləyən insanların hamısı məruzəçinin ağızından çıxan hər səsi eşitdiklərini zənn edərlər. Məruzəçi də eyni əminliklə düşüncələrini izah edər və dinləyicilərin özünü eşitdiklərini zənn edər. Halbuki həqiqət çox fərqlidir və həmin anda auditoriyadakı heç kimin bilmədiyi, inanılmaz bir möcüzə baş verir.

Çıxış edən insan, beynindəki dinləyicilərə bir şeylər izah edir, eynilə

dinləyicilər də izah edilənləri beyinlərində dinləyirlər. Həmin anda auditoriyada olduqlarından olduqca əmin olan onlarla insan, bütün bunları əslində beyinlərində yaşayır.

Bu möcüzəni qavraya bilmək üçün qulaq haqqında doğru məlumatlara sahib olmaq lazımdır. Çünki bir çox insan səsi eşidənin qulaqları olduğunu düşünər. Halbuki qulaq yalnız özünə gələn xəbərdarlıqları elektrik siqnallarına çevirər, sonra bunları beynə ötürər. Bu siqnallar beyindəki eşitmə mərkəzində səs kimi eşidilər.

Burada çox əhəmiyyətli bir nöqtəyə diqqət yetirilməlidir. Beynə gəlib çatan, səslərin əslləri deyil, onlara aid elektrik siqnallarıdır; kəllənin içində qorunan beynə qətiyyən heç bir səs daxil olmur. Buna baxmayaraq, auditoriyadakı dinləyicilərin hər birinin beynində, bir qulağa ehtiyac olmadan elektrik siqnallarını məruzəçinin səsi kimi eşidən bir varlıq var.

Bu varlıq hər şeyi o qədər həqiqətmiş kimi yaşayar ki, heç kim eşitdiyi səsin əsli ilə təmasda olmadığını hiss edə bilməz. Bu varlıq, Allahın bənzərsiz bir elmlə yaratdığı **ruhdur**. Beynin içindəki dərin sükunətə baxmayaraq ruh, hər şeyi mükəmməl aydınlıqda və tamamilə əslinin bənzəri olaraq eşidər.

## Avtomobil idarə edən insan, yolu beynindəki monitordan seyr edər

Leysan yağışı altında avtomobil idarə edən insan; möhkəm şəkildə yapışdığı sükanı da, çətinliklə görə bildiyi yolu da, yolu görməsini təmin edən siləcəkləri də eyni yerdə, yəni beynində görər.

Yağan yağışdan, asfalt yoldan, avtomobilin şüşəsindən, bir sözlə, bu insanın ətrafındakı cisimlərdən gəlib çatan xəbərdarlıqlar, beyində, yağış, avtomobil, yol kimi seyr edilər. Beyindəki monitorda xarici aləmi seyr edən bir varlıq var. Bu varlıq Allahın böyük bir möcüzə olaraq yaratdığı ruhdur.

Beynindəki monitordan yağmur görüntüsünü seyr edən insanın avtomobili heç bir yerə vurmadan idarə etməsinin nə qədər çətin olduğunu nə vaxtsa düşündünüz mü? Bu sualın cavabını mütləq düşünün.

## Yoxsa siz maddənin əslini gördüyünüzümü hesab edirsiniz?

Evinizin şüşəsindən baxdığınızda gördüyünüz görüntü bir il boyunca daim dəyişər. Qışda qarlı, yaz aylarında yağışlı, yayda isə günəşli və yamyaşıl bir görüntüylə qarşılaşarsınız. Bəs indiyə qədər bu görüntüləri harada gördüyünüzü heç düşündünüz mü? Par-par parıldayan günəşin, qarın və ya yağışın yalnız beyninizdə yaranan surətlərini seyr etdiyiniz ağlınıza gətirdiniz mi?

Dünyadakı insanların böyük hissəsi, bu görüntüləri beyinlərinin içindəki qaranlıq bir məkanda gördüklərini və bunların əsllərini heç vaxt görə bilməyəcəklərini düşünməzlər. Halbuki bu, 21-ci əsrdə bütün elm dünyasının qəbul etdiyi, yuxarı sinif biologiya kitablarında belə yer alan elmi bir həqiqətdir.

Dünya yaradıldığından bəri pəncərəsini açıb da bayırdakı mənzərənin əslini görən heç kim olmamışdır. Gördüyünü zənn edən insan da, əslində beynində yaranan xəyaldan başqa bir şey görməmiş, indiyə qədər heç kimin görmədiyi xəyali bir varlığa inanmışdır. Çünki insanların maddə dedikləri şey, əslində gördükləri xəyala verdikləri bir addan başqa bir şey deyil. Hər şeyin xarici aləmdəki əslini gördüklərini iddia edərkən göstərdikləri yeganə dəlil isə yenə xəyaldır.

## Xarici aləmdə maddənin olduğunu iddia edənlərin əllərindəki yeganə dəlil xəyallarıdır

Bir dağın zirvəsində oturub, ətrafını əhatə edən bənzərsiz mənzərəni seyr edən bir alpinist, bu inanılmaz gözəlliyi beyninin içində gördüyündən xəbərsizdir. Halbuki bu ucsuz-bucaqsız görüntü, alpinistin beyninin içindəki bir neçə mərcimək dənəsi böyüklüyündə olan görmə mərkəzində əmələ gələr. Gördüyü şey də, mənzərədən gələn şüaların, beynində şərh olunmasından

başqa bir şey deyil. Yəni əslində o mənzərəni deyil, mənzərənin elektrik siqnallarından ibarət, tamamilə əslinə bənzəyən surətini görür. Alpinist, bu bənzərlikdən ötrü, mənzərənin xarici aləmdəki əsliylə təmasda olduğunu düşünər. Xarici aləmdə maddənin mövcud olduğuna inanar. Buna inanmaqda sərbəstdir. Ancaq bunu da qətiyyən ağlından çıxartmamalıdır ki, dünya yaradıldığından bəri heç bir insan maddənin əslini görə bilməmişdir və o da heç kimin görmədiyi bir şeyə "var" deyir. Əlindəki yeganə dəlili isə beynində yaranan bir xəyaldır.

## Həyatınız boyu beyninizin içindəki kitabları oxuyaraq yeni şeylər öyrəndiyinizi bilirsinizmi?

Kiçik yaşlarınızdan etibarən oxuduğunuz hekayə kitablarının, dərsliklərin, ensiklopediyaların, romanların, bir sözlə, bütün kitabların əslində beyninizdə yaranan surətləriylə təmasda olduğunuzu və heç vaxt beyninizdən kənara çıxıb bir kitabın əslini oxuya bilməyəcəyinizi bilirsinizmi?

Kitabı oxuyarkən səhifənin üstünə qoyduğunuz əliniz, kitabınız və ətrafında əyləşdiyiniz masa beyninizin görmə mərkəzində, hər biri eyni yerdə olacaq şəkildə əmələ gəlir. Ancaq kitabdan gələn elektrik xəbərdarlıqları nəticəsində beyində yaranan görüntü o qədər aydın və həqiqidir ki, siz bu həqiqəti qavraya bilməzsiniz. Kitabın əslini gördüyünüzü zənn edər, əllərinizin kitabın əslini tutduğunu düşünərsiniz. Bir də, beyninizdəki kiçik görmə mərkəzində yaranan bu kitabı oxuyub başa düşən və bir çox məlumatı öyrənənin başqa varlıq olduğunu unudarsınız.

Bir çox insan, gözə ehtiyac olmadan sətirləri seyr edən bu varlığın, Allahın insanlara verdiyi ruh olduğundan xəbərsizdir. Bundan xəbərdar olanların əksəriyyəti isə, bu inanılmaz həqiqətdən qaçmağa çalışırlar.

Bu qəti həqiqət və ruhun varlığı barəsində düşünənlər, həqiqətlərdən qaçmayanlar daim qazanclı olacaqlar. Allahın sonsuz yaratma gücünü anlamağa başlayanlar üçün bütün dünya yeni bir məna qazanacaq.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

**Darvini məhv edən çətinliklər**

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün

gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri "spontane generation" adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab

edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin "Növlərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin

həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

"Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb". *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu

isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı**

**dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz”**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, “Növlərin mənşəyi” kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə “təkbaşına” və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

### Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

“Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və

ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları "ara-keçid forması" adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin "Növlərin mənşəyi"ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

**Darvinin puç olan ümidləri**

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi

nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar". *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni "növlərin mənşəyi" Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

### İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk "meymunabənzər əcdadları"na "cənub meymunu" mənasını verən "australopithecus" adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, "The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də "homo", yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: "*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib", - deyərək bunu qəbul edir. *(J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus* > *homo habilis* > *homo erectus* > *homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz. Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil

olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür". *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından "Darvin formulu" adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi

milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

### Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların

fövqündə duran çox böyük həqiqət də var.

### Beyinin içində görən və eşidən şüur kimə aiddir?

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

### Materialist inanc

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni

zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

"Bizim materializmə bir inancımız var, bu "a priori" (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan "a priori" bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik". *(Richard Lewontin, "The Demon-Haunted World", The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah'ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah'dır.

## Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini

işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**